# 26 İYUN SİLAHLI QÜVVƏLƏR GÜNÜDÜR!

Xalqın qəzeti!

Xalq qəzeti

№ 130 (30824) 26 iyun 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Müstəqilliyin və dövlətçiliyin mötəbər dayağı

**Dövlət təkcə konstitusiyası və hökumətinin olması ilə deyil, həm də özünün sərhədlərini və maraqlarını qorumaq qabiliyyəti ilə müəyyən edilir. Nizami ordu bu funksiyanı institusional formada yerinə yetirən bir qurumdur. O, suverenliyin təməl institutlarından biri, müstəqillik rəmzi, ərazi bütövlüyünün və daxili sabitliyin təminatçısıdır.**



İstər qədim, istərsə də müasir dövlətlərin tarixi birmənalı şəkildə sübut edir ki, güclü və nizam-intizamlı ordu olmadan sabit, təminatlı və tanınan dövlətçilik qurmaq mümkün deyil. Azərbaycan müstəqilliyini bərpa etdikdən dərhal sonra, nizami ordusu, formalaşdırılmış Silahlı Qüvvələrə malik olmadığından, hərbi funksiyalar şəxsi silahlı qruplar və dəstələr tərəfindən mənimsənildi ki, bu da hakimiyyətin fəaliyyətini məhdudlaşdırdı, dövlətçiliyi iflasa sürüklədi, Ermənistan tərəfindən ərazilərin işğalına və ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxardı.

ardı səhifə ⇨ 3

## Ermənistanda dövlət çevrilişi təhlükəsi: reallıq, yoxsa mif?

səhifə ⇨ 4

## Paşinyan – Qaregin qarşıdurması şiddətlənir



səhifə ⇨ 9

## QVADELUP – XXI əsrin “departament” adlı müstəmləkəsi




səhifə ⇨ 13

# Müzəffər Azərbaycan Ordusu – milli qürur, milli ləyaqət simvolu




***Prezidenti İlham Əliyev:***

**Biz Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik. Bu, tarixi nailiyyətdir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmamışdır. Biz bütün gücümüzü səfərbər edərək düşmənə sarsıdıcı zərbələr endirib, düşməni məğlub etdik, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik.**



# Sloveniya Respublikasının Prezidenti Zati-aliləri xanım Nataşa Pirts Musara

**Hörmətli xanım Prezident!**

Sloveniya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Sloveniya arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli, həm də çoxtərəfli əsasda bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Sloveniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 iyun 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə Sloveniya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram. Həmçinin ölkənizə davamlı tərəqqi və inkişaf, xalqınıza firavanlıq arzulayıram.

Mən ölkələrimiz və xalqlarımız arasında sıx əlaqələri daha da dərinləşdirən, dostluğa və ortaq maraqlara əsaslanan ikitərəfli əməkdaşlığımızın möhkəmlənməsini böyük məmnunluqla alqışlayıram. Sloveniya Azərbaycan ilə dostluq münasibətlərini yüksək qiymətləndirir və əminəm ki, bu əlaqələr gələcəkdə həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə daha da genişlənəcəkdir.

Mən daha geniş regionda sülh və sabitliyin təşviqi üçün birgə səylərimizi davam etdirməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Nataşa Pirts MUSAR,***
***Sloveniya Respublikasının Prezidenti***

*

**Zati-aliləri, cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – 28 May - Müstəqillik Günü münasibətilə Zati-alinizə Peru Hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Bu xoş fürsətdən istifadə edərək, mən gələn il diplomatik münasibətlərinin 30 illiyini qeyd edəcək ölkələrimiz arasında ikitərəfli əlaqələrin yaxşı səviyyədə olduğunu məmnunluqla bildirirəm.

Peru Respublikasının Azərbaycan Respublikası ilə qarşılıqlı anlaşmaya, hörmətə və xalqlarımızın maraqlarına əsaslanan hərtərəfli əməkdaşlığı davam etdirməyə hazır olduğunu təsdiq edirəm.

Əlamətdar bayram münasibətilə Sizə bir daha təbriklərimi çatdırır, ən yüksək ehtiramımı ifadə edirəm.

***Dina Ersilia Boluarte ZEQARRA,***
***Peru Respublikasının Prezidenti***

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsi verilsin:

polkovnik İdris Mustafa oğlu Məhərrəmova
polkovnik Vasif Tofiq oğlu Xəlilova
polkovnik Elnur Sadıq oğlu Kazımova
polkovnik Elgün Aqil oğlu Əliyevə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2025-ci il**

# M.Q.İbrahimova "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Mürsəl Qorxmaz oğlu İbrahimova "general-mayor" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2025-ci il**

# "Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi, habelə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Fəaliyyət Planı" (bundan sonra – Fəaliyyət Planı) təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

2.1. Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

2.2. Fəaliyyət Planının icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2025-ci il**

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları və mülki işçiləri təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Qurbanov Aqil Səlim oğlu
Rüstəmov Zaur Zeynalabdul oğlu – general-mayor
Cəfərov Rauf Cəfər oğlu – polkovnik
Qurbanov Cavanşir Mövlud oğlu – polkovnik
Abdullayev Həsən Ağasəf oğlu – polkovnik-leytenant
Məmmədov Əflatun Mübariz oğlu – polkovnik-leytenant

**"Vətən uğrunda" medalı ilə**

Xasməmmədov İlqar Akif oğlu – polkovnik
İbrahimov Rasim Ağahüseyn oğlu – polkovnik
Rəsulov Azər Mustafa oğlu – polkovnik
Şərifov Etibar Vaqif oğlu – ədliyyə polkovniki
Yusifli Zaur Qəzənfər oğlu – polkovnik
Muradov Nahid Paşa oğlu – polkovnik-leytenant

**"İgidliyə görə" medalı ilə**

Hüseynov Anar Tofiq oğlu – polkovnik
Cəfərov Ziyəddin Hafiz oğlu – polkovnik-leytenant
Əsgərxanov Fariz Amil oğlu – polkovnik-leytenant
Məmmədov Aqil Salamat oğlu – polkovnik-leytenant

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Bayramov Namiq Süleyman oğlu – general-mayor
Əbdülov Gündüz Əliş oğlu – general-mayor
Ələvsədov Həsən Əli oğlu – general-mayor
Qafarov İlqar Saab oğlu – general-mayor
Pirverdiyev Akif Səməndər oğlu – general-mayor
Ağayev Amil Sədulla oğlu – polkovnik
Axundzadə Rüfət Yusif oğlu – polkovnik
Babayev Oktay Ənvər oğlu – polkovnik
Bədəlov Rüstəm Bahadir oğlu – polkovnik
Eminov Emil Talıb oğlu – polkovnik
Əzizov Fehruz İsrafil oğlu – polkovnik
Heybətli Azər Əfrayıl oğlu – polkovnik
İsmayılov Anar Tapdıq oğlu – tibb xidməti polkovniki
Məhərrəmov Seymur Ağakərim oğlu – polkovnik
Məlikzadə Araz Ağamməd oğlu – polkovnik
Məmmədov Sergey Şammuradoviç – polkovnik
Mirzəyev İqbal Yusif oğlu – tibb xidməti polkovniki
Rəhimov İlkin İbrahim oğlu – polkovnik
Zeynallı Elçin Nadir oğlu – polkovnik
Abdulla Hikmət Naib oğlu – tibb xidməti polkovnik-leytenantı
Aslanov Teymur Tahir oğlu – polkovnik-leytenant
Cəbrayılov Rahib Sahib oğlu – tibb xidməti polkovnik-leytenantı
Cəfərov Aqil Özixan oğlu – polkovnik-leytenant
Cumayev Vasif Əziz oğlu – 2-ci dərəcəli kapitan
Dadaşov Elgün Fərail oğlu – polkovnik-leytenant
Xəlilov Elvin Eyvaz oğlu – polkovnik-leytenant
İmranov Elxan Fərman oğlu – polkovnik-leytenant
Qafarov Ceyhun Camaləddin oğlu – polkovnik-leytenant
Qarayev Asəf Ənvər oğlu – polkovnik-leytenant
Musayev Vüqar Samayıl oğlu – polkovnik-leytenant
Nəbiyev Tərxan Elxan oğlu – polkovnik-leytenant
Pənahov Eldar Aydın oğlu – 2-ci dərəcəli kapitan
Tağıyev Rəşad Fikrət oğlu – polkovnik-leytenant
Vəliyev Fuad Rəsul oğlu – polkovnik-leytenant
Dostəliyev Mircəlal Nadir oğlu – mayor
Əhmədov Behbud Cahət oğlu – mayor
Əliyev Murad Adil oğlu – mayor
Əsgərov Samir Sərdar oğlu – mayor
Fərziyev Ziya Zakir oğlu – 3-cü dərəcəli kapitan
İbrahimov Zaur Rafiq oğlu – mayor
Kəlbəliyev Asim Qabil oğlu – mayor
Quliyev Zaur Fərhad oğlu – mayor
Mənsiyev Elsevər Davud oğlu – mayor
Mustafayev Rauf Nurağa oğlu – mayor
Müslümov Təbriz Firizman oğlu – mayor
Novruzov Ziya Eyvazalı oğlu – mayor
Nurəliyev Seymur Fəryad oğlu – mayor.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2025-ci il**

# XİN-də İran və Sudan səfirləri ilə görüş

**İyunun 25-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İranın ölkəmizdə yeni təyin olunmuş səfiri Müctəba Dəmirçilu ilə görüşüb.**



Səfir etimadnaməsinin surətini Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinatı münasibətilə təbrik edib, ona ölkəmizdə diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Sonra iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, bölgədə cari təhlükəsizlik məsələləri, o cümlədən İsrail–İran qarşıdurması müzakirə olunub. Ölkəmizin nümayiş etdirdiyi mövqe və narahatlığımız bir daha diqqətə çatdırılıb.

Azərbaycanla İran arasında dost münasibətlərin inkişafında ölkə liderləri arasında təmasların, o cümlədən mövcud siyasi dialoqun vacibliyi, ümumi maraq kəsb edən məsələlərin müzakirəsinin əməkdaşlığın genişləndirilməsinə töhfə verdiyi vurğulanıb. Azərbaycanın quru sərhədindən istifadə etməklə müxtəlif ölkələrin və İranın vətəndaşlarına keçid üçün şərait yaradıldığına görə Azərbaycan tərəfinə təşəkkür ifadə olunub.

*

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Sudanın ölkəmizdə yeni təyin olunmuş səfiri Ənəs Eltayeb Elqaylani Mustafa ilə görüşüb.**

Səfir etimadnaməsinin surətini Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinatı münasibətilə təbrik edib, ona ölkəmizdə diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Sonra iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, o cümlədən bölgədəki cari vəziyyət və təhlükəsizlik məsələləri müzakirə olunub.

***XQ***

# Azərbaycanın media heyəti Çində



**Çin Xalq Respublikasına səfəri çərçivəsində Azərbaycan nümayəndə heyəti iyunun 25-də Sinxua xəbər agentliyində olub.**

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov apreldə Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın və digər sənədlərin imzalanmasının mövcud münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəltdiyini deyib.

Sinxua agentliyinin prezidenti Fu Hua rəhbərlik etdiyi qurumun beynəlxalq informasiya əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu qeyd edərək, Azərbaycanla media sahəsində əməkdaşlığın inkişafının hər iki tərəf üçün faydalı olacağını vurğulayıb. O, Sinxua ilə AZƏRTAC-ın son illərdə bir çox istiqamətdə uğurla əməkdaşlıq etdiyini vurğulayayıb.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev rəhbərlik etdiyi agentliyin Sinxua ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyini bildirib, agentliklərin sıx əməkdaşlıq etdiyini deyib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılıb, tərəflər arasında əlaqələrin genişləndirilməsi üçün gələcək addımlar müzakirə edilib.

*

**Həmin gün nümayəndə heyətimiz bu ölkənin ən nüfuzlu media orqanlarından biri olan "Jenmin Jibao" qəzetinin redaksiyasını ziyarət edib.**

Ziyarət çərçivəsində keçirilən görüşdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə media sahəsində geniş və ardıcıl islahatların həyata keçirildiyini, bu islahatların əsas məqsədinin müasir çağırışlara cavab verən, dayanıqlı və cəmiyyətin inkişafında fəal rol oynayan media mühitinin formalaşdırılması və gücləndirilməsi olduğunu deyib.



"Jenmin Jibao" qəzetinin prezidenti Yu Şaolian rəhbərlik etdiyi media qurumunun tarixi və fəaliyyəti barədə geniş məlumat verib. Bildirib ki, qəzet təkcə çap versiyası ilə deyil, eyni zamanda, müxtəlif rəqəmsal platformalar vasitəsilə milyonlarla izləyiciyə informasiya çatdırır.

Qeyd edək ki, nümayəndə heyətinə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Media ilə iş sektorunun müdiri Kamran Həsənov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin İdarə Heyətinin sədri Vüqar Əliyev və "AnewZ" telekanalının İcraçı direktoru Rüfət Həmzəyev daxildir.

# Müstəqilliyin və dövlətçiliyin mötəbər dayağı

**(əvvəli 1-ci səhifədə)**



1991-ci ildə müstəqillik haqqında bəyannamə qəbul edildikdən sonra Azərbaycan keçmiş sovet hərbi dairələri və yerli özünümüdafiə birləşmələri əsasında milli ordu formalaşdırmağa başladı. 1991-ci il oktyabrın 9-da Azərbaycan Müdafiə Nazirliyinin və Silahlı Qüvvələrinin yaradılması haqqında qərar qəbul edildi və quruma nizami bölmələr cəlb olunmağa başladı. Lakin Qarabağda Ermənistan Silahlı Birləşmələri ilə döyüşlər bu birləşmələrin son dərəcə aşağı effektivliyini nümayiş etdirdi.

Doğrudur, ölkə texnika və silahların bir hissəsini sovet ordusundan miras alaraq silahlı qüvvələrini formalaşdırmağa başlamışdı. Amma gənc ölkənin yeni yaradılmış ordusunda aydın komanda strukturunun olmaması, peşəkar zabitlərin çatışmazlığı, zəif maddi-texniki baza Azərbaycanı ciddi problemlər qarşısında qoyurdu.

Belə bir vaxtda Azərbaycan dərin hakimiyyət böhranı ilə üzləşdi. Ordu, nəinki nizami qurum kimi mövcud deyildi, praktiki olaraq yox idi. Könüllü dəstələr və zəif idarə olunan silahlı birləşmələr nizami qoşunları əvəz edirdi. Ermənistanın Qarabağ istiqamətində təcavüzü getdikcə genişlənirdi. Bu da ondan irəli gəlirdi ki, ölkədə rəsmi elan olunmuş Milli Ordu ordu idarəçiliyinin mərkəzləşdirilmiş sistemi yox idi. Belə siyasi xaos şəraitində ordunun yaradılması qeyri-mümkün olduğundan Azərbaycan cəhbədə bir-birinin ardınca məğlubiyyətlərlə üzləşirdi.

## Xaosdan nizama və mükəmməlliyə

Azərbaycan tarixində müasir, nizami və yüksək döyüş qabiliyyətinə malik ordunun formalaşdırılmasında ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı müstəsna rol oynadı. Hələ SSRİ hakimi mütləq olduğu dövrlərdə Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə dərin zəkası və siyasi intuisiyası ilə tarixin müəyyən bir dönəmində milli zabit kadrlarına böyük ehtiyac olacağını dərk etdiyindən, Moskvanın kəskin etirazlarına baxmayaraq Bakıda C.Naxçıvanski adına hərbi təmayüllü məktəbin açılmasına, hər il SSRİ-nin müxtəlif Ali Hərbi məktəblərində təhsil almaq üçün azərbaycanlı gəncləri yerləşdirməyə nail olmuşdu.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə hərbi sahədə köklü transformasiya başlandı. 1994-cü ildə Qarabağda atəşkəsin imzalanması isə ordunun sistemli şəkildə yenidən qurulmasına geniş imkan açdı. Hələ Naxçıvan Ali Məclisinin sədri olduğu dönəmdə Heydər Əliyev bu ərazidə yerləşən SSRİ Silahlı Qüvvələrinə məxsus əmlakı bir atəş açmadan belə Azərbaycanın mülkiyyəti etməyi bacardı.

Azərbaycan Prezidenti seçildikdən sonra isə ümummilli liderin ilk addımlarından biri nəzarətsiz silahlı birləşmələrin ləğvi, Sovet məktəbini bitirmiş keçmiş etibarlı milli zabitləri cəlb etməklə Milli Orduda şaquli hərbi komandanlığın bərpası oldu. Müdafiə Nazirliyinin institusional əsasda formalaşdırılmasına başlandı. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə “Hərbi vəzifə və hərbi xidmət haqqında” qanun qəbul edildi və ordunun hüquqi əsası qoyuldu. Silahlı qüvvələrin nizam-intizamını və strukturunu tənzimləyən nizamnamələr təsdiq edildi. Ləngimədən ölkənin və Türkiyə öndə olmaqla xaricdəki hərbi təhsil müəssisələrində milli kadr hazırlığına başlanıldı.

Ali Baş Komandan Heydər Əliyev başa düşürdü ki, ordusuz dövlət yoxdur və ola bilməz. O, təkcə Ordunun silahlarının təkmilləşdirilməsinə və instutisional quruluşa deyil, həm də ordu mühitində vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirirdi. Ordunun bütün xalqın təfəkküründə dövlətçilik rəmzi anlayışına çevrilməsi, orduda milli rəmzlər və mərasimlər, ideoloji təlim elementləri, intizamlı, savadlı, Vətənə bağlı “yeni tipli zabit” hazırlığı Heydər Əliyevin ordu quruculuğu siyasətinin əsas elementləri sırasında idi. O, hərbçilərin təltif edilməsində şəxsən iştirak edir, ön cəbhədəki bölmələrdə olur, döyüşçülər üçün böyük mənəvi əhəmiyyət kəsb edən nitqləri ilə təkcə dövlət başçısı deyil, həm də əsl Ali Baş Komandan olaraq Silahlı Qüvvələrin şəxsi heyətini səfərbər edirdi.

Heydər Əliyevin tarixi irsə sədaqəti Silahlı Qüvvələri gününün təsis edilməsində də özünü parlaq şəkildə göstərdi. Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanına əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 1918-ci il 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edildi.

Ulu öndər Heydər Əliyev Azərbaycan ordusunun yaradılmasında əsas strateji rol oynamışdır. Heydər Əliyev sadəcə olaraq nizami silahlı qüvvələr yaratmadı - ordunun təkcə güc strukturu deyil, həm də suverenliyin və milli ləyaqətin qarantı olduğu müstəqil Azərbaycanın hərbi fəlsəfəsinin əsasını qoydu. Azərbaycan ordusunun Heydər Əliyev epoxasından sonrakı uğurları onun qurucusunun başladığı siyasətin bilavasitə davamıdır.

Ümummilli lider Heydər Əliyevin mükəmməl və müasir Azərbaycan Ordusu fəlsəfəsinin ən parlaq şəkildə reallaşması isə şübhəsiz onun davamçısı və nəini Silahlı Qüvvələri, bütövlükdə müasir modern Azərbaycanın qurucusu Prezident İlham Əliyevin adı ilə bilavasitə bağlıdır. Ordu quruculuğunun sıçrayışlı və ən mükəmməl şəkildə həyata keçirilməsi İlham Əliyevin hakimiyyətə gəldiyi 2003-cü ilin ilk günlərindən başladı desək, əsla yanalmarıq. Onun rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri müasir, hərtərəfli təchiz edilmiş və təlim keçmiş, təkcə müdafiə deyil, həm də strateji hücum vəzifələrini həll etməyə qadir orduya çevrilib.

## Strateji baxış və siyasi iradə

Prezident İlham Əliyev hakimiyyətinin ilk illərindən XXI əsrin tələblərinə cavab verən ordunun yaradılması vəzifəsini qarşıya qoyub. Dövlət başçısı çoxsaylı çıxışlarında daim vurğulayırdı: “Güclü ordu Azərbaycanın suverenliyinin təminatıdır”.

Prezident İlham Əliyev hökumətinin silahlı qüvvələrdə əsaslı islahatlar aparmaq, onu ən masir mobil ordular sırasına qaldırmaq yolundakı fəaliyyəti ölkənin modernləşdirilməsi və demokratikləşdirilməsi ilə bağlı bəyan edilmiş məqsədlərin bir hissəsi olsa da, əslində çox vacib hissəsi idi. Azərbaycan ərazilərinin 20 faizinin işğal altında olduğu və münaqişənin açıq yara kimi qaldığı müddətdə, dünyanın bu münaqişəyə ədalətsizcəsinə ikili standartlardan yanaşan hegemon dövlətlərinin təzyiqləri altında müasir və moderen ordu qurmaq elə də asan məsələ deyildi.

Bir çox dövlətlərin Azərbaycana müasir silah və hərbi texnika satışına əsl mənada embarqo qoyduğu bir vaxtda dövlət başçısı qətiyyət, siyasi iradə nümayiş etdirir və dövlətinin haqqını böyük diplomatik ustalıqla müdafiə edirdi. Ona görə də hərbi islahatlar çox vaxt NATO ilə əməkdaşlıq səviyyəsində həyata keçirilirdi. Azərbaycan Heydər Əliyevin siyasi iradəsi sayəsində hələ 1994-cü ildə Sülh Naminə Tərəfdaşlıq (SNT) proqramına qoşulan ilk keçmiş sovet respublikalarından biri idi.

2003-cü ildən başlayaraq Avroatlantik inteqrasiya kursu daha da gücləndi. Bu, aspektlərdən ən sıx olanı Türkiyə vektoru idi. Türkiyə Azərbaycanın əsas hərbi tərəfdaş oldu. Minlərlə azərbaycanlı zabit Türkiyənin hərbi təhsil müəssisələrində təhsil alırdı. İkinci vektor NATO standartlaşdırması idi: komandanlıq strukturlarını, təlimləri və logistikanı alyansın standartlarına uyğunlaşdırmaq üçün islahatlar aparılmağa başlandı. Üçüncü vektor, əlbəttə Silahlı qüvvələrin yeni hissələrinin yaradılması idi. Bu dövrdə əlahiddə ümumqoşunlar, hava-desant və mexanikləşdirilmiş birləşmələr, eləcə də pilotsuz bölmələr fəal şəkildə formalaşdırıldı.

Prezident İlham Əliyev Azərbaycana neft-qaz gəlirləri artmağa başlayan gündən hərbi büdcənin artırılmasını ön plana çəkdi. Dövlət başçısı nəinki hərbi büdcənin əhəmiyyətli artımını təmin etdi, həm də hərbi sistemin bütün komponentlərinin - texniki bazadan tutmuş insan resurslarına qədər dərin modernləşdirilməsi təşəbbüsü ilə çıxış etdi. Azərbaycanın müdafiə xərcləri 2003-cü ildəki 135 milyon dollardan 2008-ci ildə 1,85 milyard dollara yüksəldi. Artan neft və qaz gəlirləri fonunda orduya ayrılan vəsait kəskin şəkildə artırdı. 2004-cü ildən 2010-cu ilə qədər müdafiə büdcəsi təxminən 15 dəfə artmışdı. 2005-ci ilin dekabrında silah istehsalına nəzarət etmək üçün Müdafiə Sənayesi Nazirliyi yaradıldı.

Ermənipərəst Qərb dövlətləri isə Azərbaycanın hər an hərbi yolla Ermənistan–Azərbaycan münaqişəsini öz xeyrinə həll edə biləcəyindən ehtiyat edirdi. Amma bunlar əbəs idi. Azərbaycanın dövblət başçısı açıq siyasət müstəvisinə keçmişdi və sözün əsl mənasında böyük siyasi iradə nümayiş etdirirdi. 2008-ci ildə keçirilən hərbi paradda çıxış edən Prezident İlham Əliyev bunu açıq bəyan etdi: “Ermənistanla Azərbaycan arasında mövcud olan qüvvələr balansı artıq yoxdur. Bu gün Azərbaycan ordusu regionun ən güclü ordusudur”.

Həqiqət belə idi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hərbi büdcəsi 17 ildə 10 dəfə artmışdı. 2020-ci ilə qədər hərbi büdcə hər il 2 milyard dolları keçirdi. Artırılan vəsait müasir silah və texnikanın alınmasına yönəldilirdi. Şübhəsiz, bu, Azərbaycana düşmən üzərində texnoloji üstünlük əldə etməsinə imkan verdi.

Prezident Əliyev reallığı ən yüksək dərəcədə qiymətləndirməyi bacaran müdrik dövlət xadimi idi və yaxşı bilirdi ki, peşəkar və motivasiyalı zabit və əsgərlər olmadan güclü ordudan söhbət gedə bilməz. Ona görə də dövlət rəhbəri təşəbbüslə çıxış edib Silahlı Qüvvələrin Milli Akademiyasının modernləşdirilməsini, ən yaxşı kursantların Türkiyə, Pakistan, ABŞ və digər ölkələrə təhsil almağa göndərilməsini, komanda heyətinin hazırlanmasında NATO standartlarına keçirilməsini, Türkiyə, İsrail və digər ölkələrlə birgə təlim mərkəzlərinin yaradılmasını gerçəkləşdirdi.

Bütün bunlarla paralel olaraq strateji ittifaqlar və hərbi əməkdaşlıq sahəsində ciddi müqavilələr imzalanmağa başlandı. Prezident İlham Əliyev ardıcıl olaraq ilk növbədə Türkiyə ilə hərbi-siyasi ittifaq qurdu. Bu, əməkdaşlığın inkişafında təməl daşı oldu. Azərbaycan hərbi sahədə əməkdaşlığını İsrail, Pakistan, İtaliya və digər ölkələrlə də genişləndirməyə müvəffəq oldu.



## Ali Baş Komandanın Zəfər zirvəsi

İslahatların kulminasiyası 2020-ci ilin payızında Azərbaycanın 44 günlük müharibədə qazandığı qələbə oldu. Bu, yeni ordu modelinin effektivliyinin parlaq nümayişi idi. Həmin ilin sentyabr-noyabr aylarında baş verən müharibə Azərbaycan Silahlı Qüvvələrinin tarixində mühüm məqam oldu.

2020-ci il sentyabr ayının 27-də Ermənistan silahlı qüvvələri cəbhə xətti boyunca Azərbaycana qarşı genişmiqyaslı təxribat törətməklə xalqımızın 30 illik səbir kasasını daşırdı. Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusuna “Dəmir yumruq” adlanan əks-hücum əməliyyatına başlamaq əmri verdi. Azərbaycan ordusunun 44 gün davam edən hərbi əməliyyatları Silahlı Qüvvələrimizin Zəfəri ilə başa çatdı. Azərbaycan ordusu öz Ali Baş Komandanı İlham Əliyevin yüksək sərkərdəlik məharəti sayəsində bütün dünyaya müasir müharibənin necə aparılmalı olduğunu parlaq qələbə qazanmaqla nümayiş etdirdi.

Bütün cəbhə boyu hücuma keçən Azərbaycan Silahlı Qüvvələri mobillik, sürətli qərar qəbul etmək, kamikadze dronların və artilleriya qurğularının dəqiq zərbələrindən aktiv istifadə və döyüşçülərmizin yüksək peşəkarlığı sayəsində düşmənə göz açmağa imkan verməyib onun döyüş nöqtələrini, canlı qüvvəsini və hərbi texnikasını məhv edirdi. Az bir vaxtda Erfmənistan silahlı qüvvələrinin minlərlə əsgəri döyüş mövqelərini tərk edib qaçmağa üz qoydu.

“Yaşma” adı ilə döyüşlərdə misilsiz şücaət nümayiş etdirib düşmənin kabusuna çevrilən Xüsusi Təyinatlı Qüvvələr Laçında, Cəbrayılda, Şuşada bütün dünyanı heyrətə gətirən misilsiz qəhrəmanlıqları ilə Zəfər tarixi yazdılar. Şuşa, Hadrut, Füzuli, Cəbrayıl və digər ərazilərə nəzarəti bərpa etməyə imkan verən hərbi-diplomatik hərəkətlərə isə şəxsən Ali Baş Komandan İlham Əliyev rəhbərlik edirdi.

Rusiyanın Xəzər Strateji Araşdırmalar İnstitunun direktoru, tanınmış beynəlxalq hərbi ekspert İqor Korotçenko müharibədən dərhal sonra baş verənləri şərh edərkən qeyd edirdi ki, Azərbaycanın bu qələbəsi uzunmüddətli, düşünülmüş hərbi strategiyası, Silahlı Qüvvələrin bütün növ və qollarının sistemli şəkildə inkişaf etdirilməsi sayəsində mümkün olub.

Bu gün Azərbaycan ordusu haqlı olaraq dünyanın ən güclü ordularından biri hesab olunur. Bu, real döyüş əməliyyatları zamanı əldə edilən nəticələrlə bağlıdır. Konkret ölkədə hərbi quruculuğun necə və hansı formada aparıldığını göstərən ən yaxşı sınaq məhz müharibə oldu. Dövlətimiz, millətimiz, xalqımız üçün son dərəcə həyati əhəmiyyət kəsb edən belə bir müharibədən Azərbaycan Ordusu öz müzəffər Ali Baş Komandanı İlham Əliyevin sayəsində Zəfərlə çıxdı.

2020-ci il noyabrın 10-da döyüş meydanında məğlubiyyətini qəbul edən Ermənistanın kapitulyasiya aktına imza atdı. Amma bu hələ sülh demək deyildi, çünki ermənilərin revanşist qüvvələri nəyəsə ümid etməkdə idilər. Bu ümidlə də olnlar 2023-cü il sentyabrın 9-da səhər saatlarında azad edilmiş Qarabağda Azərbaycan Silahlı Qüvvələrini və dinc sakinləri atəşə tutdular. Azərbaycanın Müdafiə Nazirliyinin "Antiterror əməliyyatı" adı verdiyi cavab tədbirləri başladı.

23 saat davam edən hərbi əməliyyatlar sentyabrın 20-də, saat 13:00-da əldə olunan razılığa əsasən dayandırıldı. Razılığa əsasən Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin bütün birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyub döyüş mövqelərindən və hərbi postlardan çıxmaq məcburiyyətində qaldılar. Bununla da Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi.

Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyev münaqişə ilə bağlı verdiyi müsahibələrinin birində dedi: “ Hərbi qarşıdurma başa çatıb. Həqiqətən də Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü bərpa etdi, həmçinin Azərbaycan öz ərazilərinin 30 ildir davam edən hərbi işğalına son qoydu. Azərbaycan hələ 2020-ci ildə 44 günlük müharibə başa çatdıqdan sonra Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olduğunu bəyan edib. Buna görə də Azərbaycan sülh müqaviləsinin fundamental prinsiplərini və mətnini təklif edib”.

Doğrudur, Ermənistanda hələ də bəzi revanşist siyasi qüvvələr bu acı məğlubiyyətləri ilə barışmaq istəmirlər. Hansı qüvvəyə ümid etdikləri bəllidir. Erməni revanşıstləri bir şeyi anlamırlar ki, Azərbaycan daha 30 il əvvəlki Azərbaycan deyil. İndi onun Silahlı Qüvvələri ölkənin ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa və istənilən düşmənə layiqli cavab verməyə hər an hazırdır.

Beləliklə, Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi 22 ildə nəinki ordunu müasirləşdirə bildi - o, regionun ən güclü ordularından birini yaratdı, onu milli təhlükəsizliyin təminatçısına çevirdi, ərazi bütövlüyünü bərpa etdi. Onun rəhbərliyi ilə Azərbaycan hərbi və geosiyasi müstəvidə hesablaşılan ölkəyə çevrildi və bu gün beynəlxalq aləmdə böyük hörmətlə qəbul edilir.

Sonda qeyd edək ki, müasir hərb tarixində 44 günlük müharibə və antiterror əməliyyatı öz uğuru və yekun hərbi-siyasi məqsədləri baxımından misilsiz bir Zəfərdir. Bu səbəbdən dünyanın onlarla müasir ordusu bu gün Azərbaycanın təcrübəsini öyrənməyə başlayıb. Bu təcrübə bu gün dünyanın aparıcı hərbi akademiyalarında araşdırılır. Şübhəsiz ki, bu təcrübə hərb sənətinin şah əsəridir və müasir hərbi fikrə ciddi təsir göstərir. Bununla qürur duyur və fəxr edirik.

***Məhərrəm SƏFƏRLİ,***
***Həsən bəy Zərdabi mükafatı laureatı, Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü***

# Heydər Əliyev və Qarabağ Zəfərinin möhtəşəm təməlləri



**Müstəqil Azərbaycanın milli ordusunun yaradılması və möhkəmləndirilməsi, onun ən müasir silah və texnika ilə təchiz edilməsi və bu gün dünyanın ən güclü 50 ordusu sıralarında yer alması müstəqil dövlət quruculuğunun ən böyük uğurlarından biridir.**

Milli Ordumuzun yaradılması prosesi əslində, müstəqilliyimizin tarixidir. Bu sahədə ilk təcrübə hələ 1918-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğu ilə bağlı gördüyü tədbirlər nəticəsində əldə edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk dəfə olaraq 1918-ci il iyunun 26-da Milli Ordunun yaradılması, iyulun 11-də isə hərbi səfərbərlik haqqında fərman verilmiş, noyabrın 1-də isə Hərbi Nazirlik yaradılmışdır. Milli Ordunun və hərbi donanmanın formalaşması prosesi 1920-ci ilin əvvəlinədək 40 min nəfərlik nizami ordu yaradılsa da, 28 aprel bolşevik işğalı bu milli gücü süquta uğratmışdır.

Keçmiş SSRİ-nin süqutu gedişində – 1991-ci ilin 18 oktyabrında müstəqilliyini elan etmiş, öz ordusu və cəbbəxanası olmayan Azərbaycan xalqı daxili və xarici düşmənlərin ikiqat mühasirəsində öz taleyi ilə təkbətək qaldı. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il oktyabrın 9-da "Azərbaycan Silahlı Qüvvələri haqqında" Qanun qəbul edilməsinə baxmayaraq, o zaman respublika rəhbərləri Milli Ordu yaradılmasına nail ola bilmədilər.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ərəfəsində respublikada həyatın bütün sahələrində, o cümlədən ictimai və iqtisadi, siyasi və hərbi sferada idarəolunmaz vəziyyət yaranmışdı. Azərbaycan içəridən parçalanıb yox olmaq təhlükəsi ilə üzləşmişdi. Vətəndaş qarşıdurmasının alovları Gəncədən Bakı istiqamətində yayılmağa başlamışdı.

Ermənistanın işğalçı qüvvələri ölkəmizdəki bu ağır vəziyyətdən istifadə edərək Azərbaycanın dərinliklərinə doğru irəliləyirdilər. Şuşa və Laçın rayonlarından sonra, ərazisi Dağlıq Qarabağın ərazisindən artıq olan Kəlbəcər rayonu işğalçı erməni faşistlərin əlində idi. Bütün bunların nəticəsində erməni təcavüzkarları havadalarının köməyi ilə Azərbaycan torpaqlarının 20 faizini zəbt etmiş, 1 milyondan çox vətəndaşlarımızı öz yurdlarından didərgin salmış, on minlərlə insanı məhv etmişdi.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəlməsi və Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə Azərbaycan xalqının qurtuluş mübarizəsində həlledici dönüş başladı. Ordu quruculuğu sahəsində çox mühüm tədbirlər müəyyən edildi, cəbhədə vəziyyətin müsbət istiqamətdə inkişafına şərait yarandı. Dövlətçiliyi, müstəqilliyimizi qorumaq və möhkəmləndirmək üçün Ulu öndər Azərbaycan Ordusunun yaradılması məsələsini önə çəkdi.

1993-cü il noyabrın 1-də onun fərmanı ilə Azərbaycan Respublikası Müdafiə Şurası yaradıldı. Həmin gün axşam Heydər Əliyevin sədrliyi ilə Müdafiə Şurasının iclası keçirildi. İclasda Ermənistanın işğalının, təcavüzkarlığının qarşısını almaq üçün görüləcək zəruri tədbirlər və respublikada yaranmış ictimai-siyasi vəziyyət müzakirə edildi. Müdafiə Şurasının qərarı ilə Müdafiə Nazirliyinin əsas strukturlarında bəzi kadr dəyişiklikləri edildi.

Ali Baş Komandan Heydər Əliyev Silahlı Qüvvələrin quruculuğunu necə, hansı yolla sürətləndirmək yollarını hər gün yorulmadan araşdırırdı. O, respublikanın digər problemlərinin həllində olduğu kimi bu məsələnin həllində də ümumxalq yardımına arxalanırdı. Elə bu məqsədlə də o, 1993-cü il noyabrın 2-də televiziya və radio vasitəsilə Azərbaycan xalqına öz tarixi müraciətini etdi. Ulu öndər orduda mərkəzləşdirilmiş idarəetmə, vahid komandanlıq prinsiplərinə əsaslanaraq deyirdi: "Hamı bir mərkəzdə - Müdafiə Nazirliyində, Ordumuzda cəmləşməlidir. Kim istəyirsə, gəlib qulluq etsin".

Ulu öndərin bu müraciətindən sonrakı dövrü haqlı olaraq milli ordu quruculuğunda yeni mərhələnin başlanğıcı adlandırırlar. Bu müraciət ordu quruculuğunda yeni mərhələnin yox, ümumiyyətlə Azərbaycan Silahlı Qüvvələri yaradılmasının başlanğıc dövrü hesab etmək daha düz olardı.

1994-cü il yanvarın 5-də Ali Baş Komandan Heydər Əliyevin rəhbərliyi altında milli ordumuz əks-hücuma keçdilər. Uğurlu hərbi əməliyyatlar nəticəsində milli ordumuz Füzuli rayonunun strateji əhəmiyyətli Horadiz qəsəbəsini və 22 kəndi düşməndən azad etdi və hücumu genişləndirərək Cəbrayıl və Kəlbəcər rayonlarınım 10-dan çox kəndini təcavüzkarlardan təmizlədi. 1994-cü il mayın 8-də Bişkek protokolu imzalandı və bu sənədə əsasən mayın 12-də iki dövlət arasında atəşkəs elan olundu.

Ulu öndərin Milli Ordumuza göstərdiyi diqqət və qayğının nəticəsində ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əvvəlkilərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi birləşmə və hissələrin maddi texniki, tibbi və digər vasitələrlərlə təmin edilməsi təşkil edildi.

Varislik prinsipi əsas tutularaq ümummilli lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli sərəncamı ilə 26 iyun Silahlı Qüvvələr Günü elan edildi. 1994–2003-ci illərdə Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan Ordusunun beynəlxalq əlaqələri də genişlənmişdir. Bu illərdə NATO, MDB, GUAM çərçivəsində, bir sıra dövlətlərlə ikitərəfli hərbi əməkdaşlığın əsasları qoyuldu.

2003-cü ildən bu işlər ölkə Prezidenti, Respublika Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildi. 2020-ci ilədək müvəffəqiyyətli Ordu quruculuğu sayəsində Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordu sıralarına daxil oldu.

Ulu öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbiçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, ordumuzun ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanıldı.

Məhz Prezident İlham Əliyevin bu ali diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Təsadüfi deyil ki, nüfuzlu "Global Fire Power" mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer alır. (2021)

Rəşadətli Ordumuz 2016-cı ilin aprel ayında sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsini azad etdi. Daha bir hərbi uğur 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazanıldı. 2020-ci ilin iyulunda düşmənin Tovuz rayonu istiqamətində törətdiyi təxribatların qarşısını rəşadətlə alan cəsur Azərbaycan Ordusu çox keçmədən xalqımıza öz tarixinin ən şanlı qələbəsinin sevincini yaşatdı.

2020-cı il sentyabrın 27-də başlayan Vətən müharibəsində Azərbaycan Ordusunun Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə qazandığı Şanlı Qələbə təkcə Azərbaycan tarixində deyil, dünya hərb elminin tarixində də mühüm izlər qoydu. Şanlı Qələbənin şərəfinə dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda möhtəşəm Zəfər Paradı keçirildi.

2023-cü il sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələri Qarabağı erməni silahlı birləşmələrindən təmizləmək, qanunsuz hərbi xuntanı ləğv etmək, Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan ərazidə yerləşən Xocalı, Xocavənd, Xankəndi, Ağdərə və digər məntəqələr düşməndən azad etmək üçün lokal anti-terror xarakterli tədbirləri nəticəsində Ermənistan ordusunun qalıqları darmadağın edildi, hərbi xunta susduruldu.

Bununla, Azərbaycan Respublikası Qarabağ bölgəsində Konstitusiya quruluşunu və suverenliyini tam şəkildə bərpa etdi. Bütün bunlar ulu öndər Heydər Əliyevin ordu quruculuğu strategiyasının təntənəsi oldu.

***İbrahim ZEYNALOV,***
***Bakı Dövlət Universiteti tarix fakültəsinin dekanı***

## Daşkənddə Ordu Günü təntənəsi

**Daşkənddə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 107-ci ildönümü münasibəti ilə təntənəli mərasim keçirilib. Məclisdə ölkəmizin Özbəkistandakı səfiri Hüseyn Quliyev, Özbəkistan müdafiə nazirinin müavini Əlişir Narbayev, bu ölkədə fəaliyyət göstərən hərbi attaşelər, ölkənin elm və mədəniyyət xadimləri, diasporumuzun üzvləri iştirak ediblər.**



Qonaqları salamlayan Azərbaycanın Özbəkistandakı Hərbi Attaşelik Aparatının rəhbəri, polkovnik Samir Əfəndiyev Azərbaycan və özbək xalqları arasındakı dostluq əlaqələrindən danışıb.

Mərasimdə ölkələrimiz arasında əməkdaşlığın inkişafında dövlət başçılarımız İlham Əliyev və Şavkat Mirziyoyevin əvəzsiz xidmətləri xüsusi qeyd edilib. Təməli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan müasir Azərbaycan Ordusunda aparılan uğurlu islahatlar barədə iştirakçılara ətraflı məlumat verilib. 5 il bundan öncə Vətən müharibəsində qazandığımız Qələbə və Ordumuzun yüksək peşəkarlıqla apardığı hərbi əməliyyatlar qürur hissi ilə vurğulanıb.

Şənlik Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin "Azərbaycan" rəqs ansamblının çıxışları ilə davam edib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***
**Daşkənd**

# Ermənistanda dövlət çevrilişi təhlükəsi: reallıq, yoxsa mif?

## *Bir məsələ dəqiqdir ki...*

**Aşağı baxırsan saqqal, yuxarı baxırsan bığ. Azərbaycanda belə bir atalar sözü var və hazırda Ermənistanın baş naziri Nikol Paşinyanın düşdüyü durum onu xatırladır. Bu deyimi niyə yada saldıq, aydınlıq gətirəcəyik. Hələlik isə bildirək ki, Paşinyan iqtidarı ölkədə dövlət çevrilişi təhlükəsi ilə bağlı sənəd yayıb. Sən demə, müxalif qüvvələr hakimiyyəti devirmək istəyirlərmiş, iqtidar onların bədnam əməllərinin qarşısını alıb. Ortada, bir növ, sübut qismində təqdim edilən nələrsə var. Amma onlar bir o qədər inandırıcı xarakter daşımır. Çünki əsas mahiyyət ortadadır. Mahiyyət barədə də söz açacağıq.**





*

Əlbəttə, "Ermənistan" və "çevriliş" məfhumları bir-birini tamamlayır. Nikol özü də hakimiyyətə, faktiki olaraq, dövlət çevrilişi nəticəsində gəlib. Hər halda, Paşinyanın 2018-ci ildə o zaman dövlət başçısı postunu tutmuş keçmiş prezident Serj Sarkisyanla ultimativ tonlu dialoqu hər kəsin yaxşı xatirindədir. Həmin səhnədə Serjik səfil-sərgərdan günündə olan, dərvişi xatırladan Nikolla danışığın mənasızlığını bildirib, görüş yerini tərk etmişdi. Məlum olduğu kimi, heç beş dəqiqə davam etməyən görüş sonrası tərketmə Sarkisyanın vəzifə kürsüsü ilə vidalaşmasına çevrildi. Yəni, çevriliş gerçəkləşdi.

Müasir Ermənistan üçün dövlət çevrilişinin adi hal olduğunu bildiririksə, 1997-ci ili yada salmalıyıq. Həmin il Qarabağ danışıqlarındakı uğursuzluq səbəbilə istefa vermək məcburiyyətində qalmış Levon Ter-Petrosyanın yerinə 1998-ci ildə Robert Koçaryanın hakimiyyətə gəlməsi, habelə kreslosunda möhkəmlənməsi də siyasi qəsd nəticəsində baş verdi. Bu, "Qarabağ klanı" deyilən separatçı qruplaşmanın Ermənistanı zəbt etməsi idi və 1999-cu ilin parlament terroru zamanı bu zəbt özünün yekun fazasına qədəm qoydu. Onda Koçaryanın bütün əleyhidarları erməni Milli Assambleyasının binasında qətlə yetirildilər.

Əslində, indiyədək də Paşinyanı devirmək planları və buna çağırışlar olub. Yada salaq ki, Qarabağdakı separatçı rejimin zamanında oyuncaq "dövlət naziri" postunu tutmuş Ruben Vardanyanın başlıca missiyası məhz bu idi. Ruben Rusiyadan Qarabağa Ermənistanın özündə çevrilişi reallaşdırmaq üçün göndərilmişdi. Onu bölgəyə "ezam edənlər" ötən əsrin 90-cı illərinin ssenarisini təkrarlamaq istəmiş, lakin bacarmamışdılar. İndi isə ortada Rusiyanın daha bir fiquru – iş adamı Samvel Karapetyan var. Onun Nikolun anti-kilsə ritorikasını pisləməsi, mahiyyətcə, dövlət çevrilişinə çağırış xarakteri daşıyan olaydır. Yəni, Paşinyan və tərəfdarlarının, belə demək mümkünsə, əsasları var.

*

İndi isə qayıdaq ilk cümləmizdəki atalar sözünə. Yerli "Hraparak" nəşrinin bildirdiyinə görə, Paşinyan iqtidarının kütləvi həbsləri Ermənistandakı xarici ölkə səfirliklərini ciddi narahat edib. Onlar gizli təmaslar vasitəsilə durumun anti-demokratik mahiyyət daşıdığını vurğulayıb və prosesə son qoyulmasının vacibliyini bildiriblər. Bu mənada Nikolun vəziyyəti, həqiqətən, çıxılmazdır. Çünki həbslərə getməsə, etiraz dalğası böyüyəcək və onun hakimiyyəti üçün ciddi risklər yaranacaq.

Əlqərəz, "Hraparak"ın yazdığına görə, Paşinyan həbslərə bəraət qazandırmaq, durumu əsaslandırmaq üçün ortaya çevriliş söhbətini atıb. Amma hesab etmirik ki, məsələ tam da bildirildiyi kimidir. Çox güman, nəşrə belə bir məlumat qəsdən sızdırılıb. Yəni, mahiyyətcə, Ermənistandakı xarici ölkə səfirliklərinin narahatlıq keçirdiyi yalnız görüntü xarakteri daşıyır. Qərb, sadəcə, öz reputasiyasını korlamaq istəmir. Təxminən belə: guya ki, anti-demokratik kimi görünən təzahürlərə reaksiya verilir.

Bəli, Qərbin reaksiyası yalnız sığortadır. Nikol da öz üzərinə düşəni edir. Onun durumun demokratiyaya zidd xarakter daşımadığının sübutu kimi çevriliş amilinə söykənməsi Qərbi məmnun edir. Axı, dövlətə qəsd Qərb təfəkkürü baxımından da yolverilməzdir. Əlbəttə ki, ona sərfəli olanda. Sərfəli olmayanda isə münasibət Gürcüstanda yaşandığı kimi bildirilir. Yəni, nümayişçilər inqilabçı kimi qiymətləndirilir.

Yeri gəlmişkən, ötən il Gürcüstanla eyni vaxtda Ermənistanda arxiyepiskop Baqrat Qalstanyanın başçılığı ilə hərəkat olmuş və Qərb dünyası bu hərəkatı hakimiyyətə qəsd kimi qiymətləndirmişdi. Söhbət dünən saxlanılan keşiş Qalstanyandan gedir. O Qalstanyan ki, adı Ermənistan İstintaq Komitəsinin bəyanatında çəkilir. Sənəddə onun "Müqəddəs mübarizə" adlanan hərəkatın təşəbbüskarı və lideri olduğu, ölkədə terror aktları və hakimiyyəti ələ keçirməyə yönəlmiş hərəkətlər planlaşdırdığı vurğulanıb.

Ermənistan İstintaq Komitəsinin bəyanatında bildirilir ki, Qalstanyan bəd əməlini 2024-cü ilin noyabr ayından etibarən həyata keçirməyə qərar verib. "O, məqsədinə çatmaq üçün hərəkatın bir sıra üzvləri ilə əvvəlcədən əlbir olaraq və qrup şəklində hərəkət edərək, terror aktları və hakimiyyətin ələ keçirilməsi üçün zəruri vasitə və alətlər əldə edib, şərait yaradaraq hakimiyyətin zorla qəsbinə hazırlaşıb", – kimi fikirlərin yer aldığı sənəddə diqqətə çatdırılan məqamlardan biri də Qalstanyanın sərəncamındakı təxminən minədək cinayətkar qrup üzvlərinin partlayışlar, binalara atəş açmaq, kütləvi insan tələfatı təhlükəsi yaratmaq, vətəndaşların sağlamlığına ağır və ya orta dərəcədə zərər vurmaq əməllərinin əhali arasında təşviş, qorxu və xaos yaratmağa hesablandığı açıqlanıb.

Bəli, dövlət çevrilişi planı Qərbə imkan verəcək ki, Paşinyanın daxildəki repressiv davranışlarına səssiz yanaşsın. Çünki Qərb dünyası 2026-cı ildə Nikolu yenidən Ermənistanın baş naziri kürsüsündə görmək istəyir. Paşinyan isə həmin kürsüdə oturmaq üçün indidən hərəkətə keçib. Onun yeritdiyi kursun qurbanlarının keçmiş prezidentlər S.Sarkisyan və R.Koçaryan olacağını indidən ehtimal etmək mümkündür. Yəni, Qalstanyanın saxlanılması yalnız başlangıcdır.

Sonda bildirək ki, Paşinyanın özünə qarşı təzyiqlərə dözməsi də önəmlidir. Bir halda ki, o, 2026-cı il üçün siyasi rəqiblərini "aradan götürmək" qərarına gəlib, bunun müəyyən daxili etirazlara yol açacağı şübhəsizdir. Nikol etirazları necə dəf edəcək, Ermənistanda repressiyalar davamlı xarakter alacaq yoxsa yox, bunu zaman göstərəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Qüdrətli dövlət, güclü ordu, üstəgəl mahir liderlik…

## *Bərabərdir Şanlı Zəfər və beynəlxalq nüfuz*

**Zaman sübut etdi ki, hansısa dövlətin silahlı qüvvələrinin qarşıya qoyulan vəzifələri uğurla başa çatdırmasının bir bir neçə sütunu, dayağı vardır: Mükəmməl liderlik, ordunun bir mərkəzdən idarə edilməsi, peşəkar şəxsi heyət, mükəmməl maddi-texniki baza, xalqın orduya inamı və ən mühümü, əsgər və zabitlərdə yüksək vətənpərvərlik hisslərinin formalaşdırılması. Biz buna Azərbaycan Ordusunun son üç onillikdəki tarixi boyu dəfələrlə şahidlik etdik. Ona da şahidlik etdik ki, ordumuzun keçdiyi formalaşma, inkişaf və döyüş prosesləri beynəlxalq aləmdə nəinki yüksək qiymətləndirilir, hətta, hərbi məktəblərdə dərsliklərə salınır.**

**Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik... Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir .**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**
**2 fevral 1996-cı il**



… Yadımdadır, ulu öndərin yubiley günlərinin hansındasa televiziya jurnalisti akademik Budaq Budaqovdan müsahibə götürürdü. Həmkarımız akademikə sual verməzdən əvvəl xatırlatdı ki, ümummilli liderimizin üç böyük əsəri vardır: “Müstəqil Azərbaycan dövləti, Yeni Azərbaycan Partiyası və Prezident İlham Əliyev”. Akademik jurnalistin sualını gözləmədən dedi: “Üç yox, dörd. Çünki Azərbaycan Ordusu da Heydər Əliyevin şah əsərlərindəndir”.

Görkəmli ağsaqqal sonra Heydər Əliyevin ordu quruculuğundakı fəaliyyətinin həm ötən əsrin 70-80-ci illərindəki, həm də 1993 – 2003-cü illərdəki dövrləri haqqında olduqca dəyərli faktlar səsləndirdi. Bu, o vaxt idi ki, hələ Aprel döyüşləri də olmamışdı, Günnüt əməliyyatı da, 44 günlük İkinci Qarabağ müharibəsi də. Amma ordumuzun möhkəmləndirilməsi istiqamətində olduqca uğurlu addımlar atılmışdı.

Yeri gəlmişkən, bu gün bayram etdiyimiz 26 iyun tarixi də məhz ulu öndərin 22 may 1998-ci il tarixli Sərəncamı əsasında əlamətdar günlər siyahımıza salınmışdır. Onu da xatırladaq ki, həmin tarix Azərbaycan Xalq Cümhuriyyəti dövründə formalaşdırılmış Əlahiddə Azərbaycan Korpusunun yarandığı gündür.

Mütəxəssislər yazırlar ki, bugünkü Azərbaycan Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. Hərbçi ekspertlərin fikrincə, ölkəmiz MDB çərçivəsində hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ordulardan birinə malikdir. Büdcə vəsaiti ildən-ilə artırıldığına görə Azərbaycan Silahlı Qüvvələrinin hərbi imkanları nəinki ildən-ilə, hətta, aydan-aya da genişlənir, müasirləşir.

Onu da xüsusilə vurğulamaq lazımdır ki, ölkəmizdə təkcə ordu quruculuğuna deyil, həm də hərbi sənayenin yaradılması və inkişafına da böyük önəm verir. Bu istiqamətdə aparılan işlər də Heydər Əliyevin yaratdığı möhkəm bünövrə üzərində davam etdirilir. Rəsmi mənbələrdə oxuyuruq ki, bu gün uğurları ilə fəxr etdiyimiz Azərbaycanın Ordusunun və müdafiə sənayesinin ilk intibah dövrü, onun etibarlı təməllərinin yaradılması Heydər Əliyevin hələ sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə olmuşdur.

Hamının yaxşı tanıdığı Naxçıvanski adına Hərbi Məktəbin yaradılması xüsusilə qeyd edilməlidir. Ulu öndərin bu sahəyə qayğısı sayəsində 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin açılmasına, azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail olundu.

Yaxud, 1970-1982-ci illərdə respublika ərazisində müdafiə təyinatlı elmi və istehsal müəssisələri də daxil olmaqla çoxlu sayda zavod, fabrik, istehsalat sexləri istifadəyə verilmişdi. O dövrdə Azərbaycanda istehsal edilən sənaye məhsulları dünyanın 65 ölkəsinə ixrac olunurdu. Ulu öndərin ölkəmizə ikinci dəfə rəhbərlik etdiyi dövrdə isə məhz onun sərəncamıyla “Azərbaycan Respublikası müdafiə sənayesi müəssisələrinin 2003-2005-ci illərdə inkişafına dair Dövlət Proqramı” təsdiq edilmişdi. Prezident İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli sərəncamına əsasən isə Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi ləğv edilmiş və onun bazasında Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi yaradılmışdır.

Həmin nazirliyin “İqlim” Elmi İstehsalat, “Telemexanika”, “Peyk”, “Azon”, “Alov”, Elektron Hesablayıcı Maşınlar və “Radioquraşdırma” , “Dalğa”, “Araz”, “Avia-Aqreqat”, “Sənayecihaz” kimi müəssisə və zavodlarında Silahlı Qüvvələrimizin müasir tələblərə cavab verən müdafiə təyinatlı məmulatlarla, eləcə də xalq təsərrüfatını maşınqayırma, cihazqayırma, elektrotexnika, rabitə sahələrində istifadə olunan avadanlıq və ehtiyat hissələri ilə təmin etmək üçün onlarca yeni istehsalat sahələri yaradılıb.

Rəsmi məlumatlarda qeyd edilir ki, ölkəmizdə tapança, pulemyot, minaatan, qumbaraatan, snayper tüfəngi, PUA, zirehli hərbi texnika kimi müdafiə xarakterli vasitələr istehsal olunur. Bildirilir ki, ilk növbədə, Azərbaycan Silahlı Qüvvələrinin atıcı silahlara olan tələbatı nəzərə alınaraq, piyada və tank əleyhinə minaların, qumbaraatanların, minaatanların, müxtəlif çaplı tapança, avtomat, pulemyot, snayper tüfəngləri və patronların istehsalı mənimsənilmiş və seriyalı tədarükünə başlanılmışdır. Məsələn, “Zəfər”, “Zəfər-K”, “İnam” tapançaları, PKT, PKM, pulemyotları, “Mübariz”, “İstiqlal”, “Yalquzaq”, “Yırtıcı” snayper tüfəngləri, “Boran” artilleriya qurğusu, “Qaya” tank əleyhinə əl qumbaraatanları, “Komando” tipli “Aşırım” minaatanları, “Matador” və “Marauder” zirehli hərbi texnikaları keyfiyyət göstəricilərinə görə, dünya müdafiə sənayesi sektorunda ən qabaqcıl silah və texnikalardan hesab olunur.

Həmin siyahıdakı “Qaya”, “Aşırım” və “Komando” sözlərini oxuyanda bu ayın 6-da Şuşada bir nəfər təcrübəli hərbçidən eşitdiyim fikirlər yadıma düşdü: “Azərbaycan Ordusunun dünya hərbçilərini heyrətləndirən addımları komandolarımızın o gördüyünüz qayalara, yüksək dağ aşırımlarına böyük ustalıqla qalib gəlməsi idi”.

Xatırladım ki, 2023-cü il noyabrın 24-də Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) həftəsi çərçivəsində “Bakı-Ekspo” Mərkəzində təşkil olunan “SPECA Ölkələri Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq” adlı sərgidə ilk dəfə olaraq ölkəmizdə yeni yaradılan “AH-12,7” iriçaplı pulemyot da təqdim olunub. Bu sərgidə Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan müxtəlif növ atıcı silahlar, yaxın məsafəli döyüş vasitələri, minaatanlar, müxtəlif çaplı döyüş sursatları, pilotsuz uçuş aparatları və sair daxil olmaqla, 88 adda müdafiə təyinatlı məmulatlar nümayiş etdirilib.

Sevindirici haldır ki, müdafiə sənayesi nazirliyimizin istehsal etdiyi yerli məhsullar döyüş sınağından da uğurla çıxmışdır. Həmin hərbi təyinatlı məhsullar 2020-ci ilin sentyabrında başlanan İkinci Qarabağ müharibəsində və 2023-cü ilin sentyabrında cəmi bir gün davam edən antiterror tədbirlərinin gedişində Azərbaycan əsgərinin güvənc yerlərindən biri olmuşdur. Adı çəkilən nazirlik həmin hərbi əməliyyatlar zamanı Silahlı Qüvvələrimizi müasir silah-sursat, döyüş texnikası və PUA-larla fasiləsiz təchizatını təmin edirdi.

Bu gün qətiyyətlə deyə bilərik ki, ordumuz dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir. Əlli milyonluq dünya azərbaycanlılarının ürəyində yaranan bu hisslərin mənbəyi Ali Baş Komanda İlham Əliyevin uzaqgörən və düşünülmüş siyasəti nəticəsində nail olduğumuz müasir ordu və milli ordumuzun regionda aparıcı hərbi qüvvəyə çevrilməsi, dünya reytinqində öncül yerlərdə olmasıdır.

Doğrudur, biz Azərbaycan Ordusunun gücünü bədxahlarımıza 1994-cü ildə Horadizin düşmən əsarətindən azad edilməsi zamanı da göstərmişdik. Ancaq 2016-cı ildəki Aprel döyüşləri, 2018-ci ildəki Günnüt əməliyyatı, 2020-ci ildəki Vətən müharibəsi və 2023-cü ildəki antiterror əməliyyatı düşmənə və onun havadarlarına verilmiş hərbi dərs kimi tarixə düşmüşdür.

Bu gün Azərbaycan Ordusu iki yüz dövlətin orduları arasında ilk onluqlardan birində yer alırsa, bu, gənc müstəqil dövlətimizin inkişafının göstəricisidir.

Bu sətirləri cənab Prezidentin ötən il fevralın 14-də keçirilmiş andiçmə mərasimindəki çıxışında bədxahlarımıza ünvanlanmış mesajı ilə tamamlayırıq: “Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış “Komando” silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə Ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz… Beləliklə, ordu quruculuğu prosesi davam etdiriləcək. Bizim dövlət büdcəmizdə bu gün də ən böyük xərclər hərbi xərclərdir və hərbi xərclərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır”.

***İttifaq MİRZƏBƏYLİ***

# Ordunun sosial ehtiyacları daim dövlətin diqqətindədir

## *5 min hərbi qulluqçuya mənzil verilməsi bu qayğının önəmli göstəricisidir*

**Müstəqil Azərbaycan Respublikasının qurulması və güclənməsi yolunda xüsusi şücaət göstərən hərbçilərimizin dövlət qayğısı ilə əhatə olunması ölkə rəhbərliyinin sosial siyasətində prioritet istiqamətlərdən birini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlər hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsini, mənzil-məişət şəraitinin yaxşılaşdırılmasını, dövlət büdcəsinin imkanları hesabına əməkhaqlarının və təqaüdlərin artırılmasını və onların layiqli həyat səviyyəsinin təmin olunmasını şərtləndirir.**

Vətən müharibəsindəki tarixi Zəfərdən sonra Azərbaycan Ordusunun hərbi potensialı ilə yanaşı, hərbçilərin sosial müdafiəsi daha da gücləndirilib. Prezident İlham Əliyevin təşəbbüsü və göstərişləri əsasında hərbi qulluqçular üçün yeni mənzillər və yüksək xidmətin tələblərinə cavab verən yaşayış evləri inşa olunaraq onların istifadəsinə verilib. Bu proses yalnız paytaxtla məhdudlaşdırılmayıb, bölgələrdə, xüsusən də azad edilmiş ərazilərdə sözügedən istiqamətdə genişmiqyaslı layihələr həyata keçirilib.

Hərbi qulluqçuların mənzil təminatı dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi diqqətdə saxlanılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi və Müdafiə nazirlikləri, eləcə də digər aidiyyəti qurumlar tərəfindən bu sahədə sistemli layihələr reallaşdırılıb. Hər il yüzlərlə hərbçiyə dövlət vəsaiti hesabına mənzillər verilib. Mənzil növbəsində olanların sayı tədricən azalıb, çünki bu sahədə şəffaf və davamlı mexanizm qurulub.

Yeri gəlmişkən, bununla bağlı bir fakta diqqət yetirək. Hərbçilərin mənzil təminatı üzrə yaradılan Komissiyanın bu il martın 11-də keçirilən iclasında Bakı və Sumqayıt şəhərlərində alınmış tam təmirli 131 mənzil hərbi qulluqçulara verilib. Bununla da dövlət vəsaiti hesabına mənzil alan hərbçilərin sayı 4167 nəfərə çatıb.

Qeyd edək ki, hərbçilərin mənzillə təminatı dövlət başçısının “Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə” 28 dekabr 2011-ci il tarixli fərmanı əsasında yaradılmış Komissiyanın qərarları ilə həyata keçirilir. Müəyyənləşdirilən meyarlara əsasən, Azərbaycan Ordusunda 20 il və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçular növbəliliklə ardıcıl şəkildə mənzillərlə təmin olunur. Komissiya tərəfindən Müdafiə Nazirliyinin hazırladığı siyahılar əsasında mənzil növbəsinə mütəmadi baxılır və vaxtaşırı mənzil almaq hüququ qazanan hərbi qulluqçular mənzil növbəsinə əlavə edilir. Hər il yüzlərlə hərbçi dövlətin bu, mühüm sosial proqramından bəhrələnir.

Ən müasir tələblərə cavab verən yeni hərbi şəhərciklərin salınması, burada ailəli hərbi qulluqçular üçün şəraitin yaradılması həm onların xidməti fəaliyyətinə, həm də ailə həyatına müsbət təsir göstərib. Bu proses, eyni zamanda, ölkədə hərbçi peşəsinin cəlbediciliyini artırıb, gəncləri ordu sıralarında xidmətə ruhlandırıb.

Hərbçilərə dövlətin sosial qayğı siyasəti davamlı xarakter daşıyır və bundan sonra da hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, dövlət vəsaiti hesabına mənzillə təmin edilməsi prosesi həyata keçiriləcək. Onların mənzil-məişət şəraiti ilə yanaşı, sosial təminatı da davamlı olaraq yaxşılaşdırılır, dövlət büdcəsinin imkanları hesabına onların əməkhaqları və təqaüdləri artırılır. 2025-ci ildən start verilmiş yeni sosial islahat paketinə uyğun olaraq, Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət keçən qulluqçularının aylıq vəzifə maaşları yanvar ayının 1-dən artırılıb. Eləcə də bir sıra dövlət orqanlarında xüsusi hərbi rütbəsi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə maaşlarında artımlar edilib, Müdafiə Nazirliyinin mülki işçilərinin də aylıq vəzifə maaşları 20 faiz artırılıb.

Ümumiyyətlə, büdcənin sosial xərclərinin strukturunda hərbi qulluqçuların sosial təminatı başlıca yerlərdən birini tutur, onların əməkhaqları, pensiya və təqaüdlərinin artrırılması istiqamətində ardıcıl addımlar atılır, aylıq vəzifə maaşlarına müəyyən edilən müddəti əlavələr ödənilir.

Ölkədə sosial təminat və maliyyə dəstəyinə də xüsusi önəm verilib. Belə ki, hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər yalnız mənzil təminatı ilə kifayətlənilməyib. Onların əməkhaqları və təqaüdləri dövrün tələblərinə uyğun şəkildə davamlı olaraq artırılıb. Son illərdə dövlət büdcəsində bu məqsədlə ayrılan vəsaitlərin həcmi əhəmiyyətli dərəcədə çoxalıb. Bu, təkcə sosial müdafiənin gücləndirilməsi kimi deyil, həm də dövlətin orduya və hərbçi ailələrinə olan hörmət və etimadının ifadəsi olaraq yüksək dəyərləndirilib.

Hərbi qulluqçulara şamil edilən sosial tədbirlərin daha bir təzahürü onların güzəştli ipoteka proqramında daha öncül qaydada yararlanmasıdır. Belə ki, dövlət onlara bir sıra güzəştlər verməklə yanaşı, İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına güzəştli şərtlərlə ev alan zabit və gizirlərin kreditinin faizini özü qarşılayır ki, bu da sosial qayğının daha bir nümunəsidir.

Xatırladaq ki, ötən il Prezident İlham Əliyevim imzaladığı müvafiq fərmana əsasən, “Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi Qaydası” təsdiqlənib. Yeni qaydalarla xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka kreditləri ilə dövlət dəstəyi göstərilib. Belə ki, fərmanın müddəalarına əsasən, ipoteka krediti ilə ev alan xüsusi təyinatlıların aylıq kredit ödənişinin yarısını dövlət ödəyəcəyi qərara alınıb. Bundan başqa, xüsusi təyinatlılar ipoteka krediti götürərkən ilkin ödənişi də dövlətin edəcəyi, gələcəkdə isə xüsusi təyinatlılara krediti bağlamaq üçün daha bir dəfə maddi dəstək veriləcəyi də nəzərdə tutulub.

Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, “Orduya göstərilən qayğı, əslində, dövlətçiliyin qorunmasına göstərilən qayğıdır”. Bu baxımdan hərbi qulluqçulara ayrılan maliyyə resursları ölkənin təhlükəsizlik strategiyasının mühüm hissəsi kimi qiymətləndirilə bilər.

Hərbi qulluqçuların sosial təminatının digər bir vacib istiqaməti də onların sağlamlıq məsələsidir. Bu sahədə də dövlət tərəfindən ciddi addımlar atılıb, müharibədən qayıdan qazilərin reabilitasiyası, tibbi və psixoloji dəstəklə əhatə olunmaları məqsədilə ixtisaslaşmış tibb müəssisələrinin fəaliyyətinə xüsusi önəm verilib. Onların bir çoxu dövlət vəsaiti hesabına müasir avadanlıqla təchiz edilib, peşəkar həkim komandaları formalaşdırılıb.

Qazilərə və şəhid ailələrinə xüsusi qayğı da diqqət mərkəzində saxlanılıb. Onlara mənzillər, avtomobillər təqdim edilib, övladları təhsil haqqından azad olunub, müxtəlif sosial güzəştlər tətbiq edilib. Bu kateqoriyadan olan şəxslərin sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası üçün də bir sıra proqramlar həyata keçirilib.

Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı tarixi qələbədən sonra azad olunan torpaqlarda xidmət edən hərbi qulluqçular üçün müasir infrastrukturun yaradılmasına da xüsusi əhəmiyyət verilib. Bu ərazilərdə hərbi hissələr qurulmaqla yanaşı, zabit və gizir heyəti üçün yeni evlər tikilib, sosial obyektlər inşa olunub. Bu, ictimaiyyət tərəfindən yalnız strateji və hərbi cəhətdən deyil, sosial rifah baxımından da mühüm təşəbbüs kimi yüksək dəyərləndirilib.

Bu gün Azərbaycan Respublikasında hərbçilərə göstərilən qayğı və diqqət davamlı dövlət siyasətinin əsas sütunlarından birini təşkil edir. Bu siyasətin mərkəzində insan amili, vətənə xidmətin yüksək qiymətləndirilməsi, hərbi xidmətin nüfuzunun artırılması və ordunun peşəkarlıq səviyyəsinin yüksəldilməsi dayanır.

Dövlətin sosial siyasətində hərbçilər üçün yaradılan bu şərait bir daha təsdiqləyir ki, Azərbaycanın güclü ordusu yalnız silahlanma ilə deyil, həm də sosial rifah, insan kapitalına yönələn diqqət və qayğı ilə möhkəmləndirilir. Bu isə uzunmüddətli və davamlı inkişafın, təhlükəsizliyin və suverenliyin əsl təminatıdır.

***V.BAYRAMOV***
***XQ***

**Bizim Ordumuz təlimlərdə yox, paradlarda yox, döyüş meydanında öz gücünü göstərmişdir!**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Hər il 26 iyun tarixində ölkəmizdə Azərbaycanın ən mühüm rəsmi bayramlarından biri olan Azərbaycan Respublikası Silahlı Qüvvələr Günü qeyd olunur. Bu gün yalnız milli ordumuzun yaranma tarixini deyil, eləcə də onun müasir qüdrətini, sarsılmaz ruhunu və ölkəmizin suverenliyini, ərazi bütövlüyünü qorumağa hazır olduğunu tərənnüm edir. Yarandığı gündən son illərin zəfər dolu qələbələrinə qədər Azərbaycan Ordusu şərəfli bir yol keçmişdir.**

Onun sələfi olan Əlahiddə Azərbaycan Korpusu hələ Şərqdə ilk dünyəvi parlament respublikası olan Azərbaycan Demokratik Respublikasının (ADR) hökuməti tərəfindən 1918-ci ilin 26 iyun tarixli dekreti ilə yaradılmışdır. O dövrdə görkəmli hərbi xadimlər - Əliağa Şıxlinski, Cəmşid Naxçıvanski, Səməd bəy Mehmandarov milli ordunun quruculuğunda müstəsna rol oynamış və silahlı qüvvələrin formalaşmasına böyük töhfələr vermişlər. Beləliklə, milli ordunun əsası qoyulmuş və vətəndaş müharibəsinin və xarici müdaxilənin ağır şəraitində döyüş qabiliyyətli birləşmələr yaradılmasına səylər göstərilmişdir. Lakin əfsuslar olsun ki, ADR-in süqutundan sonra bu təsisat bolşeviklər tərəfindən ləğv edilmişdir.

SSRİ dövründə Azərbaycanda hərbi kadrların sistemli şəkildə hazırlanması məhz ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Məhz onun təşəbbüsü ilə 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması bu prosesin təməlini qoymuşdur. O dövrdən başlayaraq Heydər Əliyevin ardıcıl səyləri nəticəsində azərbaycanlı gənclər Bakı

# Suverenliyin və təhlükəsizliyin keşikçisi

Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə oxumağa göndərilmiş, eləcə də Sovet İttifaqının digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmuşlar .

1991-ci ildə Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra, xüsusən Qarabağ münaqişəsinin kəskinləşməsi kontekstində, güclü milli orduya ehtiyac vardı. Lakin vətənpərvərlərin fədakarlığı və ilk könüllülərin cəsarəti sayəsində təcavüzkarın zərbəsini öz üzərinə götürən ilk döyüş qabiliyyətli birləşmələr yaratmaq mümkün olsa da, o dövrün mürəkkəb ictimai-siyasi prosesləri milli ordunun yaradılmasına imkan vermədi. Ölkədə hökm sürən ağır siyasi böhran və iqtisadi tənəzzül, mütəmadi olaraq hakimiyyət uğrunda gedən mübarizə, yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən silahlı birləşmələr, hökumətdə təmsil olunan şəxslərin qeyri-etik və səriştəsiz fəaliyyəti son nəticədə ölkəni vətəndaş müharibəsinin astanasına gətirib çıxardı.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə tədricən sabitlik və əmin-amanlıq təmin edildi. 1994-cü ilin mayında atəşkəs əldə edildikdən sonra isə ölkənin müdafiə sisteminin əsaslı şəkildə islahatına başlanıldı.

Heydər Əliyev Azərbaycanda peşəkar ordunun yaradılmasını bir prioritet məqsəd kimi ortaya qoydu. O, şəxsi heyətin təliminə, intizamına, texniki təchizatına və vətənpərvərlik ruhunun möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi. Onun təşəbbüsü ilə beynəlxalq hərbi əməkdaşlıq müqavilələri imzalandı, NATO proqramlarına inteqrasiya başlandı, hərbi təhsil sistemi quruldu, milli hərb məktəbi ənənələri bərpa olundu. Bu uzaqgörən siyasət gələcək qələbələr üçün möhkəm zəmin yaratmağa imkan verdi.

2003-cü ildən etibarən Prezident İlham Əliyev Ümummilli liderin siyasi kursunu davam etdirərək Silahlı Qüvvələrin inkişafında yeni mərhələnin əsasını qoydu. Ordu quruculuğu və müdafiə sahəsinə mütəmadi olaraq büdcədən ayrılan vəsait hesabına Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki və silah-sursat təchizatı gücləndirildi və ölkəmizin müdafiə sənayesi daha da inkişaf etdirildi. Eyni zamanda ordu quruculuğunun ən vacib və mühüm şərtlərindən biri olan Azərbaycan Silahlı Qüvvələrinin hüquqi bazasının daha da gücləndirilməsinə xidmət edən normativ hüquqi aktlar və sənədlər qəbul edildi. Onların arasında "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının qanununun (10 iyun 2005-ci il) , "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası qanunu (23 dekabr 2011-ci il) , Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnaməni (13 fevral, 2012-ci il) və digər sənədləri qeyd etmək olar. Beləliklə, tədricən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri genişmiqyaslı modernləşmə və transformasiya yolu keçərək regionun ən güclü ordularından birinə çevrildi.

Məhz ordu quruculuğu üzrə aparılmış məqsədyönlü işin nəticəsi olaraq Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsində şanlı Zəfər əldə edildi. Bu qələbə nəticəsində Azərbaycan tarixi ədaləti və ərazi bütövlüyünü bərpa etdi, otuz ilə yaxın davam edən işğala son qoydu. Eyni zamanda bu qələbə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələrinin yüksək döyüş hazırlığını, müasir texnologiyaların effektiv tətbiqini və tam döyüş qabiliyyətini nümayiş etdirdi. Nəhayət, bu qələbə ilə xalqın sarsılmaz birliyinin təntənəsi oldu. Bütün xalq, böyükdən kiçiyə, öz Silahlı Qüvvələri ətrafında birləşdi və Ordu milli ruhun təcəssümü, cəsarət və fədakarlıq rəmzinə çevrildi.

2023-cü ilin sentyabrında keçirilmiş anti–terror əməliyyatı nəticəsində isə Qarabağ ərazisində qanunsuz silahlı birləşmələrin qalıqları tamamilə zərərsizləşdirildi və Azərbaycanın suverenliyi onun bütün ərazisində bərqərar oldu. Bu qələbələr həm Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu gücləndirdi, həm də misilsiz milli qürur mənbəyinə çevrilərək ölkəmizin öz maraqlarını qorumaq əzmini və qabiliyyətini bütün dünyaya nümayiş etdirdi.

Hazırda dünya dərin və sürətli transformasiyalar dövrünü yaşayır. Milli təhlükəsizliyin və suverenliyin əsas amili kimi güclü və döyüş qabiliyyətli ordunun mövcudluğu ön plana çıxır. Orduya dəstəyin verilməsi bu gün strateji zərurətdir. Bu, ölkənin gələcəyinə, onun dinc inkişafına və çiçəklənməsinə qoyulan sərmayədir. Dövlət və cəmiyyət Silahlı Qüvvələrin daha da möhkəmləndirilməsi, onların ən yeni silah növləri ilə təchiz edilməsi, döyüş hazırlığının və şəxsi heyətin peşəkarlığının artırılması üzrə səyləri birləşdirməyə davam etməlidir. Yalnız güclü ordu milli suverenliyin, sabitliyin və təhlükəsizliyin əsas təminatçısıdır.

Azərbaycan Silahlı Qüvvələri Günü təkcə bir bayram deyil, ölkəmizin keçdiyi böyük və şərəfli yolun və onun suverenliyini, ərazi bütövlüyünü öz həyatı və cəsarəti bahasına təmin edənlərin xatirəsidir. Bu gün biz onları ehtiramla yad edir və güclü, müstəqil və sülhsevər Azərbaycanın yolunda öz birliyimizi təsdiqləyirik.

***Gülşən PAŞAYEVA,***
***Milli Məclisin deputatı, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzin İdarə Heyətinin üzvü***





# Güclü Azərbaycanın Ordusu: fəxarətimiz!

## Xalqın gücü

Xalqın gücü haqqında düşüncələr fərqli ola bilər. Lakin ədalət anlayışı güclü olmayan xalqın əsl gücə malik olduğuna inanmaq çətindir. Ədalətli xalq güclüdür. Qalib odur! Xalqın ədalətli olması isə ənənədən gəlmədir. Maraqlıdır ki, dünya özü təməldən xalqın ruhani, mənəvi, əxlaqi, dünyaduyumu, həyat təsəvvürləri, uğurlu olmaq şərtləri, birgəyaşam üsulu və sosial fəaliyyətin fəziləti ilə bağlı kökdən "kod"lar yaradır.

Əslində, xalq bu kodları özü yaradır. Əlamətləri kollektiv davranışda, toparlanmaq önqaydalarında, birgəyaşam fəlsəfəsində və strategiyasında özünü göstərir. Bunalara görə xalq dayanıqlı və dayanıqsız ola bilər, gücünü özünümüdafiədə və sosial-mədəni həyatı qurmada göstərə bilər və s.

Tarix göstərir ki, bu yolda xalqı həmişə çətin sınaqlar gözləyir. Ulu öndər Heydər Əliyev öyrədirdi ki, "Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir"! Tarixin sınaqları da azadlıq və istiqlaiyyəti milli sərvət kimi yaşatmaq uğrunda mübarizənin ayrı-ayrı səhnələridir! Xalq bu sınaqlarda özünü azadlıq və istiqlaliyyət aşiqi kimi təsdiqləyir və bununla güclənir!

Xalqın gücünün əsas göstəricisi güclü dövlət qura bilmək səriştəsi ilə bağlıdır. Eyni zamanda, "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" (Heydər Əliyev). Deməli, xalqın gücü ilə dövlətin gücü arasında məhiyyət bağlantısı mövcuddur. Burada hər bir müstəqil dövləti olan qövm üçün "güc" anlayışının tarixi, sosial, siyasi, geosiyasi və mədəni çalarları bir anlamda birləşirlər.

Yəni "güclü xalq-güclü dövlət" vəhdətinin əsas faktorları olmalıdır. Burada əsas prinsip güclü xalqın güclü dövləti ola bilməsi tezisi ilə bağlıdır. Toplum hansı anlamlarda güclüdürsə, onun yaratdığı dövlət də o anlamda güclü ola bilər. Bunlar "güc" anlayışı baxımından bir-birindən ayrılmazdırlar. Xalqın gücü ilə dövlətin gücünü vəhdətdə ifadə edən və fəaliyyətində sübut edən faktorlar içərisində Ordu ayrıca yer tutur! Səbəblərinə baxaq.

## Dövlətin gücü

Tarix göstərir ki, dövlət çox güclü ola bilər. Hərbi vuruculuq səviyyəsinə görə onun çox güclü ordusu da ola bilər. Lakin bu iki güc əlaməti bütövlükdə cəmiyyət-dövlət tandemini fəzilət baxımından güclü etməyə də bilər. Buna görə də tarixin sınaqlarında bir sıra hallarda çox güclü dövlətin çox güclü ordusu daha zəif dövlətə və ordusuna məğlub olur. Təbii ki, bu, silah sayəsində olmur. Əsas təsiredici qüvvə xalqın gücüdür! Əgər xalq mənəviyyat, mədəniyyət, psixologiya baxımından dayanıqlı və güclüdürsə, onu ən güclü ordular belə yenə bilməz. Deməli, yekunda xalqın gücü dövlətin və ordunun gücünün bazasını təşkil edir. XX və XXI əsrdən bir neçə nümunə.

ABŞ dünyanın ən güclü dövləti və ən güclü ordusu kimi Koreyada, Vyetnamda, Əfqanıstanda məğlub oldu. Çox böyük hərb maşını İraqın qumsallıqlarında "batdı"! Bu proseslər ABŞ cəmiyyətində və siyasi şüurunda böyük təlatümlər yaratdı – "Amerika möhtəşəmliyini itirir"!?

II Dünya Müharibəsində SSRİ hərbi cəhətdən dəfələrlə zəif olduğu Almaniyanı xalqın gücünə məğlub etdi. Lakin yenə əfqan xalqının gücü daha imkanlı sovet ordusunu məğlubiyyətə uğratdı! İndi də çox güclü və hərbi imkanı geniş olan Rusiya ordusu Ukrayna xalqının müqavimətini qıra bilmir!

Çox güclü İsrail ordusu fələstinlilərin zəif hərbi qruplaşmalarını tam məğlub edə bilmir. Bu proses indi də süründürməçi xarakterdə davam edir.

Bu faktlar real güclü dövlətlə əsl güclü ordu arasında bağlantıların mürəkkəb və asan dərk edilməyən olduğunu göstərir. Buna görə də "güclü ordu necə olur?" sualı cavab tələb edir.

## Güclü xalqın güclü dövləti

Burada Heydər Əliyevin iki kəlamını xatırlatmaq istərdik: "Vətənə məhəbbət, xalqa məhəbbət mənim beynimdədir, qanımdadır, bütün varlığımdadır. Heç nə, heç kim, heç bir qüvvə bu məhəbbəti məndən ala bilməz" və "Dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır". Bizcə, Ulu öndər bu fikirləri həm də hər bir azərbaycanlıya səsləniş kimi ifadə etmişdir. Onun dərin fəlsəfi anlamı belədir: xalq onun övladlarının kimliyinə, mədəniyyətinə, yaşadığı Vətənə məhəbbəti olanda güclü olur! Bunun başlanğıcı azərbaycançı olmaqdır. Həmin əsasda da dövlətçilik fərdlərin qəlbində yaşayırsa, güclü xalq güclü dövlətini yarada bilər!

## Güclü ordu meyarı

Ordu, obrazlı desək, "xalqın bağrından çıxmalıdır"! Ordu xalqın qürur və fəxarət yeri olmalıdır. Çünki mövcud olmaq üçün müdafiə qüdrətin olmalıdır. Müdafiə qüdrəti başqalarını zəbt etməkdə deyil, özünümüdafiə ənənəsi və mədəniyyətində, onun ümumi ruhundadır. Özünümüdafiə həmişə təbii haqdır! Ancaq bu anlayışı manipulyasiya edib başqalarına təcavüz edəndə vəziyyət tamam dəyişir – təbii haqq zəruri günaha çevrilir. Bu incə məqamı gözləyə bilməyən ordu güclü deyildir!

Nümunələr. Dünyada hərbi-texniki və texnoloji cəhətdən doğrudan böyük gücü olan orduları bir sıra hallarda təntənəli olaraq filan dövlətin "özünümüdafiə ordusu" adandırırlar. Çox təntənəli adları xüsusi xidmət orqanlarına qoyurlar. Onların adlarından möhtəşəmlik və qətiyyət "şüalanır". Ancaq həmin adlara əməllərindən baxanda bütün güc və möhtəşəmlik "fəzilətin təkərləri" altında əzilir, yox olur.

Ordu özünümüdafiə adı altında milyonlarla insanı, qadını, qocanı, uşaqları məhv edir, başlarına bombalar yağdırır. Onun adını nə qoyursan qoy, bu, ədalət deyil, haq deyil, dinc insanların haqqını əlindən almaqdır. Özü də bəyan edirsən ki, "mənim 5 uşağımın qətli yolverilməzdir" və bunun fonunda başqasının minlərlə uşağına bomba atırsan! Doğrudanmı bu davranış güclü dövlətə və güclü orduya aiddir? Çox ciddi şübhələrimiz vardır!

## Azərbaycanın zəfər ordusu

Azərbacyan Prezidenti İlham Əliyev: "Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır". Bu, mənə çalarları zəngin olan fundamental tezisdir! Dünyanın ən güclü orduları sırasında olmaq həm şərəfdir, həm də tarixi nailiyyətdir. Çünki cəmi 30 il bundan öncə dünyanın güclü dövlətləri hələ tam formalaşmamış müstəqil Azərbaycan dövlətçiliyinə ciddi zərbələr vururdular. Onlar həm də ordunun yaranmasına əngəllər törədirdilər. Hansı təxribatları bu ordu yaşamadı? Biri Çinə "bayraq sancdı", başqası "rus ordusu varsa, bizə başqa ordu lazım deyil" deyərək, tarixi səhvə yol verdi, müxtəlif qruplar isə "burda mən, Bağdadda kor xəlifə" düşüncəsi ilə "ordu özüməm" ismarıclarını verdilər və s.

Yəni faktiki olaraq tamamilə dağıdılmış "ordu düşüncəsi" "hərbi müqavimət fəlsəfəsi"nin yoxluğu şəraitində nizami ordu yaratmaq lazım gəlirdi. Bu vəziyyətdən xilas olmaq işin yarısı idi, sonrası, yəni ordu quruculuğu mərhələsi daha önəmli idi. Belə bir tarixi məsuliyyəti olan bir vəzifənin öhdəsindən Azərbaycanda yalnız Heydər Əliyev dühası gələ bilərdi. Bunları düşündükcə Prezident İlham Əliyevin, müzəffər Ali Baş Komandanın nə dediyini anlamaq olur! Azərbaycan Ordusunun gücü onun əsgərlərinin, zabit heyətinin və Ali Baş Komandanın Ulu öndərin öyrətdiyi anlamda azərbaycançılıqda, Vətən sevgisindədir!

Bu gücün bir aspekti yüksək hərbi hazırlıq, iradə, qətiyyət və hərbi-texniki təchizata bağlıdır. Digər tərəfi isə həqiqi mənada özünümüdafiə ordusu olmaqla əlaqəlidir. Müstəqil Azərbaycanın ordusu başqasının torpaqlarına heç zaman göz tikməmişdir. Onun başlıca funksiyası Azərbaycan Respublikası dövlətini və xalqını təcavüzlərdən qorumaqdır. Vətən Müharibəsi bunun zirvəsi oldu! Azərbaycan ordusu güclü xalqın və dövlətin güclü ordusu olduğunu sübut etdi!

Bu prosesin əsası 1993-cü ildən qoyulmuşdur. Ayrı-ayrı silahlı dəstələrdən ibarət olan qruplardan imtina edərək intizamlı ordu quruculuğuna ulu öndər Heydər Əliyev başladı. Yeni qurulan bu ordunun əsas fəaliyyət istiqaməti də dəqiq müəyyən edildi - ərazi bütövlüyünü bərpa etmək! Qarşıya qoyulan bu məqsədin həyata keçməsi milli ideya səviyyəsində müəyyənləşdi.

Bu o deməkdir ki, müstəqil Azərbaycanın ordusu sırf özünümüdafiə mahiyyətlidir. Onun vəzifəsi ölkənin pozulmuş ərazi bütövlüyünü bərpa etməkdir. Güclü Azərbaycan konsepti və reallaşma kursunun çərçivəsində güclü Azərbaycan ordusu bu amalla quruldu. Ordunun ruhunda, hazırlığında, hərbi-texniki təchizat fəlsəfəsində əsas müəyyənedici və istiqamətverici faktor ərazi bütövlüyünün təmini oldu.

Bu, Avrasiyada vurğulanan məqsədlə gücləndirilən yeganə ordudur. Onun sayəsində güclü xalqın güclü dövləti fəlsəfəsi avtomatik olaraq güclü ordu konseptinin ruhuna "hopdu". İndi Azərbaycan ordusu həqiqi anlamda güclü xalqın güclü dövlətinin qüdrətli ordusudur. Buna görə də Azərbaycan dövlətinin başçısı, Ali Baş Komandan İlham Əliyev tam haqlıdır – Azərbaycan ordusu dünyanın ən güclü orduları sırasındadır! Ordumuz fəxarətimiz və şərəfimizdir!

## 26 iyun – Azərbaycanın kişilər günü!

Azərbaycanlıların Vətən tarixinin hər anına böyük saygısı vardır! Biz tariximizdən heç nəyi ikincidərəcəli saymırıq, bir kənara qoymuruq! Bütün əsas dönəmləri böyük hörmətlə öyrənirik, yaddaşımızın bir guşəsində canlandırırıq. II Dünya Müharibəsində Vətən üçün canından keçən qəhrəman Azərbaycan oğulları da daim hörmət və izzət ünvanlarımızdan biri olacaqdır.

Lakin zaman dəyişir, dəyərlər yenilənir, baxışlar fərqli olur. Hər hadisənin tarixi zaman prizmasında dönəmə uyğun qiymətləndirilməsi lazım gəlir. Müasir və müstəqil Azərbaycan Respublikası üçün bu anlamda 26 iyun tarixdir. Ordu günü bizim üçün müqəddəsdir. Həm də bu müzəffər orduda xidmət edənlərə hörmət və şərəflə yanaşmanı zəruri edən tarixdir. Çünki onlar Azərbaycanda böyük mənası olan kişilik etdilər, kişi sözü verib ona mərd kimi əməl etdilər. Şəhid verdi xalq, ordu, dövlət! Şəhidlərin qeyrətindən, anaların dualarından yarandı bu müzəffər ordu! Ona görə də 26 iyun bizim üçün məcazi mənada kişilər günüdür!

## Qarabağ fatehi

Qəhrəmanmaraşda Azərbaycan Prezidenti üçün deyilən bu ifadə, əlbəttə, qürur verir! Qarabağ fəth edən dövlət başçısı, lider və Ali Baş Komandan bütün şərəflərə layiqdir! Qarabağ fatehinin arxasında güclü xalqı, dövləti və ordusu vardır! Qarabağ fatehinin dost və qardaş türk dövlətləri vardır! Qarabağ fatehinin dünyada əsl dostları, strateji tərəfdaşları vardır!

Bu nəticələrin alınmasında ordunun xidməti danılmazdır. Ordu fatehliyin bütün cəhətlərini birləşdirən güc oldu. Ordu Ali Baş Komandanın əmrlərini tam yerinə yetirdi və indi də hazırdır.

İndi Azərbaycan ordusunu Türkiyə ordusundan ayırmırlar. Bu yanaşmanın da çox mənaları vardır. O anlamda 26 iyun həm də Türkiyə ordusu üçün xüsusi məna kəsb edir. Bu qardaşlaşma və qoşa dayanışmanın əbədi olmasını istəyirik! Qarabağdan başlayan fatehlik dünyaya sülh, barış, əmin-amanlıq, sabit təhlükəsizlik gətirsin. Qarabağ fatehinin xalqı, dövləti və ordusu ilə bunu da bacaracağına əminik!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Qalib Azərbaycanın “Dəmir yumruğu”

**Bu gün bütün dünyada Zəfər ordusu kimi tanınan və öz hünəri ilə müstəqillik tariximizdə qızıl səhifə açan Azərbaycan Ordusunun əsasının qoyulmasından 107 il ötür. Həmin tarixi hadisənin baş verdiyi 1918-ci ildə Azərbaycan xalqı nəinki milli arzuları, istəkləri özündə əks etdirən müstəqil, demokratik dövlətin əsasını qoydu, eyni zamanda tarixi əsrlərlə ölçülən qəhrəmanlıq tarixinə yeni səhifələr yazmağa qadir olduğunu nümayiş etdirdi və qısa zaman ərzində Cümhuriyyət ordusunu zamanın reallığına çevirdi.**



Azərbaycan Xalq Cümhuriyyəti ordusunun təşkili Azərbaycanın hərb tarixində və bütünlükdə, Azərbaycan xalqının tarixində əhəmiyyətli bir hadisə idi. Çünki hər şeydən əvvəl bu ordunun yaradılması ilə Azərbaycanda müstəqil nizami ordu quruculuğunun əsası qoyuldu və Azərbaycanda ordu qurudculuğu tarixində xarakter etibarilə tamamilə yeni bir səhifə açıldı.

Bir əsrlik fasilədən sonra Azərbaycanda hərb işi yenidən canlandırıldı, bu sahə dövlət quruculuğunun tərkib hissəsinə çevrildi. Azərbaycan xalqının çoxəsrlik döyüş ənənələri üzərinə dünyanın son təcrübəsini özündə əks etdirən yeni bir ordu yaradılması Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu dövründə dövlət quruculuğunun əldə etdiyi ən mühüm nailiyyətlərdən biri oldu. Bunun üçün Azərbaycanın müstəqilliyinə və milli maraqlarına cavab verən siyasət ortaya qoyuldu, dövlətin və xalqın bütün potensialı yeni ordu yaradılmasına istiqamətləndirildi.

Qeyd edək ki, iyun ayının 26-nın Azərbaycan Respublikasl Silahlı Qüvvələr Gününü Azərbaycan Ordusunun yenidən qurulmasında və tamamilə yeni keyfiyyətlər əldə etməsində tarixi rolu olmuş ümummilli lider Heydər Əliyev 22 may 1998-ci il tarixli fərmanla elan etmişdir. Bu qərar Ulu öndərin Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ordunun təşkil edilməsi istiqamətində görülən işlərə verdiyi önəmin və qiymətin ifadəsi idi.

Ümumiyyətlə, Ümummilli lider dəfələrlə öz çıxışlarında Azərbaycan Xalq Cümhuriyyəti illərində milli ordu quruculuğu sahəsində görülən işlərə və əldə edilən nəticələrə yüksək qiymət vermişdir. Həmin ordu dövlətçilik və müstəqillik tariximizdə yadda qalan xidmətlərə malikdir və ona görə də Heydər Əliyev öz fərmanı ilə Cümhuriyyət ordusu ilə bugünkü ordumuz arasında tarixi bir bağlılığı olduğunu və bu bağlılıqdan doğan ənənələrin qorunub saxlanması zəruriliyini bu fərmanı ilə təsdiq etdi.

Cümhuriyyət ordusunu çox məsuliyyətli vəzifələri təsəvvürəgəlməz bir təşkilatçılıq qabiliyyəti ilə həll edən insanlar qurdular. Burada Azərbaycan Xalq Cümhuriyətinin hökuməti, parlamenti, nazirlikləri və Hərbi Nazirliyin yekdil fəaliyyəti indi bizim hamımızın fəxrlə xatırladığı bir ordunun qurulmasına yol açdı. Həm ali qanunvericilik orqanı olan ölkə parlamenti, həm də icraedici oran olan Nazirlər Şurası bu istiqamətdə üzərlərinə düşən vəzifələrin icrasına dövlət maraqları mövqeyindən yanaşdılar.

Ölkə parlamenti mövcud olduğu dövr ərzində hərb quruculuğunun müxtəlif sahələri ilə bağlı 10-dan artıq qanun layihəsini nəzərdən keçirdi və müvafiq qərarlar qəbul etdi. Həmin qərarların hər biri odru quruculuğu və ölkənin müdafiə gücünün artırılması üçün həm cari, həm də perspektiv əhəmiyyətə malik idi və bu qərarlar icraedici orqanların ordu quruculuğu ilə bağlı fəaliyyətinin istiqamətləndirilməsi üçün hüquqi baza kimi qəbul edildi. Hər işinin milli dəyərlər üzərində qurulması üçün Azərbaycan dili orduda dövlət dili elan edildi.

Güclü ordunun formalaşdırılması üçün vacib olan müxtəlif hərbi strukturların yaradılması, qoşunların ərzaq və digər vasitələrlə təmin olunmasının yaxşılaşdırılması, həmçinin hərbi qulluqçuların maaşlarının vaxtaşırı artırılması həm hökumətin, həm də Hərbi Nazirliyin daimi nəzarətində idi.

1919-cu ilin iyununda Dövlət Müdafiə Komitəsi yaradıldı və bununla da ölkənin müdafiəsinin təşkili konkret bir orqanda mərkəzləşdirildi. Nazirlər Şurası sədrinin rəhbərlik etdiyi bu orqan müdafiə və ordu quruculuğu sahəsində dövlət səviyyəsində zəruri olan qərarları qəbul edir və həm də lazım olan qüvvələri səfərbər etməklə onun icrasını təşkil edirdi.

1919-cu ilin avqustunda Cümhuriyyət ordusunun artıq kifayət qədər formalaşmış olan hərbi hissələri Lənkəran bölgəsinin Azərbaycan hökumətinə tabe olamayan qiyamçı qüvvələrdən təmizlənməsi məqsədilə planlaşdırılan Lənkəran əməliyyatını uğurla yerinə yetirdilər. Cümhuriyyət Ordusu 1920-ci ilin mart-aprel ayında Qarabağın və Azərbaycanın digər ərazilərinin işğal eilməsi üçün Ermənistan hərbi qüvvələrinin başladığı hərbi təcavüzün qarşısının alınması məqsədi ilə genişmiqyaslı hərbi əməliyyatda iştirak etdi.

1920-ci il mart ayının 22-dən 23-nə keçən gecə, Novruz bayramı günlərində erməni hərbi qüvvələri eyni vaxtda Şuşada, Xankəndidə, Əsgəranda, Xocalıda və Tərtərdə yerləşən Cümhuriyyət ordusu bölmələri üzərinə hücuma keçdilər. Ermənistan hərbi qüvvələri Qarabağ ərazisindəki yaradılmış separatçı qüvvələrlə birlikdə dörd istiqamətdən Azərbaycan ərazilərinin işğalına cəhd göstərdilər: 1)Qazax–Ağstafa, 2)Cəbrayıl, 3)Ağdərə-Tərtər, 4)Şuşa–Əsgəran–Ağdam istiqamətlərindən başlanan hücumlar kütləvi dağıntılarla da müşayiət olunurdu. Ermənistan siyasi rəhbərliyinin və hərbi komandanlığının hazırladığı plana görə əvvəlcə bütün Qarabağ işğal altına alınmalı, sonra isə erməni qüvvələrinin Tərtərdən və Qazax istiqamətindən irəliləməsi nəticəsində Gəncə şəhəri işğal eidlməli idi.

Ermənistanın bu işğalçılıq planının qarşısının alınması üçün əsasən Qarabağda və onun ətrafında aparılan müharibə müstəqillik dövründə Azərbaycan Ordusunun və onun rəhbərliyinin rastlaşdığı ən ciddi və taleyüklü bir sınaq oldu. Buna baxmayaraq, erməni hərbi qüvvələrinin bütün təcavüz cəhdlərinin qarşısı alındı. Hərbi nazir Səməd bəy Mehmandarovun strateji rəhbərliyi, onun müavini Əliağa Şıxlinskinin yüksək təşkilatçılığı, Qarabağdakı hərbi qüvvələrə rəhbərlik edən Həbib bəy Səlimovun, Teymur bəy Novruzovun, Cavad bəy Şıxlinskinin, digər zabitlərin və döyüşçülərin şücaəti və fədakarlığı nəticəsində Cümhuriyət ordusu ona tapşırılmış vəzifəni qələbə ilə başa çatdırdı. Erməni silahlı qüvvələrinin bütün cəhdlərinə baxmayaraq, Qarabağın Azərbaycandan qoparılması mümkün olmadı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu, müstəqil dövlətçiliyə xidmət, milli maraqların müdafiəsinə sədaqət sahəsində yeni bir təfəkkür formalaşdırıldı, milli hərbi ənənələrə yeni bir məzmun verildi. Məhz bunun üçün idi ki, Cümhuriyyətin süqutundan sonra bolşevik quruluşunun daşıyıcıları Azərbaycan üzərində qırmızı işğalı möhkəmləndirmək üçün ilk növbədə milli hərbi kadrların kütləvi terroruna başladılar. Doğrudur, istər Cümhuriyyət dövründə xidmət sıralarında olmuş, istər sovet hakimiyyəti illərində yeni rejimə xidmət yoluna cəlb olunmuş çoxlu sayda milli hərbi kadrlar qırmızı bolşevik terrorunun qurbanı oldu.

1938-ci ilə qədər milli diviziya adı altında mövcud olan Azərbaycan diviziyası da bu terrordan yaxa qurtara bilmədi və həmin ildə onun ləğvinə qərar verildi. Bununla belə, azərbaycanlılar arasında milli hərbi ruhu bütünlüklə məhv etmək sovet rejiminə qismət olmadı. İkinci Dünya müharibəsi illərində faşizmə qarşı mübarizədə Azərbaycan xalqının göstərdiyi xidmətlər, Azərbaycan övladlarının misilsiz hünərləri buna bir sübutdur. Lakin sovet rejimi izlədiyi ideologiyaya və siyasi hədəflərə uyğun olaraq xalqın Cümhuriyyət dövründən yeni məzmun kəsb edən hərbi ənənələrinin canlandırılmasına, azərbaycanlıların hərb işinə daha geniş şəkildə genişlənməsinə imkan vermədi.

Bu sahədə xalqın maraqlarına cavab verən dönüşə bir də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə nail olmaq mümkün oldu. Azərbaycan müstəqil olmadığı zaman Azərbaycanın qəhrəmanlıq ənənələrinin davam etdirilməsi, zəngin hərb tarixinin canlandırılması, gənclərin bu qəhrəmanlıq ənənələri üzərində tərbiyə edilməsi, sərkərdələrin və görkəmli hərb xadimlərinin şərəfli yolunun davam etdirilməsi fikirləri Heydər Əliyevin hər zaman diqqət mərkəzində olmuşdu. Bunun nəticəsi idi ki, sovet illərində Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi vaxtlar hərbi xidmətə münasibətdə yeni bir baxış formalaşdırıldı, bu istiqamətdə əməli-təşkilati işlərə vüsət verildi.

Sovet rejiminin böyük müqavimətinə baxmayaraq, Cəmşid Naxçıvanski adına xüsusi-internat məktəbin açılması, Bakı şəhərində yerləşən hərbi məktəblərdə azərbaycanlı kursantların sayının artırılması, ölkənin ali hərbi məktəblərinə göndərilən azərbaycanlıların sıralarının genişləndirilməsi Heydər Əliyevin milli hərbi ənənələrin canlandırılması sahəsindəki tarixi fəaliyyətinin əyani nümayişidir.



Cümhuriyyət ordusunun ən yaxşı ənənələrini yeni səviyyədə, yeni keyfiyyətdə davam etdirən müasir ordumuzun əsası da məhz ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu istiqamətdə köklü dəyişikliklər isə onun radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətindən başlayır. 2 noyabr 1993-cü il tarixli müraciətindən sonra ordu quruculuğu sahəsində başlanan uğurlu işlər atəşkəs dövründə daha yaradıcı şəkildə davam etdirildi və qısa müddətdən sonra Azərbaycan Ordusu çox qüdrətli bir qüvvəyə çevrildi.

Bu siyasət İlham Əliyevin respublikaya rəhbərliyi dövründə də uğurla davam etdirildi. Onun rəhbərliyi altında qoşunların maddi-texniki bazasının davamlı olaraq təkmilləşdirilməsi, döyüş hazırlığının real döyüş vəziyyətinə daha da yaxınlaşdırılması, Silahlı Qüvvələrdə mənəvi əhval-ruhiyyənin sağlamlaşdırılması, ordunun milli kadr hazırlığının uğurla davam etdirilməsi, ordunun struktur islahatlarının onun qarşısında dayanan vəzifələrə uyğun aparılması, nizam-intizamın gücləndirilməsi, şəxsi heyətə sosial qayğının daim diqqət mərkəzində saxlanması Azərbaycan Ordusunun daha da güclənməsinə imkan yaratmışdır. Bütün bunların nəticəsində Azərbaycan Ordusu Ali Baş Komandanın bütün əmrlərini vaxtında yerinə yetirməyə və Azərbaycan xalqının ümidlərini doğrultmağa qadir olan bir qüvvəyə çevrilmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi altında günü-gündən inkişaf edən və möhkəmlənən Azərbaycan Ordusu nəyə qadir olduğunu hələ 2016-cı ilin aprelində Ermənistanın hərbi qüvvələrinin təxribatının qarşısının alındığı zaman və 2018-ci ilin mayında Naxçıvanın Günnüt kəndi ətrafındakı torpaqları erməni işğalından azad edərkən artıq əyani şəkildə nümayiş etdirmişdi. Ali Baş Komandanın yuxarıdakl fikirlərində də buna bir işarə vardır. Həmin uğurları İlham Əliyev Azərbaycanın hərb tarixinin şərəfli səhifəsi kimi qələmə verirdi.

2020-ci il iyul ayının 12-15-də Ermənistan–Azərbaycan sərhədinin Tovuz rayonu ərazisində baş verən hadisələr zamanı isə Azərbaycan Ordusu bölmələri tamamilə yeni bir keyfiyyət ortaya qoydular. Ordunun komandir və zabit heyətinin yüksək peşəkarlığı, təşəbbüskarlığı və çevikliyi Ali Baş Komandan tərəfindən verilən tapşırıqların tam şəkildə yerinə yetirilməsinə yol açdı.

Qısa müddət ərzində bölgədəki hərbi qüvvələr bu təcavüzün qarşısının alınmasına səfərbər olundular, Azərbaycan Ordusunun malik olduğu müasir hərbi texnika çox dəqiqliklə işə salındı. Xüsusilə pilotsuz uçan təyyarələr Ermənistanın istər sərhəd boyu, istərsə də Ermənistanın dərinliklərində olan hərbi obyektlərini darmadağın etdi, təcavüzkara ağır itki verildi. Erməni hərbi qüvvələrinin ələ keçirməyə çalışdığı ərazilər geri qaytarıldı və düşmənə bu bölgədə bir qarış da olsa torpaq verilmədi.

Daha böyük Zəfərini isə Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsinin gedişində əldə etdi. Cəmi ay yarım davam edən döyüşlər zamanı Ermənistana, faşist mahiyətli dünya erməniliyinə və onların havadarlarına elə bir dərs verildi ki, bölgədə tamamilə yeni bir reallıq yarandı. 30 il ərzində davam edən işğala susqunluqla yanaşan çox böyük qüvvələr Azərbaycan xalqının iradəsi qarşısında diz çökməyə məcbur oldu və bu qüvvələrin heç yuxularında belə təsəvvür edə bilməyəcəkləri bir tarixi mənzərə ortaya çıxdı: Azərbaycan xalqı və onun iradəsini ifadə edən Azərbaycan dövləti gücünü və qətiyyətini toplayaraq öz ərazilərini erməni işğalından azad etdi, fərqli bir dünya düzəni yaratmaqla yeni bir tarix yazdı.

Azərbaycan xalqı sübut etdi ki, haqsızlığa dayaqlanan şər və təcavüzlə onun iradəsini qırmaq, Azərbaycan xalqı ilə zor və təzyiqlə danışmaq, Azərbaycan xalqının səbri və dözümü ilə siyasi alver etmək olmaz. Kimsənin torpağına göz dikməyən Azərbaycan dövləti torpaqlarının da yad tapdağı altında qalması ilə barışmadı və bu torpaqlarda əbədi kök salacaqlarına şübhə etməyən erməniliyə layiq olduğu yerini göstərdi, müstəqil Azərbaycanın ərazi bütövlüyü bərpa edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində və Azərbaycan torpaqlarının işğalına son qoyulmasında heç şübhəsiz ki, ilk növbədə, Azərbaycan Ordusu misilsiz fədakarlıq nümayiş etdirdi. Mübarizlik, qətiyyət, şücaət, xalq və dövlət maraqlarına sonsuz sədaqət, düşmənə hədsiz nifrət hər bir əsgərin, zabitin və generalın şəxsində düşmənə doğru istiqamətlənmiş ağır bir yumruğa çevrildi. Azərbaycan Ordusu mürəkkəb döyüş şəraitində bu gün bütün dünyanı heyrətə salacaq bir məharət göstərməklə Azərbaycan xalqının qəhrəmanlıq tarixinə şərəfli bir səhifə yazdı.

44 gün davam edən Vətən müharibəsi cəbhələrində Prezident İlham Əliyevin təşkilatlandırdığı və Ali Baş Komandanı olduğu Azərbaycan Ordusu XXI əsrin yeni müharibəsinin aparılmasının nümunəsini nümayiş etdirdi. Ən yeni nəsil hərbi texnika ilə piyada qüvvələrin fəaliyyət uzlaşmasının dəqiqliklə, yeni təfəkkür və yanaşma ilə təmin edilməsi müasir döyüşün taktikasına da yeniliklər gətirdi.

Xüsusilə, pilotsuz zərbə uçuş aparatlarının dünya təcrübəsində ilk dəfə çox geniş miqyasda və davamlı şəkildə tətbiqi döyüş meydanında səmanın tamamilə Azərbaycanın nəzarəti altına keçməsinə yol açdı. Müzəffər ali Baş Komandan da bəyan edirdi ki, “bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə bizim təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib”.

Xalqın qürur mənbəyinə çevrilmiş olan Azərbaycan Ordusunun şəxsi heyəti Vətən müharibəsi cəbhəsinin bütün sahələrində düşmənin belini qırmağa istiqamətlənmiş sonsuz şücaət və fədakarlıq nümayiş etdirdi. Məğlubedilməzliyi haqqında saxta miflər və uydurmalar yaradılmış erməni ordusu qərar tutduğu son dərəcə əlverilşi mövqelərin təbii üstünlüklərinə baxmayaraq, Azərbaycan Ordusu qarşısında məğlub duruma düşdü. 44 günlük Vətən müharibəsi ilə Azərbaycanın ərazi bütövlüyü, 2023-cü ilin 27 sentyabrında keçirilən antiterror tədbiri ilə isə Azərbaycanın suverenliyi təmin edildi. Azərbaycan xalqı, onun rəhbərliyi və ordusu tarixin yeni və şərəfli bir səhifəsini yazdı.

Tarixinin şərəfli anlarını yaşayan Azərbaycan Ordusunun qəhrəmanlığı və fədakarlığı nəticəsində əldə edilmiş tarixi Zəfər Azərbaycanın ərazi bütövlüyünün tamamlanması, 30 ilə yaxın davam edən erməni işğalına son qoyulması ilə nəticələndi. İndi Azərbaycan Ordusu öz xidmətini işğaldan azad edilmiş ərazilərdə, Ermənistanla dövlət sərhədində davam etdirir və heç şübhəsiz ki, müzəffər Ali Baş Komandanın rəhbərliyi altında bu ordu gələcəkdə də öz tarixinin yeni-yeni şərəfli səhifələrini yazacaqdır.

***Mehmu SÜLEYMANOV,***
***Milli Müdafiə Universiteti Hərbi Elmi Tədqiqat İnstitutunun professoru***

# Bölgədə dincliyin və ədalətin təminatçısı

## Müasir Azərbaycan Ordusu "Yurdda sülh – cahanda sülh" amalına xidmət edir

**Bundan sonra ordu bizə 30 illik işğaldan sonra azad etdiyimiz torpaqlarımızı göz bəbəyi kimi qorumaq üçün lazımdır. Artıq həm bölgədəki qonşularımız, həm də praqmatik düşüncəli beynəlxalq ictimaiyyət əmin oldu ki, Azərbaycanın özgəsinin torpağında gözü yoxdur və ondan ötrü Cənubi Qafqazda təhlükəsizlik hər şeydən önəmlidir. Çünki ölkəmiz başda yaxın qonşuları olmaqla, bütün dünya ilə əməkdaşlığa açıq siyasət yürüdür. Bunu dövrün çağırışlarının tələb etdiyini rəsmi Bakı çox yaxşı anlayır. Amma bu o demək deyil ki, biz ordumuzun gücünün, qüdrətinin zəifləməsinə yol verməliyik. Xeyr, Azərbaycan Silahlı Qüvvələri hər zaman müasir standartlara cavab verən səviyyədə olacaq.**



Ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş, güclü iqtisadi potensiala, güclü orduya, təhlükəsizliyinə və sabitliyinə, milli həmrəyliyə nail olmuş müasir Azərbaycan beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutub. Bu zaman ordunun müstəqilliyimizin və təhlükəsizliyimizin qarantı olduğu əsla unudulmur. Artıq heç kəsə sirr deyil ki, Prezident İlham Əliyevin tapşırığına əsasən Azərbaycan Ordusunun Türkiyə modeli əsasında, yəni, NATO standartlarına uyğun şəkildə qurulması prosesi davam etdirilir. Bu məqsədlə silahlı qüvvələrin müxtəlif qoşun növlərində islahatlar aparılır, yeni komando hərbi hissələri yaradılır. Aydın məsələdir ki, islahatların gedişində ordumuzun Vətən müharibəsində qazandığı təcrübə mütləq şəkildə nəzərə alınır. Axı, istər 44 günlük qurtuluş savaşında, istərsə də birgünlük antiterror əməliyyatında Azərbaycan Ordusu peşəkarlığına və döyüş qabiliyyətinə görə dünyanın ən güclü 50 ordusunun sırasında yer aldığını sübuta yetirmiş oldu.

*

"Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var!" – deyən ölkə rəhbərinin qibtəolunası sərkərdəlik qabiliyyəti sayəsində rəşadətli ordunun əldə etdiyi tarixi Zəfərin başlıca səbəbi zabit və əsgərlərimizin Xalq–Ordu–Lider birliyindən qaynaqlanan ruh yüksəkliyi idi. Onlar düşmən üzərində qələbəni döyüş meydanından daha əvvəl vətənpərvərlik hissləri ilə çırpınan ürəklərində qazanmışdılar. Əsgərin torpağa sevgi və sədaqəti, döyüşdə şücaəti Ali Baş Komandanın söz və əməllərindən yoğrulurdu desək, səhvə yol verərik.

Məhz Ali Baş Komandan İlham Əliyevin hərbi strateq kimi düşündüyü uzaqgörən siyasəti nəticəsində milli ordumuz regionda aparıcı hərbi qüvvəyə çevrilməklə yanaşı, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təminatçısı rolunda çıxış edir. Bəli, Azərbaycan Ordusu Mustafa Kamal Atatürkün "yurdda sülh – cahanda sülh" prinsipinin daşıyıcısı olaraq, yalnız xoş məramlı missiyaları yerinə yetirmək barədə düşünür. Bu reallığı dünya ordularının reytinq sıralamasında ön yerlərdən birində qərar tutmuş Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi uğurlu əməliyyatları analiz edən nüfuzlu beyin mərkəzləri, hərbi mütəxəssislər qəbul edirlər. Sadəcə, qəbul etmirlər, həm də Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində tətbiq etdiyi XXI əsrin yeni və uğurlu döyüş taktikasını tədris olunmağa layiq nümunə kimi göstərirlər.

Aydın məsələdir ki, dünya yerində saymır. Bəşər övladı hər gün yeni texnologiya icad eləyir. Amma təəssüf ki, yeni ixtiraların bir çoxu hərbi sənayenin payına düşür. Militarizm düşüncəsi hələ də bəzi güclərin beyinlərindən silinməyib. Silahlı Qüvvələrin maddi-texniki bazasının yenilənməsi, müasir silah sistemlərinin alınması, eləcə də hərbi sənayenin inkişaf etdirilməsi XXI əsrdə təhlükəsizliyin mühüm elementlərindən birinə çevrilib. Beynəlxalq münasibətlərdə son illər müşahidə olunan proseslər bu platformalara yenidən cəngəllik qaydalarının qayıtmasından xəbər verir. Bu qaydalar isə hər bir ölkəyə öz təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirləri gücləndirməsini, ən son hərbi texnologiya ilə təchiz edilmiş müasir, güclü orduya malik olmasını zəruri edir.

Bu məqamda son günlər bütün dünyanın narahatlıqla izlədiyi İsrail–ABŞ–İran müharibəsi ilə Ermənistan–Azərbaycanın arasında 44 gün sürən müharibənin müqayisəsi yerinə düşər. Məlum olduğu kimi, bu hərbi qarşıdurmada atəşkəs elan olunsa da, nəticədə tam qalib yoxdur. Baxmayaraq ki, üstünlük İsrail və ABŞ-ın tərəfində idi, İran da qələbəni bayram edir. Məhz bu xüsusda Azərbaycan Prezidenti Ali Baş Komandan İlham Əliyevin sözlərini xatırladırıq: "İkinci Dünya müharibəsindən sonra Azərbaycan qədər birmənalı və tam qələbə heç kim tərəfindən qazanılmayıb". Bəli, biz qürurla deyə bilərik ki, Azərbaycan Ordusu qarşısında duran tarixi missiyanı – ərazi bütövlüyü və suverenliyin tam bərpası vəzifəsini uğurla yerinə yetirdi və qarşı tərəf kapitulyasiyanı rəsmən etiraf etdi.

*

"Biz bu gün yüksək texnoloji mərhələyə qədəm qoymuşuq və əlbəttə ki, texnologiyalar, peşəkarlıq böyük dərəcədə hər bir ordunun uğurunu təmin edir. Ancaq mən bunu demişəm və bir daha demək istəyirəm ki, torpaqları işğalçılardan azad edən əsgərlər və zabitlərdir. Bayrağı da onlar qaldırırlar, torpağı da onlar işğalçılardan təmizləyirlər". Bu, İlham Əliyevin Vətən müharibəsinin gedişində möhürünü vurduğu kəlamlarından biridir. Bəli, biz müasir texnologiyaya sahib ordunun effektiv taktikasının real və təsirli nəticəsini 2020-ci ilin payızında gördük. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu yalnız müasir silahlarla deyil, strateji planlama və güclü komandanlıqla üstünlüyünü nümayiş etdirdi. Amma torpaqların işğaldan azad olunması təkcə hərbi qələbə deyildi. Bu, Azərbaycan hakimiyyətinin illərlə apardığı düzgün siyasətin məntiqi nəticəsi idi. Artıq Azərbaycan Ordusu regionda söz sahibi olan bir güсdür. Bu gücə bölgə ölkələri, hətta Azərbaycandan gözlənilən hərbi təcavüzlə özünü qorxudan Ermənistan da güvənə bilər.

Yenidən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müzəffər ordumuz barədə dediklərinə istinad etməyi zəruri sayırıq: "1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə, yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilib. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir".

Təhlükəsizliyin və sabitliyin qarantına çevrilən Azərbaycan Ordusu bu missiyanı qeyri-rəsmi olaraq bütün Cənubi Qafqazda həyata keçirir. Müzəffər Azərbaycan Ordusunun yaranmasının 107-ci ildönümü ilə bağlı müfəssəl qeydlərimizi Türkiyə Respublikasının qurucusu və ilk Prezidenti Mustafa Kamal Atatürkün 1931-ci ilin aprelində Anadoluya səfəri zamanı ictimaiyyət qarşısında söylədiyi "Yurdda sülh, cahanda sülh!" şüarı ilə yekunlaşdırmağı düşünürük. Az sonra həmin şüar Türkiyədə dövlət idarəçiliyinin və fəaliyyətinin əsas prinsipi kimi qəbul edildi.

Dövlət idarəçiliyində və onun bütün fəaliyyət sahələrində rəhbər tutulan "Yurdda sülh, cahanda sülh!" prinsipi milli olduğu qədər də bəşəri bir qanunun aliliyidir. Bu prinsipin qayəsində bir tərəfdən ölkə daxilində əmin-amanlıq içində yaşamağın təmin edilməsi, digər tərəfdən isə beynəlxalq sülh və təhlükəsizliyin qorunması durur. Yəni, bu prinsip dövlətin həm daxili, həm də xarici siyasətinin təməl prinsiplərindən biridir.

Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, sərkərdə qabiliyyətinə malik İlham Əliyevin XXI əsrdə qurucusu olduğu ordumuzun gücünə güc qatan ən önəmli amil isə onun xalqla vəhdətidir. Azad ölkənin təminatlı insanı ordunun qüdrətini daha da artırır, onu məğlubedilməz edir. Cənubi Qafqazda baş verə biləcək hər hansı bir iğtişaşın qarşısını operativ şəkildə almağa qadir Azərbaycan Ordusu kollektiv təhlükəsizliyə, beynəlxalq sülhün qorunmasına və onun davamlılığına öz töhfəsini verməyə hazırdır.

Dövlət başçısımızın bu çağırışı isə təkcə bölgə ölkələrinə deyil, bütün dünyaya ünvanlanıb: "Biz elə bir Ordu yaratmışıq ki, – bundan sonra da bu işlər davam edəcək, – heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz".

***İmran BƏDİRXANLI***
***XQ***

# Oğuzun bol taxılı



**Xanlar Əliyevi uzun illərdir tanıyıram. Torpaq adamıdır. Çox söhbət etmişik. Həmişə həvəslə danışıb. Deyib ki, hər dəfə sahənin kənarına gələndə, yetişən məhsulu görəndə özümü dünyanın xoşbəxti sayıram.**

Yaşı 65-i keçib. 30 ildən çoxdur ki, taxılçılıqla məşğuldur. İki oğlunu da bu işə cəlb edib. Birlikdə gecə-gündüz sahədədirlər. 153 hektar sahədə səpin aparıblar. Xanlar bildirir ki, mövsüm ərzində bütün aqrotexniki tədbirlər görüldüyündən yüksək məhsuldarlıq gözlənilir. İlk nəticələr isə bunu deməyə əsas verir. Belə ki, artıq biçin başlanıb və orta məhsuldarlıq 45,6 sentner təşkil edir.

Oğuz rayonu ərazisində 2025-ci ilin məhsulu üçün ümumilikdə 16 min 317 hektar ərazidə payızlıq taxıl əkilib. Ondan 9 min 818 hektar buğda, 6 min 499 hektarını arpa təşkil edir. Əkilən sahələrin gübrə ilə təminatında, siçanabənzər gəmiricilər, xəstəlik və zərərvericilər, həmçinin alaq otlarına qarşı mübarizə tədbirlərinin hər biri vaxtı vaxtında aparılıb və bu sahədə heç bir problem yaşanmayıb. Sevindirici haldır ki, sahələrdə qulluq işlərinin aparılması məqsədi ilə ehtiyac olan hər bir texnika rayon ərazisində mövcuddur. Oğuz Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri tərəfindən müntəzəm olaraq sahələrdə monitorinqlər aparılıb, fermerlər ilə keçirilən görüşlərdə lazım olan bütün aqrotexniki tədbirlər haqqında ətraflı məlumatlar verilib.

Rayonun bir çox inzibati ərazi dairələrində artıq biçin prosesinə başlanılıb. Bu günə olan məlumata əsasən 995 hektar arpa sahəsində biçin aparılıb. Sahələrdən 3980 ton məhsul götürülüb, orta məhsuldarlıq 40 sentner olub. Hazırda biçində 30 kombayn iştirak edir ki bunlardan 12 ədədi Aqrolizinq ASC-yə, 18 ədədi isə fiziki və hüquqi şəxslərə məxsusdur. Taxıl sahələrinin bu dövrdə yanğından mühafizəsi məqsədi ilə hər bir biçin aparan kombaynın yanında növbətçi şum traktoru var. Yığımın vaxtında və itkisiz başa çatdırılması məqsədi ilə qərargah yaradılıb. Qərargah üzvləri rayonun müxtəlif icra nümayəndəlikləri üzrə təhkim edilib və bu prosesə nəzarəti uğurla həyata keçirirlər. Bundan əlavə Aqroservis ASC- nin yerli bölməsi ilə birlikdə rayon ərazisində olan kombaynların hər biri ayrı-ayrılıqda rayonun inzibati ərazi dairələri üzrə bölünüb.

Fidail Məmmədov da fermerdir. 240 hektar ərazidə səpin aparıb. Fariz Ağayev isə 152 hektar sahədə məhsul yetişdirəcək. Ondan 98 hektarını arpa, 54 hektarını isə buğda təşkil edir. Bu günə olan məlumata əsasən orta məhsuldarlıq 40 sentner təşkil edir.

Oğuz rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin rəisi Azad Əliyevlə söhbət zamanı bildirdi ki, yüksək məhsuldarlıq əldə etmək üçün fermerlərə hər cür şərait yaradılıb. Bu gün hər hansı bir problemdən danışıla bilməz. Çalışdığımız odur ki, çəkilən əziyyət öz bəhrəsini versin. Məşhur misrada deyildiyi kimi, "Torpağa düşməsin havayı bir dən..."

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri,***

**Oğuz rayonu**

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin iyul ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1 | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Qəbələ** | Qəbələ, Oğuz | **02** |
| 2 | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Şabran** | Şabran, Xaçmaz | **03** |
| 3 | **Baş prokuror** Kamran Əliyev | **Yardımlı** | Yardımlı, Masallı, Cəlilabad | **04** |
| 4 | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Şirvan** | Şirvan, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar | **04** |
| 5 | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Abşeron** | Abşeron, Sumqayıt, Qubadlı, Zəngilan | **04** |
| 6 | **Ədliyyə naziri** Fərid Əhmədov | **Quba** | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı | **11** |
| 7 | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Şəki** | Şəki, Oğuz | **11** |
| 8 | **Mədəniyyət naziri** Adil Kərimli | **Lerik** | Lerik, Lənkəran, Astara, Masallı, Yardımlı, Cəlilabad | **11** |
| 9 | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Balakən** | Balakən, Zaqatala | **11** |
| 10 | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Ağsu** | Ağsu, İsmayıllı, Şamaxı, Qobustan | **14** |
| 11 | **Baş prokuror** Kamran Əliyev | **Zaqatala** | Zaqatala, Şəki, Qax, Balakən | **8** |
| 12 | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Gədəbəy** | Gədəbəy, Şəmkir | **8** |
| 3 | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Göygöl** | Göygöl, Gəncə, Samux, Daşkəsən, Goranboy, Naftalan, Xocalı, Kəlbəcər | **8** |
| 4 | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Xaçmaz** | Xaçmaz, Şabran | **8** |
| 15 | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Oğuz** | Oğuz, Qəbələ, İsmayıllı | **8** |
| 6 | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Lerik** | Lerik, Lənkəran | **8** |
| 7 | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi, Laçın | **2** |
| 8 | **Energetika naziri** Pərviz Şahbazov | **İsmayıllı** | İsmayıllı, Şəki, Oğuz, Qəbələ, Ağsu, Şamaxı | **2** |
| 9 | **"Azəristiliktəchizat" ASC-nin sədri** İlham Mirzəliyev | **Tərtər** | Tərtər, Bərdə | **2** |
| 20 | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Oğuz** | Oğuz, Şəki, Qax, Zaqatala, Balakən, Qəbələ | **25** |
| 21 | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **Daşkəsən** | Daşkəsən, Göygöl | **25** |
| 22 | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Qəbələ** | Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala, Balakən | **25** |
| 23 | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Füzuli** (Horadiz şəhəri) | Füzuli, Beyləqan, İmişli, Xocavənd | **25** |
| 24 | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Siyəzən** | Siyəzən, Şabran, Xaçmaz, Xızı | **25** |
| 25 | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Xızı** | Xızı, Siyəzən | **25** |
| 26 | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Astara** | Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı | **30** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Paşinyan – Qaregin qarşıdurması şiddətlənir

**İyunun 16-dan 21-dək Erməni Apostol Kilsəsində (EAK) monastır yığıncağı keçirilib. Bu barədə kilsənin mətbuat xidmətinin yaydığı məlumatda bildirilib ki, yığıncaqda bütün ermənilərin katolikosu II Qaregin baş nazir Nikol Paşinyanın bəyanatlarından narahatlıq ifadə edib. Katolikos son dövrlər hökumət tərəfindən kilsəyə qarşı yönələn tənqidləri daxili sabitliyə təhlükə kimi qiymətləndirib.**

O, kilsənin tarixi və mənəvi rolunun gözdən salınmasına yönəlmiş cəhdlərin xalqla hakimiyyət arasında uçurumu dərinləşdirəcəyini bildirib. Deyib ki, planlaşdırılmış hücumlar erməni din xadimlərini və kilsəni gözdən salmaq, kilsənin səsini boğmaq və cəmiyyətdə onun yüksək reputasiyasını və nüfuzunu (?) azaltmaq məqsədi daşıyır. II Qaregin rahibləri vətənin və erməni kilsəsinin üzləşdiyi yeni çağırışlar qarşısında birləşməyə çağırıb. Yığıncaqda iştirak edən ruhani təmsilçilər də bu məsələdə həmrəy olduqlarını ifadə ediblər. Bildirilib ki, dövlətlə kilsə arasında qarşıdurma əvəzinə dialoqa üstünlük verilməlidir. Sonda qəbul edilən bəyanatda Ermənistan rəhbərliyi məsuliyyətli və təmkinli mövqe tutmağa çağırılıb.

Kilsənin bu cür mövqe tutması erməni cəmiyyətində birmənalı qarşılanmayıb. "Baqramyan 26" Teleqram kanalı yazır ki, kilsə həqiqətən də bir qrup insanın sürü halında yaşadığı, bir növ, qapalı dünyadır. Kanal qeyd edir ki, kilsənin siyasi proseslərə bu dərəcədə müdaxilə etməsi onun dini missiyasından uzaqlaşdığını göstərir. Müasir erməni gəncliyi arasında kilsəyə inamın azalmasının əsas səbəblərindən biri məhz bu cür mövqelərdir: "Kilsənin deyil, kassalı bəzi konkret şəxslərin kilsənin "yüksək reputasiyasına və nüfuzuna" xələl gətirməməsi üçün sizə lazım olan tək şey yalançı olmamaq və Rəbbin qarşısında verdiyiniz əhdi pozmamaqdır. Söhbət sizin üçün vəzifəyə gedən yolu açan anddan gedir! Erməni din xadimlərini gözdən salan əhdlə bağlı verilən yalançı bəyanatlar deyil, əhdin pozulması və səbəb-nəticə əlaqəsini alt-üst etmək cəhdir ki, bu da özlüyündə başqa bir günahdır! Vəziyyəti düzəltmək üçün vətəndaş Ktriç Nersisyanın rahibləri onun ətrafında birləşməyə çağırmasına ehtiyac duyulmur, o, sadəcə olaraq, subaylıq andını pozmadığını və övladı olmadığını bəyan etməlidir!"

Teleqram kanalı bildirib ki, məsələ bu qədər sadədir: "O zaman bütün suallar aradan qalxacaq. Əlbəttə, əgər baş nazir Ktriç Nersisyanın yenidən yalan danışdığını sübut etməsə. O zaman Ktriç Nersisyan yenidən katolikos II Qaregin olacaq, ondan üzr istəniləcək və sübut olunacaq ki, kilsədəki ən yüksək vəzifələr küfr edənlər tərəfindən qəsb edilməyib. Əksinə, bildiriləcək ki, orada Allaha xidmət edən və kilsənin "yüksək nüfuzunu" qoruyub saxlamaqda maraqlı olan müqəddəs insanlar var və cəmiyyətimiz artıq baş nazirə suallar verəcəkdir! Amma Ktriç Nersisyan bu yolla getmir, əksinə, bütün gücü ilə özünü təmizə çıxarmağa çalışır. Günahsız, toxunulmaz adlandırır. Ondan fərqli olaraq kilsə həqiqətən də cəmiyyətdə yüksək nüfuza malik təsisat adlandırılmağa layiqdir".



*

Bu arada Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Komissiyası N.Paşinyanın EAK-ın din xadimləri ilə bağlı etdiyi paylaşımlara görə icraata başlamaqdan imtina edib. Bu barədə "Radio Azatutyun" məlumat yayıb. Vəkil Ara Zohrabyan komissiyaya şikayət ərizəsi ilə müraciət edərək hökumət başçısının paylaşımlarına hüquqi qiymət verilməsini tələb edib. Zohrabyanın sözlərinə görə, komissiya imtinanı artıq təkbaşına araşdırmaya başlaması ilə izah edib. Komissiya qeyd edib ki, Paşinyan öz səlahiyyətləri çərçivəsində fəaliyyət göstərib, rəsmi şəxslərin davranış qaydalarını pozmayıb. Ancaq vəkil israr edir ki, baş nazir "Dövlət qulluğu haqqında" və komissiyanın özü haqqında qanunu pozub. O iddia edir ki, Paşinyan faktiki olaraq kilsənin özünüidarə işlərinə qarışır və bu, onun səlahiyyətindən kənara çıxır: "Onlar iddia edirlər ki, Paşinyan baş nazir kimi deyil, bir vətəndaş kimi hərəkət edib. Lakin onun "Facebook" paylaşımları hökumət başçısı kimi fəaliyyəti ilə birbaşa bağlıdır. Üstəlik, o, hökumətin iclaslarında və parlament tribunasından eyni məsələləri qaldırıb".

Komissiya sədrinin səlahiyyətlərini icra edən radioya bildirib ki, vəkil qərarla razılaşmasa, məhkəməyə şikayət edə bilər. A.Zohrabyan artıq iddia hazırlayır və komissiyanın imtinasına inzibati məhkəmədə etiraz etmək niyyətindədir.

"ArmenianReport" isə yazır ki, Paşinyanın EAK-la münaqişəsi təkcə ideoloji qarşıdurma deyil. Bu, ölkədə son müstəqil və hörmətli qurumlardan birini məhv etmək cəhdidir. Sayt yazır ki, kilsə əsrlər boyu erməni xalqının mənəvi dayağı olub, xüsusən də təlatümlər və xarici təhlükələr zamanı: "Müharibədən sonrakı travma, itkilər, Azərbaycan və Türkiyədən gələn təhdidlər (?) kontekstində kilsə ilə müharibə daxili parçalanmaya aparan birbaşa yoldur. Paşinyan mənəvi avtoritetləri aradan qaldırmaqla erməni xalqını qeyri-müəyyənlik və qorxu ilə baş-başa buraxır. Nəticədə Ermənistan iqtisadi durğunluq, kapitalın qaçması, mütəxəssislərin ölkədən getməsi, sosial gərginliyin artması ilə üzləşəcək. Ən yaxşı halda avtoritar sabitlik, ən pis halda dövlət sisteminin dağılması baş verəcək. Hakim rejim getdikcə daha çox avtoritarizm yolunu xatırladır: real müxalifətin yoxluğu, biznesin dağıdılması, kilsənin tabelikdə olması, hakimiyyətin bir şəxsin və onun dar çevrəsinin əlində cəmləşməsi. Parlamentdəki "Şərəfim var" fraksiyasının katibi Tiqran Abramyan bu gün Ermənistanda baş verən proseslərin mahiyyətini tam dəqiqliklə əks etdirir. O haqlı olaraq deyir ki, biz təhlükəli yolla gedirik. Əgər cəmiyyət indi oyanmasa, sabah çox gec ola bilər".

*

Qeyd etmək lazımdır ki, Ermənistan Korrupsiyaya Qarşı Mübarizə Komissiyasının Paşinyanın kilsə ilə bağlı açıqlamalarına dair icraata başlamaqdan imtina etməsi hüquqi və ictimai müstəvidə ciddi suallar doğurub. Vəkil A.Zohrabyanın bu məsələdə israrla mövqe sərgiləməsi hakimiyyətin kilsəyə müdaxiləsinin hüquqi çərçivədən çıxdığını düşündüyünü göstərir. Paşinyanın "Facebook" paylaşımlarının sıradan vətəndaş deyil, hökumət başçısı statusu ilə səsləndirilməsi isə bu arqumentləri gücləndirən əsas amildir. Komissiyanın "baş nazir səlahiyyət çərçivəsində hərəkət edib" arqumenti, əksinə, cəmiyyətin bir hissəsi tərəfindən siyasi loyallıq nümunəsi kimi qiymətləndirilir. Hüquq müstəvisində davam edəcək bu proses, eyni zamanda, kilsə-hakimiyyət münasibətlərinin daha da gərginləşəcəyindən xəbər verir. Zohrabyanın bu məsələni inzibati məhkəməyə daşımaq niyyəti, məsələyə təkcə hüquqi deyil, həm də ictimai diqqəti yönəltmək cəhdi kimi görünür. Bu, Ermənistanda dövlət-din münasibətlərinin yenidən tənzimlənməsi ilə bağlı daha geniş diskussiyalara yol aça bilər.

"ArmenianReport"un yanaşmasına gəldikdə isə qeyd etmək lazımdır ki, sayt Paşinyanla EAK arasında gedən qarşıdurmanı sırf ideoloji çərçivədən çıxararaq, onu dövlətçilik və milli identiklik müstəvisinə daşıyır. Məqalə müəllifinin fikrincə, kilsəyə qarşı aparılan bu "müharibə" Ermənistanın tarixi dayaqlarını zəiflətməklə milli birliyi sarsıdır. Müharibə sonrası travmatik durumun hələ də qalması fonunda mənəvi institutlara hücum cəmiyyətdə xaos və qeyri-müəyyənlik yarada bilər. Qlobal və regional təhdidlərin artdığı bir vaxtda daxili parçalanma çağırışları təhlükəli nəticələrdən xəbər verir. Saytın Paşinyanı avtoritarizmə meyllilikdə ittiham etməsi isə təkcə siyasi deyil, sosial-iqtisadi böhranların da əsas səbəbi kimi göstərilir.

**Ekspert rəyi**



**Ramiyə MƏMMƏDOVA, siyasi şərhçi**

– Kilsə ilə hakimiyyət arasında gedən qarşıdurma Ermənistan cəmiyyətində dərin ideoloji və institusional böhranı açıq şəkildə üzə çıxarır. Paşinyan hökumətinin EAK-ın fəaliyyətinə müdaxilə kimi dəyərləndirilən addımları dövlət və din arasında illərlə formalaşmış tarazlığı pozur. Bu isə xüsusilə müharibədən sonra zəifləyən milli həmrəyliyi daha da zədələyir. Kilsənin ictimai nüfuzunun hökumət vasitəsilə sarsıdılması Ermənistanın mənəvi dayaqlarını zəiflətməklə yanaşı, siyasi avtoritarizmə doğru istiqamətlənmənin göstəricisidir. Cəmiyyətdə etiraz və narazılıqların artması isə daxili sabitliyi və hüquqi institutların müstəqilliyini təhlükə altına alır. Əgər bu proses dayandırılmasa, Ermənistanın qarşısında daha ciddi siyasi və sosial böhranlar yaranacaq.

Bütövlükdə, demək olar ki, Ermənistanda kilsə ilə hökumət arasında dərinləşən qarşıdurma artıq təkcə dini yox, siyasi və ictimai böhran elementlərinə çevrilməkdədir. Bu proses həm cəmiyyətin ideoloji parçalanmasını sürətləndirir, həm də dövlət institutlarına inamı sarsıdır. Kilsənin nüfuzunun məqsədli şəkildə zəiflədilməsi iddiaları Paşinyan hakimiyyətinin legitimliyinə dair suallar doğurur. Əgər bu gərginlik nəzarətsiz qalarsa, Ermənistan daha geniş sosial və siyasi təlatümlərlə üzləşə bilər.

*Səxavət HƏMİD*
*XQ*

# Saxtakarın gözü düzü əyri görür...

## *İrəvanın bu baxışı regionda sabitliyi hədəfə alıb*

**Azərbaycan xalqının tarixinə dair həqiqətlərin saxtalaşdırılması cəhdləri, xüsusilə Ermənistanın davam etdirdiyi təhrif siyasəti regionda sülh və ədalətin bərqərar olmasına süni maneədir. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İstanbul şəhərində keçirilən Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasında qəbul olunmuş sənədlərlə bağlı Ermənistan XİN-in səsləndirdiyi əsassız və təxribatçı bəyanatlar məhz bu siyasətin nəticəsidir.**

Rəsmi İrəvanın sənədlərin mahiyyətini təhrif etməsi, Qərbi Azərbaycana qayıdış və Xocalı soyqırımı ilə bağlı qərarları "ərazi iddiası" və ya "təhrif olunmuş şərh" kimi qələmə verməsi beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi güdür. Bu, açıq şəkildə göstərir ki, rəsmi Ermənistan hələ də tarixi həqiqətlərlə üzləşməkdən və insan hüquqlarının bərpası ilə bağlı öhdəliklərini yerinə yetirməkdən yayınır.

Azərbaycan xalqının Qərbi Azərbaycana, yəni indiki Ermənistan ərazisindəki tarixi yurdlarına qayıdış tələbi heç bir halda "ərazi iddiası" deyil. Yüz minlərlə azərbaycanlının zorla və sistemli şəkildə doğma torpaqlarından qovulmasının nəticələrinin aradan qaldırılması və onların pozulmuş hüquqlarının bərpası beynəlxalq hüquqa tam uyğundur.

Yada salaq ki, Hayastanın XX əsrin müxtəlif dövrlərində həyata keçirdiyi etnik təmizləmə və kütləvi deportasiya siyasəti nəticəsində azərbaycanlılar, o cümlədən İrəvan şəhərinin, Göyçə, Zəngəzur və digər bölgələrin əzəli sakinləri öz yurd-yuvalarından zorla çıxarılıb. Məsələn, 1905–1907 və 1918–1920-ci illərdə, xüsusilə 1918-ci il mart qırğınları zamanı azərbaycanlılar kütləvi şəkildə qətlə yetirilib, kəndlər yandırılıb, əhali didərgin salınıb.

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin qəbul etdiyi 4083 saylı qərar və 1948-ci ilin martın 10-da imzalanmış 754 saylı əlavə qərar bu planın növbəti mərhələsi oldu. Sənədlərə əsasən, Ermənistan SSR-dən 150 minə yaxın azərbaycanlı məcburi şəkildə Azərbaycan SSR-in Kür–Araz ovalığına köçürüldü. Səssiz, lakin amansız etnik təmizləmə prosesi baş verdi. İnsanlar yüz illər boyu yaşadıqları ata-baba ocaqlarını tərk etməyə məcbur edildi, onların əmlakı, tarixi və dini abidələri ya dağıdıldı, ya da mənimsənildi.

1987-ci ildən Dağlıq Qarabağ ətrafında cərəyan edən məlum hadisələrdən sonra Ermənistan SSR-in ərazisində azərbaycanlılara qarşı kütləvi etnik təmizləmə prosesi misilsiz qəddarlıq və vəhşiliklə həyata keçirilməyə başlandı. 250 mindən artıq soydaşımız öz yurdlarından qovuldu. Bir zamanlar indiki Ermənistanda əksəriyyət təşkil edən Azərbaycan əhalisi etnik təmizlənməyə məruz qaldı. Bu, zorakılıq, kütləvi deportasiyalar, hədə-qorxu və insan hüquqlarının kobud şəkildə pozulması nəticəsində baş verdi. Bu faktlar sənədləşdirilib və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılıb. Bundan başqa, bölgənin toponimikası dəyişdirilərək erməniləşdirilib.

*

Azərbaycanın Qərbi Azərbaycana qayıdış tələbinin tam əsaslı və ədalətli olduğunu, bunun beynəlxalq hüququn pozulmuş prinsiplərinin bərpasına xidmət etdiyini həmin tarixi sübutlar təsdiqləyir. **Bu barədə Milli Məclisin deputatı Fatma Yıldırım** XQ-yə dedi ki, azərbaycanlıların Qərbi Azərbaycana qayıdışı onların beynəlxalq hüquq çərçivəsində fundamental hüququdur: "Bu, BMT Nizamnaməsinin, İnsan Hüquqları üzrə Ümumi Bəyannamənin və Qaçqınların Hüquqları ilə bağlı beynəlxalq konvensiyaların təsdiq etdiyi hüquqi prinsipdir. Bəyannamənin 13-cü maddəsinin 2-ci bəndinə görə, "hər bir şəxsin öz ölkəsinə qayıtmaq hüququ vardır". İƏT-in sözügedən qətnaməsi məhz bu hüquqi və tarixi reallığı təsdiqləyir.







Ermənistanın bu tələbi "ərazi iddiası" kimi təqdim etməsi reallığın kobud şəkildə təhrifidir və rəsmi İrəvanın beynəlxalq hüquqa hörmətsiz yanaşmasının bariz nümunəsidir".

Erməni vəhşiliyi Azərbaycan ərazisində də davam edib. Baş verən hadisələrin xarakteri və ardıcıllığı göstərir ki, bu siyasət Ermənistanın dövlət səviyyəsində planlaşdırılıb. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüz və işğal nəticəsində 20 min azərbaycanlı öldürülüb, 50 min nəfər yaralanıb və ya əlil olub. Bundan əlavə, 4 minə yaxın Azərbaycan vətəndaşı hələ də itkin düşmüş hesab olunur. Eyni zamanda, 700 mindən çox azərbaycanlı doğma yurd-yuvasından didərgin salınıb və etnik təmizləməyə məruz qalıb. Avropa Şurası Parlament Assambleyasının 2015-ci ildə qəbul etdiyi 1416 saylı qətnamədə Ermənistanın hərbi əməliyyatlarının "dəhşətli etnik təmizləmə konsepsiyasını xatırladan genişmiqyaslı etnik qovulma və mono-etnik ərazilərin yaranmasına səbəb olduğu" xüsusi qeyd edilib.

Ermənistanın sabiq prezidenti Serj Sarkisyan ingilis jurnalisti Tomas de Valla müsahibəsində cinayəti açıq etiraf edib: "Bizim müharibəmiz başqalarından bir qədər fərqlənirdi. Bizdə elə oldu ki, etnik təmizləmə baş verdi. Başqa cür ola bilməzdi". Serj Sarkisyan Xocalı faciəsinə toxunaraq deyib ki, əgər mülki əhali orada qalırsa, deməli, onlar da hərbi əməliyyatların bir hissəsidir.

Bu etiraf Ermənistan silahlı qüvvələrinin işğal etdikləri ərazilərdə mülki əhalini açıq şəkildə hədəf seçdiyini və qəsdən kütləvi qırğınlar törətdiyini sübut edir.

Hayastanın törətdiyi vəhşiliklərin ən dəhşətlisi isə 1992-ci ilin fevralında Azərbaycanın Xocalı şəhərində baş verib. Fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlıları Xocalını mühasirəyə alaraq dinc əhaliyə qarşı misli görünməmiş qəddarlıq törədiblər. Nəticədə 613 günahsız insan, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilib, yüzlərlə insan yaralanıb və əsir götürülüb. Bu dəhşətli qətliam dünya ictimaiyyəti tərəfindən insanlığa qarşı törədilmiş ağır cinayət kimi tanınıb. Beynəlxalq təşkilatların hesabatlarında və nüfuzlu ölkələrin parlamentlərinin qəbul etdiyi sənədlərdə soyqırımı faktı öz əksini tapıb.

Tarixi saxtalaşdıran, faciələri inkar edən və məsuliyyətdən yayınmağa çalışan Ermənistan sülh prosesinə real töhfə vermək əvəzinə, bölgədə etimadsızlıq və qarşıdurma mühitini dərinləşdirir. Ermənistan XİN-in "İstanbul Bəyannaməsi" və İƏT Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasında qəbul edilmiş qətnamələrlə bağlı 23 iyun 2025-ci il tarixli əsassız bəyanatının bunun sübutudur. Deputat F.Yıldırım deyir ki, sənədlərin məzmununu təhrif etmək, tarixi faktları saxtalaşdırmaq cəhdi İrəvanın sülh prosesinə xələl gətirmək və beynəlxalq ictimaiyyəti çaşdırmaq niyyətini göstərir: "Unutmaq olmaz ki, sülh yalnız tarixi həqiqətlərin tanınması və pozulmuş hüquqların bərpası əsasında mümkündür. Bu baxımdan İslam Əməkdaşlıq Təşkilatının qəbul etdiyi qətnamələr, beynəlxalq hüququn, insan hüquqlarının və tarixi faktların açıq şəkildə təsdiqidir. Ermənistanın bu sənədi saxtalaşdıraraq "ərazi iddiası", "təhrif" kimi təqdim etməsi isə reallıqdan uzaq olmaqla yanaşı, ictimai rəyə təsir göstərmək məqsədi daşıyan manipulyasiyadır".

**Qarsdakı Qafqaz Universitetinin professoru Oktay Kızılkaya** hesab edir ki, Rusiya imperiyasının bütün səylərinə baxmayaraq, ermənilər uzun müddət Qərbi Azərbaycan ərazisində çoxluq təşkil edə bilməyib: "Bunu 1909-cu ilin statistik məlumatları da sübut edir. Rəqəmlərə əsasən, həmin ərazilərdə əhalinin 54,2 faizini etnik azərbaycanlılar təşkil edirdi. Hesablamalara görə, yüz minlərlə azərbaycanlı həmin ərazilərdə deportasiya qurbanı olub. Azərbaycanlıların Ermənistana qayıdışı mədəniyyətlərarası mübadilə üçün təkan olacaq, xalqlar arasında əlaqələrin qurulmasına töhfə verəcək, Ermənistanın özündə sakinlərin rifahını yaxşılaşdıracaq, sosial inkişafa təkan verəcək. Yəni, bu prosesdən ermənilər də faydalanacaq. Bu, tarixi reallıqdır".

Sonda qeyd edək ki, Azərbaycan bu məsələlərdə prinsipial və beynəlxalq hüquqa əsaslanan mövqe nümayiş etdirir. Bakı hesab edir ki, regionda davamlı və dayanıqlı sülhün yeganə yolu tarixi ədalətin və beynəlxalq hüququn bərpasıdır. Bu isə bir neçə fundamental məsələ ilə bilavasitə bağlıdır. Birincisi, Qərbi azərbaycanlıların öz doğma torpaqlarına təhlükəsiz, ləyaqətli və beynəlxalq təminatlarla qayıdışı təmin edilməli, ikincisi, Xocalı soyqırımı beynəlxalq ictimaiyyət tərəfindən tanınmalı, bu cinayətə görə məsuliyyət daşıyan şəxslər ədalət qarşısında cavab verməlidirlər. Üçüncüsü isə Hayastan beynəlxalq hüquqa və tarixi faktlara hörmət etməli, saxtakarlıq və ictimai rəyə təsir göstərmək cəhdlərinə son qoymalıdır. Əks halda, regionda davamlı sülhün və sabitliyin təmin olunması çətinləşəcək.

*P.ƏFƏNDİYEV*
*XQ*

# Aqroparklar kənddə modern istehsal qurumudur

**Prezident İlham Əliyevin tapşırığına əsasən, ərzaq təhlükəsizliyinin təmin edilməsi, regionlarda işsizliyin aradan qaldırılması və idxaldan asılılığın azaldılması məqsədilə aqroparklar 2014-cü ildən etibarən yaradılmağa başlanıb. Mövcud qurumların fəaliyyətinə nəzarəti həyata keçirən İqtisadiyyat Nazirliyinin nəzdində İqtisadi Zonaların İnkişafı Agentliyi isə ölkədə fəaliyyət göstərən sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə dövlət başçısının 22 yanvar 2021-ci il tarixli Fərmanı ilə təsis olunub. Sözügedən agentliyin qeydiyyata aldığı 24 aqropark tərəfindən 2024-cü ildə 42,5 min hektar torpaq sahəsində əkin işləri həyata keçirilib.**

Qeyd edək ki, aqroparklar digər kənd təsərrüfatı müəssisələri kimi vergi güzəştlərindən, subsidiyalardan, güzəştli kredit və lizinqdən yararlanır. Bununla yanaşı, dövlət tərəfindən də bu sahədə mühüm dəstək tədbirləri həyata keçirilir. İqtisadi Zonaların İnkişafı Agentliyinin yaydığı məlumata görə, ötən müddətdə ölkədə aqroparkların yaradılması və ya fəaliyyətlərinin genişləndirilməsi məqsədilə, təqribən, 160 milyon manat dövlət dəstəyi göstərilib. Bununla yanaşı, Sahibkarlığın İnkişafı Fondu tərəfindən 16 aqroparkın yaradılmasına 142 milyon manat güzəştli kredit ayrılıb. Eyni zamanda, investisiya təşviqi sənədi alan 17 aqropark texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 16,5 milyon manat dəyərində güzəşt əldə edib.

Aqroparklarda istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiya münasibətləri formalaşdırılır ki, bu da kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə olunmasına əlverişli imkan yaradır. Bu müəssisələr aqrar sahədə inkişafı sürətləndirməklə yanaşı, idxaldan asılılığın azaldılmasına, eləcə də ölkənin ixrac potensialının artırılmasına və milli brendlərin yaradılmasına mühüm töhfələr verir.

Agentliyin məlumatına görə, ötən il ərzində aqroparklarda 34,1 min ton buğda, 25,5 min ton arpa, 91,8 min ton dən və silos qarğıdalı, 49,7 min ton şəkər çuğunduru, 22,4 min ton pambıq, 17,3 min ton kartof, 11,6 min ton yonca, 1,1 min ton soya, 3,5 min ton tərəvəz məhsulları, 14 min ton qüvvəli yem istehsal olunub, 18,1 min ton qarışıq meyvə yığılıb və 606 min ədəd ting əkilib. Bununla yanaşı, heyvandarlıq üzrə ixtisaslaşmış 6 aqroparkda 32,4 min ton süd və 1,3 min ton ət istehsal olunub. Bütövlükdə isə il ərzində aqroparklarda istehsal olunmuş kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 150 milyon manata yüksəlib.

Aqroparklar artıq təkcə kənd təsərrüfatı müəssisəsi deyil, həm də regionların sosial-iqtisadi dirçəlişinin əsas mərkəzinə çevrilməkdədir. Burada yaradılan yeni iş yerləri, yerli xammalın səmərəli istifadəsi, logistik imkanların genişləndirilməsi və ixrac potensialının artırılması bir sıra regionlarda həyat səviyyəsinin yüksəlməsinə real təsir göstərir.

Hazırda ölkədə müxtəlif inkişaf mərhələlərdə olan onlarla aqropark fəaliyyət göstərir. Saatlı, Xaçmaz, Şəmkir, Sabirabad, Tovuz və digər bölgələrdə yaradılmış aqroparklar əhalinin məşğulluğuna töhfə verməklə yanaşı, kənd təsərrüfatı məhsullarının sənaye üsulu ilə istehsalını genişləndirir. Aqroparklar vasitəsilə suvarma sistemləri təkmilləşdirilir, müasir texnikalar və texnologiyalar tətbiq olunur, məhsuldarlıq artırılır. Eyni zamanda emal müəssisələri vasitəsilə xammalın yerindəcə emal olunaraq bazara çıxarılması əlavə dəyər yaratmağa şərait yaradır. Bu isə həm daxili bazarın tələbatının ödənilməsində, həm də xarici bazarlara çıxış imkanlarının genişləndirilməsində mühüm rol oynayır.



Azərbaycanın iqtisadi inkişaf modelində aqrar sektorun, xüsusən də aqroparkların rolu getdikcə daha da artır. Bu sistemin davamlı inkişafı üçün gələcəkdə daha çox innovativ yanaşmalara, rəqəmsallaşmaya, su və torpaq resurslarından səmərəli istifadəyə yönəlmiş layihələrin reallaşdırılması nəzərdə tutulur. Aqroparklar, eyni zamanda, "yaşıl" iqtisadiyyat strategiyasının tərkib hissəsi olaraq ekoloji standartlara uyğun istehsalı da təşviq edir.

Prezident İlham Əliyevin iştirakı ilə iyunun 23-də reallaşan Yevlax pilot aqroparkının açılışı mərasimində iqtisadiyyat naziri Mikayıl Cabbarov yuxarıda qeyd edilənlər barədə ətraflı məlumat verərək bildirib ki, ümumi sahəsi 2,807 hektar, illik istehsal gücü 20 min tondan çox qarışıq meyvə, 20 milyon ədəd damazlıq yumurta və 1 milyon ədəd ting olan bu təsərrüfat ölkə ərazisində kiçik və orta fermerlərin cəlb olunması ilə yaradılan dövlət aqroparkıdır.

Aqropark İqtisadiyyat Nazirliyinin "Orta fermer təsərrüfatının aqrar-sənaye klasterlərinə inteqrasiyası" layihəsi çərçivəsində yaradılıb. Rezidentlər aqroparkda dövlət vəsaiti hesabına zəruri infrastrukturla – su, enerji, qaz və yolla təmin ediliblər. Onlar, həmçinin Azərbaycan Biznesinin İnkişafı Fondunun güzəştli kreditindən faydalanıblar.

Səmərəliyin artırılması üçün aqroparkda "ağıllı" idarəetmə sistemi tətbiq olunur. Bu məqsədlə əkin aparılan bağlarda iqlim stansiyaları, xüsusi kameralar və torpaq nəmlik sensorları qurulub. Aqroparkda 36 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Hazırda 21 rezident tərəfindən həyata keçirilən layihələr çərçivəsində burada meyvə, meyvə tingi, damazlıq yumurta, taxıl məhsulları istehsal olunur. Məhsulların daxili bazarla yanaşı, ixracı da nəzərdə tutulur.

Rezidentlər tərəfindən bu günədək aqroparka 57 milyon manatadək investisiya yatırılıb, 200-ə yaxın daimi, 500-ə yaxın mövsümi iş yeri yaradılıb. Aqroparkın konsepsiyasına uyğun olaraq, intensiv meyvə bağlarının salınması, heyvandarlıq, quşçuluq və əkinçilik təsərrüfatlarının, həmçinin sənaye zonasında emal sahələrinin və logistik mərkəzin yaradılması ilə özəl investisiyaların 100 milyon manata çatdırılması, 500 daimi və 1000-dən çox mövsümi iş yerinin yaradılması nəzərdə tutulub.

Ümumi ərazisi 2807 hektar ərazini əhatə edən Yevlax Pilot Aqroparkı ölkəmizdə kiçik və orta fermerlərin cəlb olunması ilə yaradılan dövlət pilot aqroparkıdır. Aqroparkın əsas fəaliyyət istqaməti kimi intensiv meyvə bağlarının salınması, heyvandarlıq, quşçuluq və əkinçilik təsərrüfatlarının, həmçinin sənaye zonasında emal sahələrinin və logistika mərkəzinin yaradılması müəyyənləşdirilib.

Yevlax Pilot Aqroparkın ümumi ərazisinin 1185 hektarı çoxillik əkinlər, 1298 hektarı birillik əkinlər, 141 hektarı sənaye zonası, 183 hektar isə kommunikasiya xətləri və mühafizə zolaqlarının təşkili üçün nəzərdə tutulub. Hazırda Aqroparkda 2352 hektar ərazi üzrə 36 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Rezidentlərə uzunmüddətli subicarəyə verilmiş 2352 ha torpaq sahəsinin 1042 hektarı çoxillik əkmələr üçün 33 rezidentə, 1298 hektarı birillik əkinlər üzrə 2 rezidentə, 11.8 hektarı isə damazlıq yumurta istehsalı fabrikinin yaradılması üçün 1 rezidentə ayrılıb.

Rezidentlər tərəfindən bu günədək aqroparka 57 milyon manatadək investisiya yatırılıb, 200-ə yaxın daimi, 500-ə yaxın mövsümi iş yeri yaradılıb. İndiyədək 21 rezident tərəfindən 600 hektar ərazidə intensiv və superintensiv meyvə bağları salınıb, 10 hektarda tingçilik təsərrüfatı yaradılıb. 2025-ci ildə Aqroparkda 606 min ədəd ting istehsal olunub və 600 tondan çox meyvə istehsalı proqnozlaşdırlıb.

Hazırda 11,8 hektar ərazidə illik istehsal gücü 20 milyon ədəd damazlıq yumurta olan quşçuluq fabriki yaradılır. Ümumi layihə dəyəri 39 milyon manat olan fabrikin yaradılması üzrə indiyədək 34 milyon manat investisiya qoyulub və nəzərdə tutulan 51 daimi iş yerindən 39-u yaradılıb.

Qeyd edək ki, regionların tarazlı inkişafı, istehsal və ixrac imkanlarının artırılması, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının önəmli istiqamətlərindən biridir. Davamlı islahatlarla investorlar üçün yaradılan əlverişli işgüzar mühit, güzəşt, imtiyaz və stimullar regionlarda müsbət iqtisadi dəyişiklikləri və nailiyyətləri gerçəkləşdirir. Elmi yanaşma, qabaqcıl texnologiya və təcrübənin tətbiqi ilə yaradılan bu cür müasir infrastruktur aqrar sahədə inkişafı sürətləndirməklə bərabər, ixracyönümlü məhsul istehsalında və ölkənin ixrac potensialının güclənməsində əhəmiyyətli rol oynayır.

Xatırladaq ki, hazırda ölkədə 9 sənaye parkı və 4 sənaye məhəlləsi fəaliyyət göstərir. Sənaye zonaları üzrə ümumi investisiya həcmi 8 milyard manatdan çox olan 170 sahibkarlıq subyektinə rezident və ya qeyri-rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 7 milyard manata yaxın investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri yaradılıb. 2015-ci ildən 2025-ci ilin I rübü də daxil olmaqla sənaye zonalarında, ümumilikdə, 16 milyard manatdan artıq məhsul satışı həyata keçirilib, bunun 5 milyard manatdan çox hissəsi ixrac edilib.

# Elektron ticarət 1,4 dəfə artıb

**Azərbaycan Banklar Assosiasiyasının (ABA) prezidenti Zakir Nuriyev ABA və Mərkəzi Bankın təşkilatçılığı ilə keçirilən "Fintex sammit 2025 – Maliyyə Texnologiyalar Sərgisi"ndə çıxışında cari ilin ilk 4 ayı üzrə ölkə daxilində elektron ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,4 dəfə artıb.**

Onun sözlərinə görə, 2025-ci il aprel ayının sonu üçün bank sektorunun vəsaitləri, təqribən, 54,6 milyard manat təşkil edir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 10,9 faiz çoxdur.

Ötən ilə nisbətdə vəsaitlərin həcmi ilə yanaşı, artım tempi də yüksəlib. Bununla birlikdə, bankların kredit portfelinin həcmi də son 12 aylıq müqayisədə 14 faiz artaraq, hesabat dövründə 28,1 milyard manata çatıb. Biznes kreditlərinin artım tempi 11 faiz olub. Beləliklə, real sektora verilən kreditlərin həcmi 15 milyard manat olmaqla, ümumi kredit portfelinin 53 faizdən böyük hissəsini əhatə edib.



Z.Nuriyev onu da əlavə edib ki, cari il aprel ayının sonuna vaxtı keçmiş kreditlərin portfeldəki payı 1,7 faiz təşkil edir. Hesabat dövründə banklardakı depozitlərin ümumi həcmi illik 3,9 faiz artaraq, 36,7 milyard manat təşkil edib. Fiziki şəxslərin əmanətlərinin həcmi isə 14,5 milyard manata bərabərdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 10,1 faiz çoxdur.

Daha ürəkaçan göstərici isə müddətli əmanətlərin həcmi ilə bağlıdır. Belə ki, 2025-ci ilin aprel ayında fiziki şəxslərin müddətli əmanətlərinin həcmi 9,1 milyard manatı ötüb ki, bu da illik müqayisədə 23,2 faiz artım deməkdir. Bu da əsasən yeni bank müştərilərinin hesabına olub.

# Pambıq əkinləri də sığortalanır

**Azərbaycanda pambıq əkini sahələrinin dövlət dəstəyi ilə sığortalanması başa çatıb. Aqrar Sığorta Fonduna nəzərdə tutulmuş vaxt ərzində müraciət etmiş fermer və təsərrüfat sahibləri pambıq sahələrini çoxsaylı risklərdən sığorta etmək imkanı qazanıblar.**

Aqrar Sığorta Fondu pambıq sahələrini dolu, fırtına, qasırğa, sel-subasma, leysan yağışları, vəhşi heyvnaların hücumları, 3-cü şəxsin hərəkətləri və sair risklərdən sığortalayır. Sığorta haqqının 50 faizinin dövlət tərəfindən ödənilməsi sayəsində fermerlər cüzi məbləğ ödəməklə sahələrinin sığorta edə bilərlər. Yeri gəlmişkən, ölkə ərazisində 1 hektar pambıq sahəsinin sığortalanması üçün sığorta haqqının məbləği məhsuldarlıq göstəricisindən asılı olaraq 15-30 manat arasında dəyişir.

Qeyd edək ki, pambıq əkən fermerlər bir neçə ildir ki, aqrar sığortadan faydalanırlar. Belə ki, 2023-cü ildə baş vermiş hadisələrə görə pambıqçılara 950 min manat sığorta ödənişi edilib. 2024-cü ilin sığorta hadisələrinə görə isə pambıq əkən fermerlərə 1,2 milyon manat zərər ödənişinin edilməsi nəzərdə tutulur. Hazırda bu ödənişlərin verilməsi davam edir.

Fermerlərin aqrar sığortaya əlçatanlığını artırmaq məqsədilə həyata keçirilən tədbirlər nəticəsində hazırda fermerlər və torpaq sahibləri, eləcə də heyvandarlıq təsərrüfatlarının nümayəndələri öz təsərrüfatlarını AsanPay ödəniş sistemi vasitəsilə evdən və iş yerindən ayrılmadan sığorta edə bilərlər. Ümumilikdə, aqrar sığortanın əhatə etdiyi məhsullarının sığorta şərtləri və tarifləri ilə Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsində "Bitkiçilik məhsulları" bölməsində ətraflı tanış olmaq mümkündür.



# Avtomobillər təmiz enerji ilə işləyir



**Bakı Dövlət Universitetinin ərazisində BDU və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin birgə tərəfdaşlığı ilə elektromobillərin bərpa olunan enerji hesabına elektrik enerjisi ilə doldurulmasını təmin edən "EkoEnerji" məntəqəsi istifadəyə verilib.**

BDU-nun rektoru Elçin Babayev açılış mərasimində çıxış edərək bildirib ki, Azərbaycanda "yaşıl" enerji, "yaşıl" iqtisadiyyat məsələlərinə dövlət səviyyəsində xüsusi önəm verilir. Bu ali təhsil ocağı da yeni yanaşma ilə sözügedən məsələdə öz töhfəsini verir. Belə bir layihə həm günəş, həm külək enerjisindən istifadə etməklə BDU əməkdaşları və tələbələri üçün təmiz ekoenerjidən istifadə imkanı yaradır.

Rektor diqqətə çatdırıb ki, "Clean-Charge" AC enerji doldurma stansiyası" adlı layihə KOBİA tərəfindən keçirilən KOB-ların təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi ilə bağlı 5-ci qrant müsabiqəsinin qalibi olub. Bu, BDU-nun KOBİA ilə elm, təhsil, innovasiya sahəsində səmərəli əməkdaşlığının nümunəsi olmaqla yanaşı, universitetin BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə əməl edilməsi istiqamətində atdığı addımlardan biridir. "EkoEnerji" məntəqəsi "yaşıl enerji"dən istifadə etməklə fəaliyyət göstərəcək, tədris prosesində də bu məntəqədən istifadə olunacaq.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov rəhbərlik etdiyi qurum üçün innovasiya yönümlü layihələrin dəstəklənməsinin prioritet olduğunu bildirib. O, eyni zamanda, KOBİA ilə BDU arasında imzalanan əməkdaşlıq memorandumu uğurla icra olunduğunu, "Clean-Charge" AC enerji doldurma stansiyasının yaradılması layihəsi üçün KOBİA tərəfindən 20 min manata yaxın qrant ayrıldığını vurğulayıb.

Layihə rəhbəri, BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin direktoru İlyas Nəsibov deyib ki, məqsəd elektrik enerjisinin bərpa olunan enerji qaynaqlarından alınması ilə karbon emissiyasının azaldılmasına xidmət etməkdir. Stansiyanın ümumi gücü 22 kv saatdır. Layihənin məqsədi elektromobillərin sürətli və ekoloji təmiz elektrik enerjisi ilə doldurulması nəticəsində sıfır karbon emissiyası ilə təbiəti qorumaq və Dayanıqlı İnkişaf Məqsədlərinə riayət etməkdir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 iyun tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün fəaliyyət planı

1. Qısa xülasə

Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Fəaliyyət Planı (bundan sonra – Fəaliyyət Planı) "Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 11 sentyabr tarixli 278 nömrəli Sərəncamının (bundan sonra – Sərəncam) 1.1-ci bəndinə əsasən hazırlanmışdır.

2018-ci ildə Azərbaycan Respublikasında peşə hazırlığının səmərəliliyinin artırılması və rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanması məqsədilə peşə təhsili sahəsində dövlət siyasətinin prinsiplərini, peşə təhsili və təlimi sisteminin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edən "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin Qanuna əsasən, "Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi" və "Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində tətbiq edilən dövlət peşə təhsili standartları" təsdiq edilmişdir.

Son dövrlərdə əmək bazarında ixtisaslı işçilərə tələbat artır. Cəzaçəkmə müəssisələrində cəzaçəkən məhkumların (bundan sonra – məhkumlar) müvafiq bilik və bacarıqlarla təmin edilərək əmək bazarında mövcud olan vakansiyalara yönəldilməsi həmin şəxslərin yenidən hüquqpozmalara meyilliyini aradan qaldırmaqla yanaşı, əmək bazarının da inkişafına töhfə vermiş olacaqdır.

Rəsmi statistikaya əsasən, Azərbaycan Respublikasında 2024-cü ildə cinayət törətmiş şəxslərin 55.6 faizi əməkqabiliyyətli yaşda olub, işləməyən və oxumayan şəxslərdir. 2023-cü ildə əməkqabiliyyətli yaşda olub, işləməyən və oxumayan şəxslər cinayət törətmiş şəxslərin 56.8 faizini, 2022-ci ildə isə 60.4 faizini təşkil etmişdir. Bu baxımdan, məhkumların islah edilməsi vasitələrindən olan peşə təhsilinin gücləndirilməsi və cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin sosial adaptasiyası tədbirlərinin, eyni zamanda onların məşğulluğunun genişləndirilməsi qarşıda duran vəzifələrdəndir.

Fəaliyyət Planı cəzaçəkmə müəssisələrində peşə təhsilinin müasir standartlara, əmək bazarında mövcud və gələcəkdə təklif ediləcək iş yerlərinə uyğun qurulması, peşə təhsili çərçivəsində təhsilalanların potensialının gücləndirilməsi, eyni zamanda cəzaçəkmə müəssisələrinin infrastrukturunun yaxşılaşdırılması, sahibkarların (işəgötürənlərin) tələbatına uyğun peşə təhsilinin təşkili və hüquqi bazanın təkmilləşdirilməsi yolu ilə cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin əmək bazarında işlə təmini üçün imkanların genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

2. Qlobal trendlər

Beynəlxalq səviyyədə aparılan tədqiqatlar göstərir ki, cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin cəmiyyətə təkrar adaptasiyası bir çox problemlərlə müşayiət olunur. Adətən, həm tədqiqatçılar, həm də hüquq mühafizə orqanları cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin cəmiyyətə reinteqrasiyasının uğurlu olub-olmamasını residivizm göstəricisinə əsasən müəyyənləşdirirlər.

2023-cü il üzrə bir sıra ölkələrin (Böyük Britaniya, İsveç, Yeni Zelandiya) bu sahədə statistikasının müqayisəli təhlili göstərir ki, cəzaçəkmə müəssisəsini tərk edənlərin təqribən 40 faizi növbəti 1 il ərzində yenidən cinayət törədərək cəzaçəkmə müəssisəsinə geri qayıtmışdır. Bu şəxslərin məhkumluğuna səbəb olan cinayətlər arasında isə mülkiyyət əleyhinə cinayətlər üstünlük təşkil etmişdir. Kriminoloji tədqiqatlara əsasən, mülkiyyət əleyhinə cinayətlərin sayının artmasının əsas göstəricisi maddi vəziyyətlə bağlı olmuşdur.

Bir sıra ölkələrdə aparılmış tədqiqatlar göstərir ki, cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin iş tapmaqda çətinlik çəkməsi onların yenidən cinayət törətməsinə səbəb olan amillərdən biridir və burada 3 əsas cəhəti: cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin şəxsi keyfiyyətlərini, cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətini və əhatə dairəsini, sahibkarların (işəgötürənlərin) həmin şəxslərə olan münasibətini qeyd etmək olar. Beynəlxalq təcrübə göstərir ki, işlə təmin olunma məhkumların cinayət törətməyə meyilliliyini aradan qaldırmaqla yanaşı, hətta onların iş axtardıqları müddətdə nümunəvi davranış sərgiləməsinə də səbəb olur.

İnkişaf etmiş bir sıra Avropa ölkələrində (Danimarka, İsveç və s.) aparılmış tədqiqatlara əsasən, məhkumlar peşə təhsilinə yiyələndikcə özlərini cəmiyyətə daha lazımlı şəxs hesab edirlər.

Cinayət törətmiş şəxslərin cinayətdən zərər çəkmiş şəxslərə vurduqları ziyanla bərabər, onların cəmiyyətə vurduqları əsas ziyan və cinayət mühakimə icraatı zamanı çəkilən xərclər dövlət büdcəsindən ayrılan vəsaitlə müəyyən edilir. Həmin şəxslərin cəzaçəkmə müəssisələrindən azadlığa buraxıldıqdan sonra müvafiq işlə təminatı isə həm vergi ödəmə baxımından büdcəyə əlavə vəsaitin daxil olmasında, həm də əmək bazarında məşğulluğun təmin edilməsində mühüm rol oynayır.

Eyni zamanda, məhkumların peşə təhsili əsasında əmək bazarına hazırlanması ilə yanaşı, bir sıra ölkələrin (Amerika Birləşmiş Ştatları, Avstraliya və Böyük Britaniya) təcrübəsi göstərir ki, sahibkarlar (işəgötürənlər) üçün bir sıra güzəştlərin müəyyən edilməsi də zəruridir.

Bəzi ölkələrdə (Avstraliya və Böyük Britaniya) sahibkarların (işəgötürənlərin) cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxsləri işə götürməyə marağını artırmaq üçün dövlət tərəfindən müxtəlif təşəbbüslər irəli sürülür. Belə təşəbbüslərə vergi güzəştlərini və digər imtiyazları aid etmək olar. Bu sahədə tətbiq edilən güzəştlər nəticəsində dünya üzrə qabaqcıl şirkətlər cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərə xüsusi proqramların tətbiqi və onların işlə təmin edilməsi üçün müvafiq addımlar atmışlar.

Belə ki, mütərəqqi təcrübə göstərir ki, bu sahədə tətbiq edilən proqramlar məhkumlara informasiya və kommunikasiya texnologiyaları (bundan sonra – İKT) sahəsində, xüsusilə kodlaşdırma üzrə proqramlar təklif edir və onları texnologiya sektorunda işə hazırlayır. Cəzaçəkmə müəssisələrində proqram metodologiyası kodlaşdırma proqramları üzrə təlimləri, daha sonra texnologiya şirkətlərində təcrübə və iş yerləri ilə təmin olunmanı əhatə edir.

3. Mövcud vəziyyətin təhlili

Azərbaycan Respublikasında 2023-cü il üzrə cinayət törətmiş şəxslərin sayı 25006, 2024-cü il üzrə isə 22485 olmuşdur. Əməkqabiliyyətli yaşda olub, işləməyən və oxumayanlar cinayət törətmiş şəxslərin daha böyük hissəsini təşkil edir (2023-cü ildə 56.8 faiz, 2024-cü ildə 55.6 faiz). Cinayətlərin törədilməsində əməkqabiliyyətli olub, işləməyən və oxumayanların yüksək faiz göstəriciləri, həmçinin yetkinlik yaşına çatmayanlar tərəfindən cinayət törədilməsi hallarının artması müvafiq hədəfli tədbirlərin tətbiqini qaçılmaz edir.

Bu baxımdan, Fəaliyyət Planı cəzaçəkmə müəssisələrində keyfiyyətli peşə təhsilinin həyata keçirilməsini aidiyyəti orqanlar qarşısında vəzifə kimi qoyur. Məhkumların əmək bacarıqlarının inkişaf etdirilməsi, eləcə də iş təcrübəsi olmayanların cəzaçəkmə dövründə təcrübə qazanması üçün bu gün ölkədəki penitensiar müəssisələrin fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılması vacibdir. Ümumiyyətlə, əmək bazarının tələbləri öyrənilməklə məhkumların uyğun peşə təhsilinə cəlb edilməsi bu şəxslərin işlə təmin olunmasına böyük töhfə verə bilər. Bir sıra tədqiqatlar göstərir ki, bu şəxslərin məşğulluğu onların cəzaçəkmə müəssisəsində olarkən işləyib-işləməməsindən, eləcə də peşə təhsili alıb-almamasından əhəmiyyətli dərəcədə asılıdır.

Hazırda Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində 76 peşə təhsili müəssisəsi fəaliyyət göstərir. Onlardan 8-i 15 cəzaçəkmə müəssisəsi üzrə təşkil edilmişdir. Pedaqoji heyəti 88 nəfərdən ibarət olan həmin peşə təhsili müəssisələrində 2024–2025-ci tədris ili üçün 59 qrupda 20 ixtisas üzrə 1167 məhkum peşə təhsilinə cəlb olunmuşdur.

Ölkədə bir qrup məhkumu əhatə edən tədqiqatlar göstərir ki, peşə təhsili almamış şəxslərin əməkhaqqı səviyyəsindən razılıq dərəcəsi və əməkhaqqı səviyyəsi peşə təhsili almış həmkarlarına nisbətdə fərqlənmir. Hazırda müəyyən peşələr üzrə kadr hazırlığının əmək bazarının tələblərinə uyğun olmaması, təhsil müəssisəsində lazımi maddi-texniki bazanın, təcrübəli təhsilverənlərin yoxluğu peşə təhsili almış şəxslərin müvafiq iş tapması üçün tam kifayət etmir. Digər səbəblərlə yanaşı, bu faktora görə də onların peşə təhsilində iştirak edib-etməməsinin azadlığa buraxıldıqdan sonra iş tapmaq ehtimalına əhəmiyyətli dərəcədə təsir göstərmədiyi güman edilir.

Ümumilikdə, bu gün cəzaçəkmə müəssisələrində təşkil edilən peşə təhsili, nəticə etibarilə, cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin iş tapmasına tam kifayət etmir. Bunun səbəbləri yalnız proqramlarla bağlı deyildir. Sahibkarların (işəgötürənlərin) münasibəti, eləcə də əmək bazarında iş tapmaq mexanizmləri kimi amillər peşə təhsili proqramları məzunlarının qazandıqları biliklərə və istədikləri sahələrə uyğun iş tapmasına maneələr yaradır.

Sahibkarlar (işəgötürənlər) müvafiq sahədə mövcud əmək bazarındakı tələbata uyğun aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlığın qurulmasında, xüsusilə tikinti, İKT və mühasibatlıq üzrə müvafiq layihələrin təşkilində maraqlı olduqlarını bildirirlər. Məhkumların zəruri bilik və bacarıqlarının sahibkarların (işəgötürənlərin) əmək bazarındakı tələbatlarına uyğun, onların iştirakı ilə qeyri-formal və informal təhsil formaları vasitəsilə təşkil edilməsinə ehtiyac olduğu aparılmış tədqiqatlarla müəyyən edilmişdir.

4. Hədəf göstəriciləri

Fəaliyyət Planının hədəf göstəriciləri cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi, əmək bazarının tələblərinə uyğunlaşdırılması, mövcud infrastrukturun təkmilləşdirilməsi, cəzaçəkmə müəssisələrində peşə təhsili almış şəxslərin azadlığa buraxıldıqdan sonra işlə təmin olunması imkanlarının genişləndirilməsi və həmin şəxslər tərəfindən yenidən cinayət törədilməsi hallarının qarşısının alınmasıdır.

5. Məqsədlər

5.1. Fəaliyyət Planının əsas məqsədləri aşağıdakılardır:

5.1.1. cəzaçəkmə müəssisələrində peşə təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılması;

5.1.2. cəzaçəkmə müəssisələrinin peşə təhsili ilə bağlı mövcud infrastrukturunun təkmilləşdirilməsi;

5.1.3. cəzaçəkmə müəssisələrində əmək bazarının tələblərinə uyğun yeni peşə təhsili infrastrukturunun formalaşdırılması;

5.1.4. cəzaçəkmə müəssisələrində peşə təhsilinə cəlb edilmiş və azadlığa buraxılmış şəxsləri işlə təmin etmiş sahibkarlar (işəgötürənlər) üçün dəstək mexanizminin formalaşdırılması;

5.1.5. cəzaçəkmə müəssisələrində peşə təhsili sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi.

6. Prioritet istiqamətlər

6.1. Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi və mövcud infrastrukturun təkmilləşdirilməsi məqsədilə aşağıdakı prioritet istiqamətlər üzrə işlər həyata keçiriləcəkdir:

6.1.1. cəzaçəkmə müəssisələrində peşə təhsili sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi**:**

• əsaslandırma**:** məhkumların işlə təmini prosesinin sürətləndirilməsi, o cümlədən cəzaçəkmə müəssisələrində onların iş imkanlarının artırılması, məhkumların işə götürülməsinə sahibkarların (işəgötürənlərin) marağının artırılması, habelə peşə təhsili həyata keçirilərkən cəzaçəkmə müəssisələrinin daxili intizam qaydalarının nəzərə alınması istiqamətində kömək göstərilməsinə ehtiyac vardır. Bu baxımdan, peşə təhsilindən yararlanmış məhkumların işlə təmini istiqamətində dövlət tərəfindən sahibkarlar (işəgötürənlər) üçün dəstək tədbirlərinin təmin edilməsi, cəzaçəkmə müəssisələrində yeni istehsalat və xidmət sahələrinin yaradılması, məhkumlara münasibətdə peşə təhsili proqramlarının cəzaçəkmə müəssisələrinin daxili qaydalarına uyğunlaşdırılması, eyni zamanda məhkumlar barədə müvafiq məlumatları (yararlandıqları peşə təhsili, əldə etdikləri təhsil sənədləri) əhatə edən vahid informasiya sisteminin yaradılması ilə bağlı müvafiq aktların hazırlanması zəruridir;

**6.1.1.2. görüləcək tədbirlər:**

6.1.1.2.1. cəzaçəkmə müəssisələrində peşə təhsilindən yararlanmış şəxslərin işlə təmini istiqamətində dövlət tərəfindən sahibkarlara (işəgötürənlərə) dəstək mexanizmlərinin formalaşdırılması;

6.1.1.2.2. peşə təhsilindən yararlanmış məhkumlara dair məlumatları (yararlandıqları peşə təhsili, əldə etdikləri təhsil sənədləri) əks etdirən vahid informasiya sisteminin yaradılması məqsədilə normativ hüquqi bazanın formalaşdırılması;

6.1.1.2.3. peşə təhsilindən yararlanmış məhkumların iş imkanlarının genişləndirilməsi üçün sahibkarlar (işəgötürənlər) tərəfindən cəzaçəkmə müəssisələrinin ərazisində yeni istehsalat və xidmət sahələrinin yaradılmasını təmin etmək məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsi;

6.1.1.2.4. məhkumlara münasibətdə peşə təhsili proqramlarının cəzaçəkmə müəssisələrinin daxili qaydalarına uyğunlaşdırılması;

**6.1.1.3. gözlənilən nəticə və nəticə indikatorları:** normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə müvafiq hüquqi aktların layihələri hazırlanacaq və təsdiq ediləcəkdir;

**6.1.1.4. gözlənilən risklər və onların neytrallaşdırılması** tədbirləri:

6.1.1.4.1. aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində çətinliklər yarana bilər. Bir sıra normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmasında gecikmələr baş verə bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

6.1.1.4.2. cəzaçəkmə müəssisələrində peşə təhsilindən yararlanmış şəxsləri işlə təmin edəcək sahibkarlar (işəgötürənlər) üçün dəstək mexanizmlərinin tətbiq edilməsi təcrübədə bir sıra sui-istifadə hallarına imkan yarada bilər. Bununla əlaqədar, müvafiq sahəvi dövlət orqanlarının (qurumlarının) iştirakı ilə işçi qrupların yaradılması və həmin dəstək tədbirlərinin müəyyən kvotalarla və şərtlərlə verilməsi imkanlarının nəzərdə tutulması ilə bağlı tədbirlər görülə bilər;

6.1.2. cəzaçəkmə müəssisələrində peşə təhsili üçün infrastrukturun, avadanlığın qurulması və təkmilləşdirilməsi:

• əsaslandırma: hazırda əmək bazarında tələbat duyulan sahələr sırasında olan İKT üzrə kadrların hazırlanması üçün cəzaçəkmə müəssisələrində zəruri və müasir infrastruktur və avadanlığın formalaşdırılması vacibdir. Bununla yanaşı, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin araşdırmaları, habelə müstəqil bazar araşdırılmaları göstərir ki, əmək bazarında əsas tələb olunan peşələrdən şirniyyatçı, aşpaz, aqronom, turizm, menecment, kibertəhlükəsizlik, data analitikası, statistika, logistika və bir sıra yüksək texnologiya sahələri üçün peşə təhsili mütəxəssislərinin hazırlanması, habelə əmək bazarının tələblərinə uyğun peşə təhsilinin formalaşdırılmasına, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi halında əmək bazarının tələblərinə uyğun sahələrdə məhkumların peşə təhsilinin davamlılığının təmin edilməsi məqsədilə zəruri infrastrukturun qurulmasına və yenilənməsinə ehtiyac vardır;

**6.1.2.2. görüləcək tədbirlər:**

6.1.2.2.1. cəzaçəkmə müəssisələrində peşə təhsili müəssisələrinin infrastrukturunun, avadanlığının qurulması və yenilənməsi;

6.1.2.2.2. cəzaçəkmə müəssisələrində yeni peşə təhsili müəssisələrinin tikintisi;

**6.1.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. əmək bazarının tələblərinə uyğun infrastrukturun, avadanlığın qurulması və yenilənməsi təmin olunacaqdır;

6.1.2.3.2. məhkumların peşə təhsilinin həyata keçirilməsi məqsədilə cəzaçəkmə müəssisələrində peşə təhsili müəssisələrinin yaradılması təmin olunacaqdır;

**6.1.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması** tədbirləri:

6.1.2.4.1. infrastruktur təminatının yaxşılaşdırılması üçün kifayət qədər maliyyə vəsaitinə ehtiyac vardır və həmin məsrəflərin qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bununla əlaqədar sahibkarlarla (işəgötürənlərlə) sıx əməkdaşlıq qurulması yolu ilə işlərin davam etdirilməsi, eləcə də Fəaliyyət Planının 7-ci hissəsində qeyd olunan digər mənbələr hesabına maliyyələşdirmənin aparılması üçün tədbirlər görülə bilər;

6.1.3. məhkumlar üçün peşə təhsilinin səmərəli təşkil edilməsi və keyfiyyətinin yüksəldilməsi məqsədilə institusional tədbirlərin həyata keçirilməsi:

**6.1.3.1.** əsaslandırma**:** peşə təhsilinin səmərəli təşkil edilməsi və keyfiyyətinin yüksəldilməsi üçün müvafiq sahələr (müasir nəqliyyat vasitələrinin, o cümlədən elektrik mühərrikli nəqliyyat vasitələrinin təmiri, qrafik dizayner, İKT və s. sahələr) üzrə peşə təhsilinin aparılması məqsədilə həmin sahələrdə ixtisaslaşmış mütəxəssislərin dəvət olunması, həmçinin peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi, məhkumların əməyə marağının artırılması, peşə təhsili alan məhkumların ixtisaslarına uyğun iş imkanları və karyera perspektivləri baxımından istiqamətləndirilməsi, peşə təhsili almış məhkumların psixoloji vəziyyətinin öyrənilməsi, məhkumların azadlığa buraxıldıqdan sonra əmək bazarında tələb olunan müvafiq sahələr üzrə peşə təhsilini təsdiq edən sənədlərə və əmək bazarında sahibkarlar (işəgötürənlər) tərəfindən üstünlük verilən peşələrə sahib olması, məhkumların peşə fəaliyyətinə, peşə təhsili prosesinə cəlb edilməsi zamanı onların bilik və bacarıqlarına uyğun sahələrə yönəldilməsi ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsi zəruridir. Eyni zamanda, qeyd olunan tədbirlərin effektiv təşkili üçün peşə təhsili prosesinin keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi də vacibdir.

**6.1.3.2. görüləcək tədbirlər:**

6.1.3.2.1. peşə təhsili prosesinə kənar psixoloqların, karyera məsləhətçilərinin, peşə təhsili üçün zəruri bilik, bacarıq və səriştələrə sahib kənar mütəxəssislərin cəlb edilməsi məqsədilə tədbirlər görülməsi;

6.1.3.2.2. peşə təhsili prosesinə cəlb ediləcək kənar psixoloqların, karyera məsləhətçilərinin və peşə təhsili üçün zəruri bilik, bacarıq və səriştələrə sahib kənar mütəxəssislərin əməyinin ədalətli ödənilməsi məqsədilə təkliflər hazırlanması;

6.1.3.2.3. peşə təhsili müəssisələrində pedaqoji heyətin sosial müdafiəsinin gücləndirilməsi;

6.1.3.2.4. peşə təhsili müəssisələrində pedaqoji heyətin bilik və bacarıqlarının artırılması məqsədilə sistemli tədbirlər həyata keçirilməsi;

6.1.3.2.5. peşə fəaliyyətinə və peşə təhsilinə cəlb edilməsi üçün məhkumların bilik və bacarıqlarının qiymətləndirilməsi mexanizminin formalaşdırılması və tətbiqi;

6.1.3.2.6. sahibkarların (işəgötürənlərin) iştirakı ilə müvafiq sahələr üzrə peşə təhsili və təlim proqramlarının həyata keçirilməsi;

6.1.3.2.7. peşə təhsili prosesinin keyfiyyətinə nəzarət mexanizminin təkmilləşdirilməsi;

**6.1.3.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. karyera məsləhətçilərinin, kənar psixoloq və mütəxəssislərin peşə təhsili prosesinə cəlb olunması təmin ediləcəkdir;

6.1.3.3.2. karyera məsləhətçiləri, kənar psixoloq və mütəxəssislərin əməyinin ödənilməsində effektiv mexanizm müəyyən ediləcəkdir;

6.1.3.3.3. pedaqoji heyətin sosial müdafiəsinin yaxşılaşdırılması təmin olunacaqdır;

6.1.3.3.4. müasir dövrün tələblərinə cavab verən pedaqoji heyətin formalaşdırılması təmin ediləcəkdir;

6.1.3.3.5. məhkumların peşə fəaliyyətinə və peşə təhsilinə cəlb edilməsi zamanı onların bilik və bacarıqlarının qiymətləndirilməsinin nəticələri nəzərə alınacaqdır;

6.1.3.3.6. məhkumların işlə təmin olunma imkanlarının genişləndirilməsinə nail olunacaqdır;

6.1.3.3.7. peşə təhsili prosesində keyfiyyətə nəzarət mexanizminin effektiv təşkili təmin ediləcəkdir;

**6.1.3.4. gözlənilən risklər və onların neytrallaşdırılması** tədbirləri:

6.1.3.4.1. peşə təhsili prosesinə cəlb ediləcək karyera məsləhətçiləri, kənar psixoloq və mütəxəssislər üçün ədalətli ödəniş sisteminin yaradılması zamanı maliyyə vəsaitinin təmin edilməsində çətinliklər mövcud ola bilər. Bu vəsaitin Fəaliyyət Planının 7-ci hissəsində qeyd olunan mənbələr hesabına, o cümlədən cəzaçəkmə müəssisələrində peşə təhsili çərçivəsində əməkdaşlığa cəlb ediləcək sahibkarlar (işəgötürənlər) tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulur;

6.1.3.4.2. karyera məsləhətçilərinin, kənar psixoloq və mütəxəssislərin tapılmasında və ya həmin şəxslərin əsas iş yerlərindən asudə vaxtlarının müəyyənləşdirilməsində çətinliklər mövcud ola bilər. Bu zaman əməkdaşlıq müqavilələri imzalanaraq, sahibkarlar (işəgötürənlər) öz tələbatına uyğun gələcək işçilərin hazırlanmasını və müəyyən işlərin müəssisələrdə həmin məhkumlar tərəfindən həyata keçirilməsini təşkil edə bilərlər. Bununla yanaşı, həmin şəxslərin göstərdikləri xidmətlər onlayn qaydada həyata keçirilə bilər;

6.1.3.4.3. məhkumların bilik və bacarıqlarının qiymətləndirilməsində uğurlu metod və metodologiyadan istifadə edilməməsi onların cəlb ediləcəyi peşə təhsili və peşə fəaliyyəti üçün səmərəli olmaya bilər. Bu baxımdan, həmin şəxslərin bilik və bacarıqlarının düzgün qiymətləndirilməsi üçün müvafiq mexanizmin işlənilib hazırlanması nəzərdə tutulur;

6.1.3.4.4. əmək bazarında və sahibkarlar (işəgötürənlər) tərəfindən üstünlük verilən peşə təhsili və təlim proqramlarının cəzaçəkmə müəssisələrində məhkumların bilik və bacarıqları baxımından tətbiqində çətinliklər mövcud ola bilər. Buna görə peşə təhsilinə marağı olan məhkumların həmin sahələr üzrə zəruri bilik və bacarıqlarının əvvəlcədən qiymətləndirilməsi və tədris proseslərinin qiymətləndirilmə nəticələrinə əsasən təşkil edilməsi zəruridir;

6.1.3.4.5. əmək bazarında üstünlük verilən təlim proqramlarının maliyyələşməsində çətinliklər mövcud ola bilər. Odur ki, bu fəaliyyətin sahibkarların (işəgötürənlərin) və maraqlı tərəflərin maliyyə vəsaiti hesabına təmin edilməsi və peşə təhsili almış, təlim keçmiş şəxslərin azadlığa buraxıldıqdan sonra maliyyələşməni təmin edənlər tərəfindən işlə təmin edilməsi nəzərdə tutulur. Sahibkarların (işəgötürənlərin) və digər maraqlı tərəflərin vəsaiti peşə təhsili və təlim proqramlarının təşkili üçün kifayət etmədikdə, maliyyələşmənin Fəaliyyət Planının 7-ci hissəsində qeyd olunan digər mənbələr hesabına təmin edilməsi nəzərdə tutulur;

6.1.3.4.6. peşə təhsilinin keyfiyyətinə nəzarət mexanizminin təkmilləşdirilməsi zamanı aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində çətinliklər yarana bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

6.1.4. peşə təhsilinə cəlb edilmiş məhkumların cəzaçəkmə müəssisələrində ödənişli fəaliyyətə cəlb edilməsi ilə bağlı mexanizmin hazırlanması:

• əsaslandırma: peşə təhsilinə cəlb edilmiş məhkumların haqqı ödənilən fəaliyyətə cəlb edilməsi onların islah edilməsində və azadlığa buraxıldıqdan sonra əmək bazarında asanlıqla iş tapmasında əhəmiyyətli rol oynaya bilər;

**6.1.4.2. görüləcək tədbirlər:**

6.1.4.2.1. peşə təhsilinə cəlb edilmiş məhkumların əməkdaşlıq çərçivəsində cəzaçəkmə müəssisələrində sahibkarların (işəgötürənlərin) və ya maraqlı tərəflərin layihələrində ödənişli fəaliyyətə cəlb edilməsi;

6.1.4.2.2. peşə təhsilinə cəlb edilmiş məhkumların əmək bazarına çıxışını təmin edən müvafiq informasiya sisteminin yaradılması;

**6.1.4.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. məhkumların əmək bazarına hazırlanması təmin olunacaqdır;

6.1.4.3.2. məhkumların xidmətlərinin və istehsal etdikləri məhsulların satışı həyata keçiriləcəkdir;

**6.1.4.4. gözlənilən risklər və onların neytrallaşdırılması** tədbirləri:

6.1.4.4.1. sahibkarların (işəgötürənlərin) və maraqlı tərəflərin cəzaçəkmə müəssisələrində əməyə cəlb edilmiş şəxslərin əməyinin ödənilməsinə marağı aşağı ola bilər. Bu baxımdan həmin şəxslərlə təşviqedici iş aparılması və müvafiq stimullaşdırma tədbirlərinin həyata keçirilməsi bu risklərin aradan qaldırılmasında əhəmiyyətli ola bilər;

6.1.4.4.2. dövlət tərəfindən hazırlanmış layihələr çərçivəsində cəzaçəkmə müəssisələrində haqqı ödənilən fəaliyyətə cəlb edilmiş məhkumların əməyinin ödənilməsi mənbələrində vəsaitin təmin edilməsində çətinliklər ola bilər. Bu vəsaitin Fəaliyyət Planının 7-ci hissəsində qeyd olunan mənbələr hesabına maliyyələşdirilməsi mümkündür;

6.1.5. cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin işlə təmini ilə bağlı birgə fəaliyyətin təşkili və məlumatlandırma:

**6.1.5.1.** əsaslandırma: cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin işə götürülməsində əsas problemlərdən biri cəmiyyətdə formalaşmış müəyyən narahatlıqlardır ki, bəzi sahibkarlar (işəgötürənlər) buna görə həmin şəxsləri işə götürməkdən çəkinirlər. Onlar barəsində cəmiyyətdə mövcud olan mənfi fikirlərin aradan qaldırılması əmək bazarında mövcud vakansiyaların komplektləşdirilməsinə yardımçı olmaqla yanaşı, cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin yenidən cinayət törətməsinin qarşısını almağa və onların islah olunmasına kömək edə bilər;

**6.1.5.2. görüləcək tədbirlər:**

6.1.5.2.1. cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxsləri işə götürən şəxslərin müsbət təcrübələri ilə bağlı məlumatların hazırlanması, mediada yayımlanması və müvafiq tədbirlərin (sərgilərin və s.) təşkil edilməsi;

6.1.5.2.2. cəzaçəkmə müəssisələrindən azad edilmiş və uğurlu iş təcrübəsi olan şəxslərin mediada sosial xarakterli paylaşımlarının edilməsi və aidiyyəti orqanların (qurumların) nümayəndələrinin, sahibkarların (işəgötürənlərin) iştirakı ilə görüşlər təşkil edilməsi;

6.1.5.2.3. cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin **işlə təmini ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;**

**6.1.5.3. gözlənilən nəticə və nəticə indikatorları:** məhkumların azadlığa buraxıldıqdan sonra işə götürülməsində **mövcud olan maneələrin minimuma endirilməsi və tədricən aradan qaldırılması təmin** olunacaqdır;

**6.1.5.4. gözlənilən risklər və onların neytrallaşdırılması** tədbirləri: bəzi kateqoriya cinayətlərə görə məhkumluğu olan şəxslərin işə qəbul edilməsində mövcud yanaşmaların aradan qaldırılması vaxt baxımından uzun müddət tələb edə bilər. Lakin aidiyyəti orqanların (qurumların) iştirakı ilə sahibkarlarla (işəgötürənlərlə) bu sahədə sıx əməkdaşlıq təmin edilməklə və mediada sosial xarakterli reklamların yayımlanması yolu ilə bu çətinlik aradan qaldırıla bilər.

7. Fəaliyyət Planının maliyyələşdirilməsi

Fəaliyyət Planında qeyd olunan tədbirlərin icrasının təmin edilməsi üçün tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait, büdcədənkənar vəsait, kredit və qrantlar, hüquqi və fiziki şəxslərin ianələri, eləcə də qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

**(ardı 12-ci səhifədə)**

# Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün fəaliyyət planı

## 8. Fəaliyyət Planının həyata keçirilməsinə dair Tədbirlər Planı

| № | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti (illər üzrə) | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| [illegible]əzaçəkmə müəssisələrində peşə təhsili sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi | | | | | | | |
| [illegible] | Cəzaçəkmə müəssisələrində peşə təhsilindən yararlanmış şəxslərin işlə təmini istiqamətində dövlət tərəfindən sahibkarlara (işəgötürənlərə) dəstək mexanizmlərinin formalaşdırılması | NK | ƏN, ƏƏSMN, İN, MN | [illegible] | Müvafiq mexanizmlərin yaradılması ilə bağlı normativ hüquqi akt layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi akt layihələrinin təsdiq üçün aidiyyəti üzrə təqdim olunması |
| [illegible] | Peşə təhsilindən yararlanmış məhkumlara dair məlumatları əks etdirən (yararlandıqları peşə təhsili, əldə etdikləri təhsil sənədləri) vahid informasiya sisteminin yaradılması məqsədilə normativ hüquqi bazanın formalaşdırılması | NK | ƏN, ETN, ƏƏSMN | [illegible] | Vahid informasiya sisteminin fəaliyyətini tənzimləyən normativ hüquqi akt layihəsinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihəsinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması və təsdiq üçün aidiyyəti üzrə təqdim olunması | Vahid informasiya sisteminin istifadəyə verilməsi, həmin informasiya sisteminin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya sistemlərinə inteqrasiyasının təmin edilməsi |
| [illegible] | Peşə təhsilindən yararlanmış məhkumların iş imkanlarının genişləndirilməsi üçün sahibkarlar (işəgötürənlər) tərəfindən cəzaçəkmə müəssisələrinin ərazisində yeni istehsalat və xidmət sahələrinin yaradılması məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsi | NK | ƏN, ƏƏSMN, İN, ASK | [illegible] | Yeni istehsalat və xidmət sahələrinin yaradılması imkanlarının araşdırılması və bu istiqamətdə müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi akt layihələrinin təsdiq üçün aidiyyəti üzrə təqdim olunması |
| [illegible] | Məhkumlara münasibətdə peşə təhsili proqramlarının cəzaçəkmə müəssisələrinin daxili qaydalarına uyğunlaşdırılması | ETN | ƏN | [illegible] | Peşə təhsili proqramlarının cəzaçəkmə müəssisələrinin daxili qaydalarına uyğunlaşdırılması ilə bağlı müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi akt layihələrinin təsdiq üçün aidiyyəti üzrə təqdim olunması |
| [illegible]əzaçəkmə müəssisələrində peşə təhsili üçün infrastrukturun, avadanlığın qurulması və təkmilləşdirilməsi | | | | | | | |
| [illegible] | Cəzaçəkmə müəssisələrində peşə təhsili müəssisələrinin infrastrukturunun, avadanlığının qurulması və yenilənməsi | ƏN | ETN, ƏƏSMN, İN, ASK | [illegible] | İnfrastrukturun, avadanlığın qurulmasına və yenilənməsinə ehtiyac olan peşə təhsili müəssisələrinin müəyyən edilməsi | Qurulması və yenilənməsi nəzərdə tutulan infrastruktur və avadanlıq barədə təkliflər hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Əmək bazarının tələblərinə uyğun infrastrukturun, avadanlığın qurulması və yenilənməsi |
| [illegible] | Cəzaçəkmə müəssisələrində yeni peşə təhsili müəssisələrinin tikilməsi | ƏN | ETN, İN | [illegible] | Yeni yaradılacaq peşə təhsili müəssisələri və onların əraziləri barədə təkliflər hazırlanması | Layihələndirmə sənədlərinin hazırlanması və peşə təhsili müəssisələrinin tikilməsi | Məhkumların peşə təhsilinin təmini məqsədilə cəzaçəkmə müəssisələrində peşə təhsili müəssisələrinin yaradılması |
| 8.3. Məhkumlar üçün peşə təhsilinin səmərəli təşkili və keyfiyyətinin yüksəldilməsi məqsədilə institusional tədbirlərin həyata keçirilməsi | | | | | | | |
| [illegible] | Peşə təhsili prosesinə karyera məsləhətçilərinin, kənar psixoloqların, habelə peşə təhsili üçün zəruri bilik, bacarıq və səriştələrə sahib kənar mütəxəssislərin cəlb edilməsi üçün tədbirlər görülməsi | ƏN | ETN | Mütəmadi | Peşə təhsili prosesinə cəlb ediləcək karyera məsləhətçilərinə, kənar psixoloq və mütəxəssislərə tələbatın müəyyən edilməsi | Peşə təhsili prosesinə cəlb ediləcək karyera məsləhətçilərinin, kənar psixoloq və mütəxəssislərin müəyyən olunması | Karyera məsləhətçilərinin, **kənar psixoloq** və mütəxəssislərin peşə təhsili prosesinə cəlb olunmasının təmin edilməsi |
| [illegible] | Peşə təhsili prosesinə cəlb olunacaq kənar psixoloqların, karyera məsləhətçilərinin və peşə təhsili üçün zəruri bilik, bacarıq və səriştələrə sahib kənar mütəxəssislərin əməyinin ədalətli ödənilməsi üçün təkliflər hazırlanması | NK | ƏƏSMN, MN, ƏN, ETN, ASK | [illegible] | Kənar psixoloqların, karyera məsləhətçilərinin **və** mütəxəssislərin əməyinin ədalətli ödənilməsi ilə bağlı təkliflərin hazırlanması və razılaşdırılması | Razılaşdırılmış təkliflərin aidiyyəti üzrə təqdim olunması və qəbul edilməsi | Kənar psixoloqların, karyera məsləhətçilərinin **və** kənar mütəxəssislərin əməyinin ödənilməsində effektiv mexanizmin müəyyən edilməsi |
| [illegible] | Peşə təhsili müəssisələrində pedaqoji heyətin sosial müdafiəsinin gücləndirilməsi | ƏN | ETN, ƏƏSMN, MN | [illegible] | Pedaqoji heyətin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində təkliflər hazırlanması | Pedaqoji heyətə tələbat və onların hazırlıq səviyyəsi nəzərə alınmaqla stimullaşdırıcı tədbirlərin tətbiqi | Pedaqoji heyətin sosial müdafiəsinin yaxşılaşdırılması |
| [illegible] | Peşə təhsili müəssisələrində pedaqoji heyətin bilik və bacarıqlarının artırılması məqsədilə sistemli tədbirlərin həyata keçirilməsi | ETN | ƏN | Mütəmadi | Pedaqoji heyətin bilik və bacarıqlarının artırılmasına ehtiyac olan sahələrin müəyyən edilməsi | Pedaqoji heyət üçün bilik və bacarıqlarının artırılmasına ehtiyac olan sahələr üzrə təlimlərin keçirilməsi | Müasir dövrün tələblərinə cavab verən pedaqoji heyətin formalaşdırılması |
| [illegible] | Peşə fəaliyyətinə və peşə təhsilinə cəlb edilməsi üçün məhkumların bilik və bacarıqlarının qiymətləndirilməsi mexanizminin formalaşdırılması və tətbiqi | ƏN | ETN, ƏƏSMN | Mütəmadi | Müvafiq sahədə beynəlxalq təcrübə öyrənilməklə məhkumların bilik və bacarıqlarının qiymətləndirilmə-sinə dair effektiv üsulların müəyyən edilməsi | Məhkumlar cəzaçəkmə müəssisələrinə daxil olduqdan sonra onların bilik və bacarıqlarını təsdiq edən sənədlər olduğu təqdirdə həmin sənədlərin toplanması, habelə onların bilik və bacarıqlarının qiymətləndirilməsi mexanizminə uyğun yoxlamalar aparılması | Məhkumların peşə fəaliyyətinə və peşə təhsilinə cəlb edilməsi zamanı qiymətləndirmə nəticələrinin nəzərə alınması |
| [illegible] | Sahibkarların (işəgötürənlərin) iştirakı ilə müxtəlif sahələr üzrə peşə təhsili və təlim proqramlarının həyata keçirilməsi | ƏN | ETN, ƏƏSMN, ASK | [illegible] | Əmək bazarının tələbləri nəzərə alınmaqla cəzaçəkmə müəssisələrində peşə təhsili və təlim proqramları təşkil ediləcək sahələrə dair təkliflər hazırlanması | Peşə təhsili və təlim proqramlarının həyata keçirilməsi üçün sahibkarlarla (işəgötürənlərlə) əməkdaşlığın formalaşdırılması | Məhkumların işlə təmin olunma imkanlarının genişləndirilməsi |
| [illegible] | Peşə təhsili prosesinin keyfiyyətinə nəzarət mexanizminin təkmilləşdirilməsi | ETN | ƏN | [illegible] | Peşə təhsili prosesinin keyfiyyətinə nəzarət mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması | Peşə təhsili prosesinə mütəmadi nəzarətin həyata keçirilməsi və hesabatlılığın artırılması | Peşə təhsili prosesinin keyfiyyətinə nəzarət mexanizminin effektiv təşkili |
| 8.4. Peşə təhsilinə cəlb edilmiş məhkumların cəzaçəkmə müəssisələrində ödənişli fəaliyyətə cəlb edilməsi mexanizminin hazırlanması | | | | | | | |
| [illegible] | Peşə təhsilinə cəlb edilmiş məhkumların əməkdaşlıq çərçivəsində cəzaçəkmə müəssisələrində sahibkarların (işəgötürənlərin) və ya maraqlı tərəflərin layihələrində ödənişli fəaliyyətə cəlb edilməsi | ƏN | İN, ƏƏSMN, ASK | [illegible] | Məhkumların cəzaçəkmə müəssisələrində sahibkarların (işəgötürənlərin) və ya maraqlı tərəflərin layihələrində ödənişli fəaliyyətə cəlb edilməsi prosesini tənzimləyən mexanizmin hazırlanması | Hazırlanmış təkliflərin razılaşdırılması, qəbul edilməsi və tətbiqinə başlanılması | Məhkumların əmək bazarına hazırlanması |
| [illegible] | Peşə təhsilinə cəlb edilmiş məhkumların əmək bazarına çıxışını təmin edən müvafiq informasiya sisteminin yaradılması | ƏN | ƏƏSMN, MEDİA, AvŞ, ASK | [illegible] | Məhkumların xidmətlərini və istehsal etdikləri məhsulları təqdim edə biləcəyi informasiya sisteminə dair təkliflər hazırlanması | Müvafiq informasiya sisteminin istifadəyə verilməsi və məhkumların xidmətlərinin və istehsal etdikləri məhsulların geniş ictimaiyyət üçün əlçatanlığının təmin edilməsi, mediada həmin informasiya sistemi ilə bağlı materialların yayımlanması | Məhkumların xidmətlərinin və istehsal etdikləri məhsulların satışının həyata keçirilməsi |
| 8.5. Cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin işlə təmini ilə bağlı birgə fəaliyyətin təşkili və məlumatlandırma | | | | | | | |
| [illegible] | Cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxsləri işə götürən şəxslərin müsbət təcrübələri ilə bağlı məlumatların hazırlanması, müvafiq tədbirlərin (sərgilərin və s.) təşkili | ƏN | ƏƏSMN, ASK, YİH, AHİK, Media | Mütəmadi | Cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxsləri işə götürən şəxslərin müəyyən edilməsi | Cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxsləri işə götürən şəxslərin müsbət təcrübələri ilə bağlı məlumatların hazırlanması, mediada yayımlanması, müvafiq tədbirlərin (sərgilərin və s.) təşkil edilməsi | Məhkumların azadlığa buraxıldıqdan sonra işə götürülməsində mövcud olan maneələrin minimuma endirilməsi və tədricən aradan qaldırılması |
| [illegible] | Cəzaçəkmə müəssisələrindən azad edilmiş və uğurlu iş təcrübəsi olan şəxslərin mediada sosial xarakterli paylaşımlarının edilməsi və aidiyyəti orqanların (qurumların) nümayəndələrinin, sahibkarların (işəgötürənlərin) və maraqlı tərəflərin iştirakı ilə görüşlərin təşkil edilməsi | ƏN | ƏƏSMN, ASK, YİH, AHİK, Media | Mütəmadi | Cəzaçəkmə müəssisələrindən azad edilmiş və uğurlu iş təcrübəsi olan şəxslərin müəyyən edilməsi | Sosial xarakterli paylaşımların hazırlanması, mediada yayımlanması, və müvafiq görüşlərin təşkil edilməsi | Məhkumların azadlığa buraxıldıqdan sonra işə götürülməsində mövcud olan maneələrin minimuma endirilməsi və tədricən aradan qaldırılması |
| [illegible] | Cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin işlə təmini ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | ƏN | ƏƏSMN, ASK, YİH, AHİK, Media | Mütəmadi | Vətəndaş cəmiyyəti institutlarının nümayəndələri cəlb edilməklə, cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin işə götürülməsinə münasibətlərin öyrənilməsi məqsədilə müxtəlif iş yerlərində işəgötürənlər və işçilər arasında sorğular keçirilməsi | İşəgötürənlər və işçilər arasında cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərə qarşı müsbət fikrin formalaşdırılması ilə bağlı tədbirlərin təşkili | Məhkumların azadlığa buraxıldıqdan sonra işə götürülməsində mövcud olan maneələrin minimuma endirilməsi və tədricən aradan qaldırılması |

| AKRONİMLƏR VƏ İXTİSARLAR | |
|---|---|
| NK | Azərbaycan Respublikasının Nazirlər Kabineti |
| ƏN | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi |
| ETN | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi |
| ƏƏSMN | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| MN | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi |
| İN | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi |
| ASK | Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası |
| Media | Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi |
| AvŞ | Azərbaycan Respublikasının Audiovizual Şurası |
| YİH | Yerli icra hakimiyyəti orqanları |
| AHİK | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası |

# Zəmanənin üz qarası – neokolonializm

*Müstəmləkə zülmü çəkənlərin haqq səsi yenə Bakıdan ucalır*






**Fransa dünyanın müxtəlif qitələrində əraziləri işğal edərək, həmin bölgələrin təbii sərvətlərini və insan resurslarını istismar edib. Əgər XIX və XX əsrin ilk yarısında bu siyasət açıq və silahlı işğal formasında həyata keçirilirdisə, İkinci Dünya müharibəsindən sonra dünya nizamında baş verən dəyişikliklər vəziyyəti dəyişdirdi. Birləşmiş Millətlər Təşkilatının (BMT) yaranması və onun nizamnaməsi və xüsusilə “Xalqların öz müqəddəratını təyinetmə hüququ” prinsipi birbaşa olaraq keçmiş müstəmləkə xalqlarının azadlıq və müstəqillik tələblərinə hüquqi əsas yaratdı. Bu, dünyanın bir çox bölgəsində kütləvi azadlıq hərəkatlarının və müstəqillik mübarizələrinin sürətlənməsinə səbəb oldu. Lakin müstəmləkəçilik formal olaraq başa çatsa da, reallıqda Fransa kimi dövlətlər yeni, gizli və məkrli bir siyasət forması – neokolonializmi həyata keçirirdilər. Bu isə dünyanın müxtəlif nöqtələrində narazılıqların yaranmasına səbəb olur.**

Bu narazılığın növbəti nümunəsi Bakı Təşəbbüs Qrupu (BTQ), Qvadelupun Azadlığı Uğrunda Xalq Birliyi (UPLG), Qvadelup Beynəlxalq Təzminatlar Hərəkatı (MIR-Guadeloupe), Qaradərili Xalqların Beynəlxalq Komitəsi (CIPN) və Qvadelup Millətinin Yaranması naminə Güc Hərəkatının (FKNG) birgə təşkilatçılığı ilə Bakıda keçirilən “Qvadelupun dekolonizasiyasına doğru! Çağırışlar və perspektivlər” adlı beynəlxalq konfrans oldu. Tədbir həm Fransa müstəmləkəçiliyinə qarşı mübarizənin, həm də Qvadelup xalqının öz müqəddəratını təyinetmə hüququ uğrunda apardığı ədalətli mübarizənin beynəlxalq gündəmə çıxarılması baxımından əlamətdardır. Tədbirin əsas məqsədi Fransa tərəfindən Qvadelupa tətbiq olunan müstəmləkə siyasətini ifşa etmək, bu istiqamətdə beynəlxalq hüquqi mexanizmlərin tətbiqinə çağırış idi.

*

Konfransda diqqətçəkən məqamlardan biri Beynəlxalq Təzminat Hərəkatı və Qaradərili Xalqların İttifaqı Komitəsinin yaradıcı üzvü Luk Reyinetin çıxışı oldu. O, Fransanın yüzilliklərdir davam edən müstəmləkəçi-istismarçı siyasətini sərt şəkildə tənqid edərək bildirdi ki, Paris bu gün də müstəmləkə keçmişi ilə üzləşməkdən və üzr istəməkdən yayınır, əvəzində isə öz istismarçı siyasətini davam etdirməyə çalışır. Tədbirdə Qvadelupun hələ də Fransanın dənizaşırı departamenti statusunda saxlanılmasının adanın yerli əhalisinin siyasi gələcəyini sərbəst müəyyən etmək hüququnu məhdudlaşdırdığı vurğulandı. Bildirildi ki, bu status, əslində, müstəmləkəçiliyin müasir formada davamına xidmət edir. Nəticədə, ada sakinləri ciddi sosial və iqtisadi problemlərlə üzləşirlər. İşsizlik səviyyəsinin yüksək olması, gənclərin kütləvi şəkildə miqrasiyası, sosial bərabərsizliyin dərinləşməsi, iqtisadi asılılıq, zorakılığın artması və ətraf mühitin çirklənməsi Qvadelup əhalisinin gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib. Burda insanların təbii ehtiyacları, ən əsası isə insan hüquqları təmin edilmir.

Konfrans iştirakçıları Qvadelup xalqının öz müqəddəratını təyin etmək hüququnun beynəlxalq təşkilatların gündəliyinə çıxarılmasının vacibliyini qeyd etdilər. Bu xüsusda BMT-nin dekolonizasiya ilə bağlı mövcud hüquqi mexanizmlərinin və müstəmləkə altında olan xalqlara müstəqillik verilməsi ilə bağlı qətnamələrinin Fransa tərəfindən açıq şəkildə pozulduğu vurğulandı. Port-Luis bələdiyyə məclisinin üzvü Viktor Arten konfransda çıxışı zamanı Qvadelupun real siyasi və iqtisadi müstəqilliyinin hələ də təmin olunmadığını xatırlatdı: “Kənd təsərrüfatımız, ticarət əlaqələrimiz və ümumilikdə, iqtisadiyyatımız zəifllədilir. Nəticədə iqtisadiyyatımız getdikcə daha çox idxaldan asılı vəziyyətə düşür”. V.Artenin fikrincə, Qvadelupun inkişafının və rifahının açarı iqtisadi və siyasi suverenliyin əldə olunmasındadır: “Biz hüquqi və büdcə baxımından Fransadan uzaqlaşıb, bütün sahələrimizi yenidən qurmalıyıq. Sazişləri yenidən tərtib etməli, bütün sahələrdə müstəqil olmağa çalışaraq, qlobal arenada hərəkətə keçməliyik. Əgər biz asılılıqdan, yoxsulluqdan çıxmaq istəyiriksə, öz müqəddəratını təyinetmə hüququmuz uğrunda ciddi mübarizə aparmalıyıq”.

*

“Bu gün Fransa neokolonializm siyasəti həyata keçirir. Keçmiş müstəmləkə və dənizaşırı departamentləri iqtisadi, siyasi və hərbi cəhətdən asılı vəziyyətdə saxlamağa çalışır. Bu məqsədlə müxtəlif mexanizmlərdən istifadə edir. Özünə loyal hökumətləri dəstəkləməklə onların vasitəsilə regionda siyasi mövqeyini qoruyur”. Bu sözləri çıxışında **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Mətin Məmmədli** dedi. O, XQ-yə açıqlamasında onu da qeyd etdi ki, İkinci Dünya müharibəsindən sonra müstəmləkəçilik beynəlxalq hüquq səviyyəsində qəbulolunmaz siyasət elan edilsə də, Fransa kimi dövlətlər müxtəlif formalarda bu siyasəti davam etdirir: “Bundan başqa, onları öz maliyyə zonasında saxlamaqla, əmtəə bazarlarına və strateji resurslara nəzarət edir. Eyni zamanda, Fransa şirkətlərinin inhisarçılıq mövqeləri ilə dövlətləri və müstəmləkə ərazilərini iqtisadi baxımdan özündən asılı vəziyyətdə saxlayır. Bu azmış kimi, mədəni və dil asılılığı təsirsiz ötüşmür. Fransız dili və mədəniyyəti üzərində formalaşan “yumşaq güc” siyasəti vasitəsilə Fransa keçmiş müstəmləkələrdə ideoloji və mədəni təsirini qoruyub saxlamağa çalışır. Ümumiyyətlə, Fransa həmişə müstəmləkə siyasətinə hüquqi don geyindirmək, onu daha da gücləndirmək üçün fərqli üsullar tapır”.

XXI əsrin reallığında xalqların artıq müstəmləkə siyasətinə qarşı açıq mövqe sərgilədiyini, azadlıqlarını və resurslarını qorumaq üçün mübarizəyə qalxdığını bildirən Mətin Məmmədli Afrikada və dənizaşırı ərazilərdə baş verən proseslərin bu mübarizənin yalnız başlanğıcı olduğunu dedi: “Neokolonializmin iflasa uğraması həm regional, həm də qlobal ədalətin bərqərar olması üçün vacib addımdır”.

*

Beləliklə, BTQ-nin Bakıda keçirdiyi beynəlxalq tədbir bir daha göstərdi ki, dünya ictimaiyyəti Fransanın müstəmləkə siyasətinə və onun fəsadlarına laqeyd deyil. Qvadelupun azadlığı və bu ada xalqının siyasi gələcəyini öz iradəsinə uyğun müəyyən etmək hüququ uğrunda beynəlxalq dəstək getdikcə daha geniş vüsət alır. Konfrans bir daha nümayiş etdirdi ki, dünya ictimaiyyəti Fransanın müstəmləkə siyasətinə və onun ağır fəsadlarına göz yummayacaq. Xüsusilə Karib hövzəsində yerləşən Qvadelupun azadlığını müstəqil şəkildə müəyyən etmək hüququ uğrunda beynəlxalq həmrəylik sürətlə genişlənir. Qvadelup məsələsi artıq təkcə regional problem kimi deyil, qlobal insan hüquqları və dekolonizasiya mübarizəsinin tərkib hissəsi kimi beynəlxalq gündəmə daşınıb.

Fransanın müstəmləkəçiliyindən əziyyət çəkən Qvadelup adasına həsr olunmuş və Bakıda keçirilən “Qvadelupun dekolonizasiyasına doğru! Çağırışlar və perspektivlər” adlı beynəlxalq tematik konfrans çərçivəsində də əhəmiyyətli addımlar atıldı. Tədbirin sonunda Qvadelup xalqının milli-azadlıq mübarizəsinə dəstək məqsədilə Bakı Təşəbbüs Qrupu və MİR Qvadelup təşkilatı arasında əməkdaşlığa dair rəsmi Memorandum imzalandı. Bu sənəd təkcə siyasi dəstək bəyanatı deyil, həm də gələcəkdə birgə layihələrin, informasiya mübadiləsinin və beynəlxalq platformalarda qarşılıqlı fəaliyyətin əsasını qoydu. BTQ-nin təşəbbüsü Qvadelup xalqının azadlıq mübarizəsinin beynəlxalq miqyasda daha da gücləndirilməsinə və Fransanın neokolonial siyasətinin ifşasına mühüm töhfə verəcək.

***Ə.PÜNHAN***
***XQ***

# Qvadelup – XXI əsrin “departament” adlı müstəmləkəsi

**Özünü “demokratiyanın beşiyi” adlandıran, əslində isə, bu gün də dünyanın dörd bir yanında müstəmləkələr saxlayan, orada yaşayan xalqların fundamental hüquqlarını kobud şəkildə pozan, təbii sərvətlərini istismar edən Fransanın əsarəti altında olan yerlərdən biri də Qvadelupdur.**




Karib dənizinin şərq hissəsində yerləşən, ərazisi 1628 kvadrat kilometr, 2019-cu ilin siyahıyaalmasına görə əhalisi 382,704 nəfər olan Qvadelupa Bas-Ter və Qrand-Ter, eləcə də bir neçə kiçik adalar daxildir. Bu adalar birgə götürüldükdə, yəni, ümumi ad altında Qvadelup kimi tanınır. Rəsmi dili fransız dili, dini katolikliklidir. Bura rəsmi sənədlərdə Fransanın dənizaşırı departamenti adlanır. Departamenti Fransa hökuməti tərəfindən təyin olunan prefekt idarə edir, seçilmiş Baş Şura (fransızca Conseil general) mövcuddur. Qvadelup Fransa Respublikasının parlamentində üç deputat və iki senatorla təmsil olunur. İnzibati mərkəzi Bas-Ter şəhəridir. İkinci böyük şəhər Puent-a-Pitrdir. Bölgənin valyutası avrodur.

Qvadelupda eramızdan əvvəl 300-cü ildən başlayaraq balıqçılıq və əkinçiliklə məşğul olan aravaki hindu tayfaları məskunlaşmağa başlayıblar. Adaya VIII əsrdə Cənubi Amerikanın digər tayfası – kariblər (qəraiblər) gəliblər. Onlar aravakilərin əksəriyyətini qovaraq adaya Karukera, yəni “Gözəl sular adası” adını veriblər.

Xristofor Kolumb Amerikaya ikinci səyahəti zamanı 1493-cü il noyabrın 4-də Qvadelupa ayaq basan ilk avropalı olub. O, buranı İspaniyada mövcud olan “Santa Mariya Quadalup Estremadura” monastırının şərəfinə Qvadelup adlandırıb.

Fransızlar 1635-ci ildə adanı ələ keçirib və kariblərin çoxunu məhv ediblər. Onlar adada şəkər qamışı plantasiyaları qurublar. Plantasiyalarda işləmək üçün Afrikadan qaradərili qullar gətiriblər. Ada 1674-cü ildə rəsmi olaraq Fransa taxt-tacının mülkü elan edilib. XVII—XVIII əsrlərdə Qvadelup bir neçə dəfə (1703, 1759, 1779, 1794, 1810 və 1815-ci illərdə) ingilislərin hücumuna məruz qalıb. Onlar 1759-cu ildə adanı ələ keçirməyə müvəffəq olublar, lakin 1763-cü ildə imzalanmış Paris müqaviləsi ilə Qvadelup Fransaya qaytarılıb. O dövrdə Qvadelupun çiçəklənməsi və çox əhəmiyyəti olması Paris müqaviləsi ilə qarşılıq olaraq Fransanın Britaniya müstəmləkəsi olan Kanadaya ərazi iddialarından imtina etməsi ilə sübut olunur.

Böyük Fransa İnqilabının yaratdığı qarışıqlıqdan yararlanmaq istəyən İngiltərə 1794-cü ildə adanı yenidən ələ keçirməyə cəhd edib. Hətta, həmin ilin aprelin 21-dən iyunun 2-dək ada ingilislərin tabeliyində olub. Ancaq fransızlar yenidən adanı geri alıblar. Qvadelup 1802-ci ilə qədər faktiki müstəqil respublika olaraq qalıb. Lakin ingilislər Fransanın Amerikadakı mülklərini təhdid edəndə Napoleon “separatçılar” adlandırdığı müstəqillik tərəfdarlarını əzmək və köləliyi bərpa etmək üçün adaya qoşun göndərib. Qoşunlar adada “asayişi bərpa etmək” prosesi zamanı 10 minə qədər qvadelupu öldürüb. İşğalçı qüvvələrin bütün adaya nəzarəti ələ keçirəcəyi bəlli olduqda Qvadelupda köləliyin bərpasına qarşı üsyana rəhbərlik edən Lui Delqres və inqilabi əsgərlərdən ibarət bir dəstə 1802-ci il mayın 28-də Sufrier vulkanının yamaclarında yerləşən Matubada intihar edib.

1805-ci ildə adada Fransa Mülki Məcəlləsi tətbiq olunmağa başlanıb. 1810-cu ildə ingilislər adanı yenidən geri alıblar. 1813-cü ildə Qvadelup İsveçə verilib. Çünki İsveçin artıq bölgədə, yaxınlıqdakı Sen-Bartelemi adasında koloniyası var idi. 1814-cü ildə Paris müqaviləsinə əsasən, İsveç adanı Fransaya qaytarıb. 1815-ci ildə yüz gün ərzində ada yenidən Fransanın mülkü olub. Kral XVIII Lüdovik tərəfindən yeni göndərilmiş qubernator, admiral Linua təkrar hakimiyyətə qayıtmış Napoleonu gözlənilmədən dəstəkləyib və ingilislərin yenidən adaya desant çıxarmasına səbəb olub. Buna baxmayaraq, Fransanın Qvadelup üzərində nəzarəti, nəhayət, həmin il Vyana konqresi tərəfindən tanınıb. 1816-cı ildə Paris müqaviləsi Fransanın nəzarətini gücləndirib. Adada köləlik yalnız 1848-ci ildə ləğv edilib.

Müstəmləkə əsarəti Qvadelup iqtisadiyyatının birtərəfli inkişafına səbəb olub: yalnız ixrac üçün nəzərdə tutulmuş kənd təsərrüfatı sahələri (şəkər qamışı, banan, qəhvə, kakao) inkişaf edib. Yalnız XIX əsrin sonlarında kənd təsərrüfatı məhsullarının emalı üçün bir sıra sənaye müəssisələri tikilib.

1946-cı ildə müstəmləkəçiliyin forması dəyişib: Qvadelup “Fransanın dənizaşırı departamenti” statusunu alıb. Mahiyyəti isə dəyişməz olaraq qalıb. 2007-ci ilə qədər Qvadelup departamentinə, həmçinin Sen-Bartelemi adası və Müqəddəs Martin adasının şimal hissəsi (cənub hissəsi Niderlanda aiddir) daxil edilib.

2009-cu ilin yanvarında Qvadelupda kütləvi iğtişaşlar baş verib. Bu iğtişaşlar sonradan Martinika adasına da yayılıb. Tətillər və etirazlar yaşayışın və əsas malların baha olmasından narazılıq, maaşların artırılması tələbləri səbəbindən başlamışdı. Yanvarın 20-də başlayan və fevralın sonuna qədər davam edən tətillər zamanı adalarda dövlət müəssisələri, o cümlədən məktəblər və ictimai nəqliyyat, eləcə də mağazalar və yanacaqdoldurma məntəqələri bağlanıb. İğtişaşlar adaların ənənəvi olaraq ağların dominantlıq təşkil etdiyi cəmiyyətində uzun müddətdir davam edən etnik, irqi və sinfi ayrıseçkiliyi üzə çıxarıb. Etirazlar adalarda turizmə ciddi zərbə vurub, çoxmilyonluq itkilər qeydə alınıb. İğtişaşlardan əvvəl Qvadelup və Martinikada son dərəcə yüksək işsizlik hökm sürürdü və Avropa İttifaqında Reyunondan (Fransanın digər müstəmləkəsi) sonra ikinci və üçüncü yerləri tuturdu.

Qvadelup və Martinikada Fransa hakimiyyətinin siyasətindən narazılıq indi də yüksəkdir. Yerli əhali Fransız müstəmləkəçiliyinin sosial-iqtisadi fəsadlarına etiraz edir və milli özünüdərkin güclənməsi fonunda müstəqillik tələbləri səsləndirir. Aksiya və mitinqlərdə kolonial idarəetmənin ədalətsizliyi, işsizlik və mədəni assimilyasiya siyasəti əsas hədəf kimi göstərilir. Hərəkatın liderləri Parisin bölgəyə qarşı yürütdüyü siyasətin postkolonial deyil, açıq müstəmləkə mahiyyəti daşıdığını bildirirlər. Fransa hökuməti isə vəziyyəti nəzarətdə saxlamağa çalışsa da, hər iki adada siyasi gərginlik getdikcə artmaqdadır.

***Səxavət HƏMİD***
***XQ***

# “Güllələnmiş heykəllərin fəryadı” yerdə qalmadı

**Bu günlərdə yazıçı Hüseynbala Mirələmovun 80 illik yubileyi qeyd edilir. Əlbəttə, hər bir insanın özünəməxsus bir həyat hekayəsi vardır. H. Mirələmov da özünə xas həyat çalarları ilə fərqlənən bir ömür yaşayan insandır. Hüseynbala müəllimi yaxından tanıyanlar, onun haqqında danışmaq, yazmaq istəyənlər, onu ilk növbədə ictimai-siyasi xadim, məmur, istehsal sahəsində rəhbər işçi, deputat, yazıçı, elmlər doktoru, professor, əməkdar mühəndis, eləcə də qayğıkeş mesenat kimi təqdim edəcəklər. Xüsusən torpaqlarımızın işğal altında olduğu dövrlərdə məcburi köçkünlərin maddi-məişət problemlərinin həllində onlara göstərdiyi hər cür dəstək çoxlarının yaddaşındadır. Bunu həmin illərdə çadır düşərgələrində çətin şəraitdə yaşayan məcburi köçkünlər dəfələrlə qeyd etmişlər.**



H.Mirələmovu xarakterizə edən ən diqqətəlayiq xüsusiyyətlərindən biri onun davamlı olaraq məhsuldar əmək fəaliyyəti ilə məşğul olmasıdır. Onun müxtəlif sahələrdə iş icraçısı, baş mühəndis, komitə sədrinin birinci müavini, zavod direktoru, millət vəkili kimi fəaliyyətləri haqqında kifayət qədər geniş danışmaq, kitablar yazmaq olar. O, işlədiyi bütün sahələrdə ona göstərilən etimadı istisnasız olaraq həmişə layiqincə doğrultmuş, bir çox nailiyyətlərə imza atmışdır.

Əmək fəaliyyəti ilə yanaşı, yaradıcılıq sahəsindəki uğurlu fəaliyyəti də ona cəmiyyətdə böyük hörmət və nüfuz qazandırmışdır. Əlbəttə, onun bu xüsusiyyətləri diqqətdən kənarda qala bilməzdi və o, fəaliyyət sahələrindəki uğurlarına görə müstəqil dövlətimizin orden, medal və mükafatları ilə təltif olunmuş, fəxri adlara layiq görülmüşdür. "Şöhrət" ordeni, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" yubiley medalı, "Azərbaycan Respublikasının əməkdar mühəndisi" fəxri adı, "Akademik Yusif Məmmədəliyev" və "Akademik Həsən Əliyev" adına beynəlxalq mükafatlar, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının "Beynəlxalq Qızıl Ulduz və Türk dünyasına xidmət" medalı, "İlin yazıçısı" mükafatı,"Qızıl qələm" mükafatı







və bir çox digər fəxri adlar və mükafatlar onun layiq görüldüyü təltiflərin yalnız bir qismidir. Bütün bunlar Hüseynbala Mirələmovun həyat və fəaliyyətinin nə qədər geniş, çoxşaxəli, səmərəli və məhsuldar olduğunun göstəriciləridir.

Lakin bu məqalədə onun haqqında daha çox Azərbaycan ədəbiyyatında öz dəst-xətti ilə seçilən və cəmiyyətdə özünəməxsus yeri olan bir yazıçı kimi danışmaq istərdik. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, XXI əsrdə yeni texnologiyaların sürətli inkişafı, qloballaşma, sosial şəbəkələrin həyatımıza təsiri və yeni estetik meyarların formalaşması həyatımızın bir çox sahələrinə dərindən nüfuz etmiş, müasir yaradıcılığın həm formasına, həm də məzmununa ciddi təsir göstərmişdir.

Yaradıcılıq sahəsində aydın sezilən bu dəyişikliklər haqqında fikirləri təsadüfən yazmırıq. Qeyd etdiyimiz bu xüsusiyyətlər həmişə Hüseynbala müəllimin yaradıcılığında ön planda olmaqda davam edir. Bu gün cəsarətlə deyə bilirik ki, H.Mirələmov nəsr, dramaturgiya, publisistika sahələrində zəngin və çoxşaxəli yaradıcılıq nümunələri ilə çağdaş Azərbaycan ədəbiyyatının tanınmış simalarından biridir. Onun yaradıcılıq irsi hər şeydən öncə vətən sevgisi, milli kimliyin və milli-mənəvi-tarixi dəyərlərin qorunması, tarixi hadisələrin və şəxsiyyətlərin təbliği, humanist ənənələrə sadiqliyi, insanın psixoloji-mənəvi aləminin dərinliklərinə nüfuz etməsi kimi vacib xüsusiyyətləri baxımından mühüm əhəmiyyətə malikdir. Yazıçının bütün əsərlərində ictimai-siyasi münasibətlər sistemini, tarixi və tarixi şəxsiyyətləri xarakterizə edən təsvir vasitələri təkcə estetik ifadə vasitələri kimi yox, həm də insanların arzu və istəklərini tərənnüm etmək və cəmiyyətin nəbzini duymaq üçün güclü bir alət kimi istifadə olunur.

Onun “Durnalar qayıtdı”, “Son arzu”, “Tənha durna uçuşu”, “Güllələnmiş heykəllərin fəryadı” əsərləri, “Simuzər”, “Babadil əfsanəsi”, “Gəlinlik paltarı”, “Qırxıncı otaq” romanları, “Xəcalət”, “Cəza” povestləri və bir sıra digər əsərlərində insan və zaman anlayışları ictimai hadisələr fonunda mərkəzi yer tutur. Xüsusilə “Xəcalət” əsəri həm psixoloji dərinliyi, həm də sosial məzmunu ilə oxucuda güclü emosional təəssürat yaradır. İnsanların daxili aləmi, mənəvi seçimləri və sosial münasibətlər sisteminin reallıqları bədii, bəzən də simvolik təsvirlərlə verilir.

Tarixi mövzulara müraciət edən yazıçının əsərlərində yaradıcılıq və sənət anlayışları yeni məzmun və daha geniş məna kəsb edir, onun ortaya qoyduğu çoxşaxəli yanaşmalar və buna uyğun istiqamətlər həm sənətkarların özü, həm də oxucular üçün düşüncə və qavrama sərhədlərini genişləndirir.

2020-ci ildə nəşr olunmuş “Süqut”, “Bənövşəyi əncir” və “Çaldıran yolu” romanlarının daxil olduğu “İki şah, iki sultan” trlogiyası türk dünyasının tarixinin və mənəvi dəyərlərinin tərənnümü və təbliğinə xidmət edir və müəllifin yaradıcılıq məziyyətlərini anlamaq və dəyərləndirmək baxımından çox qiymətli əsərlərdir. Trilogiyaya daxil olan əsərlərdə Azərbaycanın Orta əsrlər tarixinin ən keşməkeşli, ziddiyyətli dövrlərindən bəhs edilir, real tarixi qəhrəmanların, görkəmli türk sərkərdələrinin möhtəşəm obrazları bədii boyalarla oxuculara təqdim olunur. Bu əsərlərdə insanın daxili dünyası ilə xarici aləm arasında bir körpü qurulur, insanlar milli mənəvi və ümumbəşəri dəyərlərə fərqli prizmalardan baxa və nəticələr çıxara bilir.

Yazıcı bu əsərlərdə tarixi şəxsiyyətləri təkcə dövrünün qəhrəmanı kimi deyil, həm də psixoloji cəhətdən mürəkkəb insan obrazları kimi təqdim edir. O dövrün böyük hökmdarlarının faciəvi səhvlərini göstərməklə türk dövlətlərinin birliyini və varlığını istəməyən xarici qüvvələrin də əsil məqsədlərini göstərir və gələcək nəsillərin düşünməsi və nəticə çıxarması üçün əsaslar verir.

Ümumiyyətlə, Hüseynbala Mirələmovun adlarını çəkdiyimiz və bir sıra digər tarixi romanlarında əksini tapmış tarix yalnız keçmişin təqdimatı deyil, həm də müasirliklə paralel qurulan mənəvi və ideoloji bir platformadır.

Qarabağ mövzusu, vaxtılə erməni işğalı altında olan torpaqlarımızda erməni vandalların törətdikləri barbarlıq əməllərinin ifşa edilməsi də Hüseynbala Mirələmovun yaradıcılığında bütün dövrlərdə ön planda olmuşdur. Onun Qarabağ hadisələrinə həsr etdiyi çoxsaylı əsərlərində bəşəri duyğuların və vətən sevgisinin yüksək bədii tərənnümü ilə yanaşı, normal həyat tərzimizin sakitliyini əlimizdən almış erməni vandalların Azərbaycan xalqının başına gətirdiyi fəlakətlərin dərin təsviri həmişə əsas xətt kimi nəzərə çarpan xüsusiyyətlərdəndir. Onun bu mövzuda yazdığı əsərlərin hər sətrindən Qarabağ yanğısı, erməni faşizminin törətdiyi cinayətlərin gətirdiyi itkilərimizin acıları boylanır, itirilmiş torpaqlarımızı azad edəcəyimiz günün yaxınlığına dərin inam hissi duyulur.

Bu sətirlərin müəllifləri hələ 2004-cü ildə Şuşa Dövlət Musiqili Dram Teatrı tərəfindən tamaşaya qoyulmuş “Güllələnmiş heykəllərin fəryadı” əsərinin prezentasiyasında dəvətli şəxslər qismində iştirak etmiş və həmin tamaşa haqqında düşüncələrini “Qarabağ” qəzetinin 25 iyun – 10 iyul 2004-cü il tarixli nömrəsində dərc etdirmişdilər. Həmin məqalədə qeyd edilmişdi ki, bu əsər “müəllifin tez-tez müraciət etdiyi Qarabağ mövzusunun davamıdır. Yazıçı burada da öz ənənəsinə sadiq qalaraq, geniş ictimaiyyətin, hamının, hər kəsin diqqətini bu problemə yönəltmək istəmiş, hamını torpaqlarımızın azad edilməsi naminə səfərbər etmək istəyini ön plana çəkmişdir. Tamaşanın ümumi ideya xətti güllələnmiş heykəllərin fəryadından daha çox bu heykəllərin torpaqlarımızın azad edilməsinə çağırışı üstündə qurulmuşdur”.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin itirilmiş torpaqlarımıza, o cümlədən Qarabağa münasibətdə aydın, sərt və inamlı mövqeyini əks etdirən çıxışlarından bir epizodun tamaşanın süjet xəttinə daxil edilməsi onun ən uğurlu məqamlarından biri kimi həmin məsələyə münasibətdə xalq-rəhbər birliyinin, xalqın ümumi rəyinin, fikrinin tərənnümü idi. Tamaşanın sonunda bütün iştirakçılara, onların simasında xalqa ünvanlanan “Qaytarın Qarabağı!” çağırışı da zalda oturanlarda böyük emosional hisslər yaratmışdı və gələcək qələbələrinizə inamın nümayişi idi.

Bu gün fəxarətlə və qürur hissi ilə deyirik ki, yazıçının bu arzuları Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin başçılığı ilə qalib Azərbaycan Ordusunun zəfəri sayəsində həyata keçmiş və bütün torpaqlarımız üzərində üçrəngli Azərbaycan bayrağı dalğalanır.

Yazıçının publisistik fəaliyyəti də diqqətəlayiq cəhətlərdəndir. Onun "Molodaya qvardiya" nəşriyyatında "Görkəmli adamların həyatı" seriyasından çap olunan ulu öndər Heydər Əliyev, görkəmli oftalmoloq alim Zərifə Əliyeva və Prezident İlham Əliyev haqqında kitabları müasir Azərbaycanın siyasi tarixini bədii dildə təqdim edən nümunələrdir. Həmin kitablar 40-dan artıq xarici dilə tərcümə olunaraq nəşr edilib və Azərbaycan həqiqətlərinin beynəlxalq auditoriyaya çatdırılmasında xüsusi rol oynamaqdadır. Həmin əsərlərdə bu dahi şəxslərin təkcə müdrikliyi, dahiliyi deyil, həm də dövrün ruhu, ictimai dəyişikliklərin dinamikası əks olunur.

Hüseynbala Mirələmov haqqında danışarkən onun daha bir neçə xüsusiyyətini qeyd etmək vacibdir. O, təkcə bədii yaradıcılıq və ictimai-siyasi fəaliyyətlə deyil, həm də davamlı olaraq elmi yaradıcılıq fəaliyyəti ilə məşğul olmuşdur. Hüseynbala müəllim elmi-texniki tərəqqi və mühəndislik fəaliyyətinin inkişafını dəstəkləyən, ekspertizaların aparılması sahəsində tədqiqat işlərinin, layihələrin və proqramların həyata keçirilməsinə yardım göstərən Azərbaycan Mühəndislik Akademiyasının müxbir üzvü, Rusiya Mədən Akademiyasının üzvüdür. Azərbaycan, Qırğızıstan və bir neçə digər ölkənin Yazıçılar Birliklərinin üzvüdür. Texnika elimləri doktoru, professorudur. Onun müəllifi və həmmüəllifi olduğu "Nanotexnaologiya və nanokimyanin əsasları", "Neftin və qazın boru kəmərləri ilə nəqli", "İnşaat istilik fizikası", "Qaz emalı zavodlarında təhlükəsizlik qaydaları", "Boru kəmərləri və konstruksiyaların qaynağı" və digər elimi nəşrləri hazırda ali məktəblərdə dərs vəsaiti kimi istifadə olunan kitablardandır. Bütün bunlar onun həyat və fəaliyyətinin necə çoxşaxəli və səmərəli olmasının göstəricilərindəndir.

Yekun olaraq, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə möhtəşəm “Böyük Qayıdış Proqramı” həyata keçirilir. İşğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda nəhəng bərpa və quruculuq işləri həyata keçirilir. İnsanlarımız əsl əmək xarüqələri göstərirlər.

Düşünürük ki, Azərbaycan ədəbiyyatında artıq öz dəst-xətti ilə tanınan, yaradıcılıq irsi həm bu gün, həm də gələcək nəsillər üçün əhəmiyyətli elmi-ədəbi xəzinəyə çevrilən Hüseynbala Mirələmovun növbəti əsərləri şanlı Azərbaycan əsgərinə və əmək meydanlarında xarüqələr yaradan insanlarımıza həsr olunacaqdır.

***Natiq İSAYEV,***
***Rövşən AĞAYEV***

# Şəhid rəssamın ömür tablosu

**Abşeron rayonunda Vətən müharibəsi şəhidi Rauf İbadovun adına nəşr olunan “Haqq rəssamı” adlı kitabın təqdimat mərasiminə məni onun atası Məhərrəm kişi dəvət eləmişdi. Abşeron Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində reallaşan tədbirdən yetərincə qeydlərim olsa da, yazımı bir qədər gec, yəni Silahlı Qüvvələr Günü üçün hazırlamağı qərara aldım.**

Anım və təqdimat mərasimində rayon icra hakimiyyətinin başçısı Abdin Fərzəliyev, şəhid ailələrinin üzvləri, qazilər, ictimaiyyət nümayəndələri, ziyalılar və mədəniyyət xadimləri iştirak ediblər. Rayon rəhbəri Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlıqdan danışaraq, Rauf İbadov kimi şəhidlərin Vətən naminə canından keçməsinin hər bir azərbaycanlı üçün qürur mənbəyi olduğunu qeyd edib. O, çıxışında şəhidlərin qanı bahasına əldə edilən Zəfərin əbədiləşdirilməsinin və onların xatirəsinin daim uca tutulmasının vacibliyini vurğulayıb. Şəhid rəssamın istedadından danışıb.




Mərasim zamanı şəhid Rauf İbadovun döyüş yolunu və qəhrəmanlığını əks etdirən videoçarx nümayiş etdirilib. Kadrlarda onun cəbhədə göstərdiyi igidlik, əsgər və zabit yoldaşlarının onun haqqında söylədikləri fikirlər, həmçinin ailəsinin duyğularına geniş yer verilib. Eləcə də şəhidin adına çıxarılan “Haqq rəssamı” kitabından bəhs olunub. Üzqabığında verilmiş şəkildə Rauf üçrəngli, Ay-ulduzlu Azərbaycan bayrağı önündə əlində fırça öz aləminə qapılmış halda təsvir olunub. Baxdıqca düşünürük ki, əgər müharibə olmasaydı, indi o, yaradıcı təxəyyülünün məhsulu olan rəsmləri ilə sərgi salonlarını, muzey ekspozisiyalarını daha dolğun bəzəyəcəkdi. Bu sahədəki ilk uğurları belə deməyə əsas verirdi. Onun rəsmlərində Qarabağın azadlığına çağırış ruhu güclü idi. Sosial şəbəkələrdə yazdığı aforizmlərində də bu, özünü göstərirdi.

Rauf İbadov1996-cı ildə Abşeron rayonunun Saray qəsəbəsində anadan olub. Oradakı Azim Müzəffərov adına 2 saylı orta məktəbdə təhsil alıb. Sonra Azərbaycan Memarlıq və İnşaat Universitetinin inşaat-texnologiya fakultəsini bitirib. 2017–2018-ci illərdə hərbi xidmətdə olub. İstedadlı rəssam kimi tanınmağa başlayıb. Ancaq 2020-ci ilin Tovuz döyüşlərindən, general Polad Həşimovun şəhadətindən sonra qəlbinin hökmü ilə fırçasını silahla əvəz etməyi qərara alıb və hərbi komissarlığa ərizə verib. Vətən müharibəsi başlananda orduya çağrılan Rauf buna çox sevinərək, ilk gündən döyüşlərə atılıb. Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı cəbhələrində igidliklər göstərib. Dəfələrlə yaralı yoldaşlarını döyüş meydanından çıxarıb, onların qisasını da düşməndən artıqlaması ilə alıb.

Bir gecə Hadrutdakı meşəlikdə bütün heyətlə mühasirəyə düşür və 6 şəhid veriblər. Rauf onlardan birinin cəsədini çiyninə alaraq, 20 kilometrlik məsafədəki arxa posta çatdırıb. Səhərə yaxın qayıdıb öz mövqeyinə çatıb, komandirlərinə söz verib ki, bu qisası yerdə qoymayacaq və şəxsən özü gedib düşmən postunu alacaq. Tezliklə vədinə əməl edib və gizir rütbəsinə yüksəlib.

Sonra onun tərkibində vuruşduğu hərbi hissə Laçına göndərilib. Oktyabrın 23-də Laçın dəhlizi ərazisində mühasirəyə düşdükləri zaman üzbəüz atışma zamanı Rauf əlbəyaxa döyüşlə bir neçə düşməni məhv edib və qəhrəmancasına şəhid olub. Onun nəşi neçə gün neytral ərazidə qalıb və yalnız qısa atəşkəs zamanı oradan çıxarılıb. Oktyabrın 30-da Saray qəsəbəsindəki Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Ölümündən sonra Rauf İbadov “Cəsur döyüşçü”, “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub. Sarayda onun adını daşıyan küçədə şəhid bulağı yaradılıb. Bu qəsəbədə yerləşən 2 məktəbin müxtəlif siniflərinə, eləcə də Laçın rayon 5 saylı orta məktəbin siniflərindən birinə Rauf İbadovun adı verilib. Masazırda yerləşən uşaq bağçası və bir vaxtlar çalışdığı diş klinikası da onun adını daşıyır. Bakıda, Sumqayıtda bir çox rəsm sərgilərində Raufun əsərləri nümayiş olunur. Onun qanla yazdığı ömür kitabı belə səhifələrlə zəngindir. “Haqq rəssamı” kitabının nüsxələrini əldə edənlərin onu elə həmin gün oxuyub qürur duyduqlarına tam əminik...

Daha sonra mərasimdə çıxış edənlər – “Şərəf və “Şöhrət” ordenli şair, Əməkdar incəsənət xadimi Baba Vəziroğlu, şəhidin atası Məhərrəm İbadov və Abşeron Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri, şəhid Elçin Həsənlinin anası Xatirə İsmayılova Rauf kimi qəhrəmanlarımızın haqqında ürək sözlərini bölüşüblər. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda edən igid övladlarımızın daim yaddaşlarda yaşayacağını bildiriblər.

Digər çıxış edənlər də 44 günlük Vətən müharibəsində Azərbaycanın göstərdiyi rəşadətdən və qazandığı tarixi Qələbədən bəhs ediblər. Onlar deyiblər ki, bu Qələbə məhz şəhidlərin fədakarlığı və ordumuzun şücaəti sayəsində mümkün olub.

Mərasimin sonunda da çox kövrək, emosional anlar yaşanıb. Belə ki, iştirakçılar şəhid Rəhim Hüseynovun oğlu Fikrət Hüseynovun, şəhid Elsevər Paşayevin qızı Nəzrin Paşayevanın və şəhid Azər Salamanovun anası Zahidə xanımın doğum günlərini sidq-ürəklə təbrik ediblər. Onlara gül dəstələri təqdim olunub, şəhid ailələrinə göstərilən mənəvi dəstəyin daha bir nümunəsi sərgilənib. Eyni zamanda, tədbirdə iştirak edənlər şəhid Əli Ələkbərovun övladlarına Türkiyədə keçirilən olimpiadalarda qazanmış olduqları qızıl medal münasibətilə təbriklərini ünvanlayıblar. Bu uğurlar şəhid ailələrinin həm mənəvi, həm də fiziki dayanıqlığının göstəricisi kimi qiymətləndirilib.

Beləcə, Abşeronda şəhidlərimizin əziz xatirəsinə, gənc nəslə vətənpərvərlik ruhunun aşılanmasına mühüm töhfə olan daha bir tədbir yaddaşlara yazılıb.

***Ə.ƏLİYEV***
***XQ***

# Salnaməmələşən Qarabağ Zəfəri



**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında 26 İyun Silahlı Qüvvələr Günü ilə əlaqədar virtual və ənənəvi sərgi, videoçarx, eləcə də “Qalib və müzəffər Azərbaycan ordusu” adlı daycest hazırlanıb.**

Videomaterialda Silahlı Qüvvələr Gününün keçdiyi tarix yolu, bu günün əhəmiyyəti haqda məlumat verilir. Ulu öndər Heydər Əliyevin Azərbaycan ordusunun inkişafındakı rolunu əks etdirən maraqlı məlumatlarla yanaşı, Vətən müharibəsində Böyük Zəfərə imza atmış igid hərbçilərimizin görüntüləri də yer alır.

Təqdim olunan dövri mətbuat məqalələrinin biblioqrafik təsvirini, annotasiyasını və keçid linkini özündə cəmləyən daycestin hazırlanmasında əsas məqsəd geniş istifadəçi kütləsini müzəffər Azərbaycan Ordusu haqqında dərc olunmuş materiallarla tanış etməkdən ibarətdir. Kitabxananın rəsmi saytında yerləşdirilmiş vəsaitdə bir sıra rəsmi sənədlərin və “Heydər Əliyevin qətiyyəti, cəsarəti və siyasi iradəsi ilə qurulan ordu” adlı məqalənin tam mətni təqdim edilir. Əsasən 2021–2025-ci illəri əhatə edən məqalələr toplusu vəsaitdə illər üzrə, daxildə isə əlifba ardıcıllığı ilə verilib.

“26 İyun – Silahlı Qüvvələr Günü” adlı ənənəvi kitab sərgisində isə Silahlı Qüvvələr Gününün tarixini, əhəmiyyətini əks etdirən nəşrlər və kitabxana əməkdaşları tərəfindən hazırlanmış vəsait sərgilənməkdədir.

Videomaterial kitabxananın rəsmi saytında https://www.ryl.az/multimedia/qalib-azerbaycan-ordusu yerləşdirilib.

***XQ***

Yeni nəşrlər

# Milli heykəltaraşlığın canlı əfsanəsi




**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik İsa Həbibbəylinin “Xalq rəssamı Ömər Eldarov: heykəltaraşlıq sənətinin canlı əfsanəsi” monoqrafiyası çapdan çıxıb.**

AMEA-dan mətbuata bildirilib ki, monoqrafiya Azərbaycan heykəltaraşlıq sənətinin inkişafında özünəməxsus yeri və mövqeyi olan Xalq rəssamı – akademik Ömər Eldarovun yaradıcılıq fəaliyyətinə həsr olunub. Akademik İsa Həbibbəyli Xalq rəssamı Ömər Eldarovu Azərbaycan heykəltaraşlıq sənətində düşünən heykəltaraşlıq məktəbinin yaradıcısı hesab edir. Monoqrafiyada Xalq rəssamı Tahir Salahov təsviri sənətdə və Xalq rəssamı Ömər Eldarov isə heykəltaraşlıqda sərt realizm üslubunun yaradıcıları kimi təqdim olunur.

Ümummilli lideri Heydər Əliyevin heykəlləri Xalq rəssamı Ömər Eldarovun qranitdə əbədiləşdirdiyi dövlətçilik abidələridir. Görkəmli elm xadimi, akademik Zərifə Əliyevanın heykəli isə Ömər Eldarovun təqdimatında heykəlin şeiriyyəti kimi canlandırılıb. Akademik İsa Həbibbəyli görkəmli heykəltaraş, Xalq rəssamı Ömər Eldarovu Azərbaycan heykəltaraşlıq sənətinin axırıncı mogikanı kimi qiymətləndirib.

Kitabda Xalq rəssamı Ömər Eldarovun həyat və fəaliyyətini, ulu öndər Heydər Əliyevlə görüşlərini əks etdirən fotoşəkillərdən istifadə olunub və ustad heykəltaraşın əsərlərinin fotosalnaməsi oxuculara təqdim edilib.

Nəşrin elmi redaktoru AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, məsul redaktoru isə filologiya üzrə fəlsəfə doktoru dosent Ağahüseyn Şükürovdur.

***XQ***




# Ey Ulu göylər!

**Azərbaycan Dillər Universitetində fəaliyyət göstərən Konfutsi İnstitutunun direktoru Rafiq Abbasov qədim Çin bayramı – “Səmaya ehtiram günü” mövzusunda yay lektoriyası dinləyiciləri qarşısında mühazirə oxuyub.**





R.Abbasov ay təqvimi ilə 6-cı ayın altıncı gününə təsadüf edən və ilk dəfə Çinin Çjou sülaləsinin hakimiyyəti dövründə qeyd olunmuş bayramın tarixindən danışıb. Çin ənənəsində 6 rəqəmi Yerin gücünü və Kainatın mərkəzini simvolizə edir və iki altı rəqəminin birləşməsi çalışqan və məqsədyönlü insana xoşbəxtlik və firavanlıq gətirə bilər.

R.Abbasov qeyd edib ki, Çjou dövründən bu günə qədər Çində xeyirxah gücü, böyük hökmdarı təcəssüm etdirən, hər bir insanın hərəkət və düşüncələrini görən Səmaya pərəstiş kultu mövcud olmuşdur. Rəvayətə görə, Çin imperatoru hakimiyyətə gələrək, bəşər dünyası ilə Səma arasında vasitəçi olmaq üçün böyük “Səma oğlu” titulunu qəbul etməli və hər il Səmaya hörmət mərasimi keçirməli idi.

“Səmaya ehtiram günü”ndə ailə üzvləri ritual şam yeməyi üçün bir araya toplaşır, təmizlənmə mərasimi keçirir, malik olduqları xoşbəxtlik və uğura görə “Səma”ya minnətdarlıq üçün yeməklər, suvenirlər və çiçəklər gətirirlər.

R.Abbasov, həmçinin tələbələrin Çinin mədəni irsi, çinlilərin qədim inanc və adətləri ilə tanışlığının onların Çin xalqının özünəməxsus mənəviyyatını daha dərindən dərk etməsinə imkan verdiyini vurğulayıb.

***XQ***

## “Xətai Təchizat “ASC-nin 2024-cü il yanvarın 1-nə maliyyə vəziyyəti haqqında hesabatı

**manatla**

| Aktivlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Uzunmüddətli aktivlər | | |
| Əsas vəsaitlər | 31 849,00 | 33 525,00 |
| **Cəmi uzunmüddətli aktivlər** | **31 849,00** | **33 525,00** |
| Qısamüddətli aktivlər | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 12 271,56 | 13 695,29 |
| Ticarət və digər debitor borcları | 125 658,96 | 63 432,05 |
| **Cəmi qısamüddətli aktivlər** | **137 930,52** | **77 127,34** |
| **Cəmi aktivlər** | **169 779,52** | **110 652,34** |
| **Kapital və öhdəliklər** | | |
| **Kapital** | | |
| Nizamnamə kapitalı | 62 322,00 | 62 322,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 950,56 | (9 573,47) |
| Əvvəlki dövrlər üzrə bölüşdürülməmiş mənfəət | 32 695,34 | 42 268,81 |
| **Cəmi kapital** | **95 967,90** | **95 017,34** |
| **Öhdəliklər** | | |
| Qısamüddətli öhdəliklər | | |
| Ticarət və digər kreditor borcları | 2 498,28 | 15 635,00 |
| Digər öhdəliklər | 71 313,34 | 0,00 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **73 811,62** | **15 635,00** |
| **Cəmi öhdəliklər** | **73 811,62** | **15 635,00** |
| **Cəmi kapital və öhdəliklər** | **169 779,52** | **110 652,34** |

### MƏNFƏƏT VƏ YA ZƏRƏR HAQQINDA HESABAT

| **Vergidən əvvəl zərəri xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirmək məqsədilə aparılmış qeyri-nağd düzəlişlər** | | |
|---|---|---|
| Əsas vəsaitlərin amortizasiyası | 1 676,00 | 1 764,00 |
| Digər xərclər | 0,00 | (28 261,51) |
| **Dövriyyə vəsaitlərində dəyişikliklər** | **2 626,56** | **(36 070,98)** |
| Mal-material ehtiyatlarının azalması (artması) | 0,00 | 13 450,00 |
| Ticarət və digər kreditor borclarının artması (azalması) | (13 136,72) | (73 224,68) |
| Ticarət və digər debitor borclarının azalması (artması) | (62 226,91) | 83 937,95 |
| Digər öhdəliklərin artması (azalması) | 71 313,34 | 0,00 |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | **(1 423,73)** | **24 163,27** |
| Ödənilmiş mənfəət vergisi | (237,64) | 0,00 |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | **(1 661,37)** | **24 163,27** |
| **İnvestisiya fəaliyyəti** | | |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitlərinin hərəkəti** | **0,00** | **0,00** |
| **Maliyyələşdirmə fəaliyyəti** | | |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan pul vəsaitləri** | **0,00** | **0,00** |
| **İlin əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **13 695,29** | **25 603,00** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım (azalma)** | **(1 423,73)** | **(11 907,71)** |
| **İlin sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **12 271,56** | **13 695,29** |

### KAPİTALDA DƏYİŞİKLƏR HAQQINDA HESABAT

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **2023-cü il yanvarın 1-nə** | **62 322,00** | **70 530,32** | **132852,32** |
| Hesabat ili üzrə cəmi mənfəət (zərər) | - | (9 573,47) | **(9 573,47)** |
| Dividend ödənişi | - | 0,00 | **0,00** |
| Mənfəətin istifadəsi | - | (28 261,51) | **(28261,51)** |
| **2023-cü il dekabrın 31-nə** | **62 322,00** | **32 695,34** | **95 017,34** |
| Satışdan gəlirlər | | 266 432,63 | 237 855,00 |
| Əməliyyat və digər inzibati xərclər | | (265 244,43) | (247428,47) |
| **Əməliyyat mənfəəti** | | **1 188,20** | **(9 573,47)** |
| **Vergidən əvvəl mənfəət (zərər)** | | **1 188,20** | **(9 573,47)** |
| Mənfəət vergisi | | (237,64) | 0,00 |
| **Cəmi il üzrə mənfəət (zərər)** | | **950,56** | **(9 573,47)** |

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | | | |
|---|---|---|---|
| Vergidən əvvəl mənfəət (zərər) | | 950,56 | (9 573,47) |
| Hesabat ili üzrə cəmi mənfəət (zərər) | - | 950,56 | **950,56** |
| Dividend ödənişi | - | 0,00 | **0,00** |
| Mənfəətin istifadəsi | - | 0,00 | **0,00** |
| **2024-cü il** dekabrın 31-nə | **62 322,00** | **33 645,90** | **95 967,90** |

## “Hədiyyələr” ASC-nin 2025-ci il yanvarın 1-nə maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatı

**manatla**

| Maddələrin adları | Hesabat dövrü | Əvvəlki dövr |
|---|---|---|
| Qeyri-birja əməliyyatlarından gəlir | 135580.00 | 127127.00 |
| Birja əməliyyatlarından gəlir | | |
| Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı dəyişikliklər | | |
| Təşkilat tərəfindən yerinə yetirilmiş və kapillaşdırılmış işlər | | |
| Pul formasında verilmiş yardımlar (xəsarət müavinəti) | 2484.00 | 2484.00 |
| Natural formada verilmiş yardımlar | | |
| Xammal və istifadə olunmuş materiallar | | |
| **Əmək haqqı xərcləri** (hesablama) | 35870.00 | 38286.00 |
| Köhnəlmə və amortizasiya xərcləri | 6955.00 | 7478.00 |
| Sair əməliyyat xərcləri | 91206.00 | 84324.00 |
| Uzunmüddətli aktivlərin xaric olmasından qazanc və itkilər | | |
| **Əməliyyat mənfəəti (zərəri)** | 1549.00 | (2961).00 |
| Maliyyə gəlirləri | 138580.00 | 127127.00 |
| Maliyyə xərcləri | 134031.00 | 130088.00 |
| Mənfəət vergisi | 309.89 | 0.00 |
| Hesabat dövrü üzrə xalis mənfəət (zərər) | 1549.00 | (2961).00 |

## “Kapital Bank” ASC səhmdarlarının nəzərinə!

28 iyul 2025-ci il saat 11.00-da, Bakı şəhəri, Nərimanov rayonu, Əhmədbəy Ağaoğlu küçəsi 61 nömrəli ünvanda yerləşən ADA Universitetinin” E” binasında

(2-ci mərtəbədə yerləşən “Collaboration Room”) bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

I. “Kapital Bank” ASC tərəfindən 2024-cü il üzrə maliyyə ilinin yekunlarına əsasən səhmdarlara dividend ödənilməsi barədə.

Məruzəçi: Zaur Musayev.

II. Digər məsələlər.

Məruzəçi: Yaşar Məmmədov.

## “Beyləqan Avtonəqliyyat” ASC səhmdarlarının nəzərinə!

9 avqust 2025-ci il saat 11.00-da “Beyləqan Avtonəqliyyat”ASC səhm-darlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və qarşıdakı vəzifələr barədə.

2. Digər məsələlər.

Ünvan- Beyləqan şəhəri, Magistral küçəsi.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 130 (30824) 26 iyun 2025-ci il, cümə axşamı

## İDMAN

### AFFA İcraiyyə Komitəsinin iclası



**Dünən SOCAR-ın inzibati binasında AFFA İcraiyyə Komitəsinin növbəti iclası keçirilib. AFFA prezidenti Rövşən Nəcəf iclasın gündəliyi barədə məlumat verib.**

UEFA-nın "HatTrick investment" proqramı barədə qurumun baş katibi Cahangir Fərəcullayev məlumat verib. Layihə çərçivəsində nəzərdə tutulan bir sıra infrastruktur məsələlərinin icrası müzakirə edilib.

Sonra Əvəzedicilər Liqasında ötən mövsümün gedişi, komandaların vəziyyəti, statistik göstəriciləri barədə məlumat verilib. Məsələ ilə bağlı Klublar Komitəsinin rəyi dinlənilib.

Azərbaycan Futzal Federasiyasının təqdimatına əsasən, Yevgeni Kukseviçin yığmanın baş məşqçisi, Aleksey Kudlayın isə fiziki hazırlıq üzrə məşqçisi vəzifəsinə təyinatı təsdiqlənib. İclasda qadın futbolunun perspektivləri bağlı məsələlər də diqqət mərkəzində olub.

### "Qarabağ" klubu Xankəndidə



**Ağdam komandasının futbolçu və məşqçi heyətinin Xankəndinə gəlişi şəhər sakinlərinin marağına səbəb olub. Sakinlər futbolçularla tanış olaraq həvəslə onlarla xatirə şəkilləri çəkdiriblər.**

Ardınca kollektiv Qarabağ Univetsitetində yaradılmış şəraitlə yaxından tanış olub. Görüş zamanı çıxış edən Qarabağ Universtetinin rektoru Şahin Bayramov "Qarabağ" klubunu Xankəndi şəhərində görməkdən məmnun olduğunu, belə səfərlərin tez-tez baş tutmasını arzuladığını bildirib.

Tələbələrlə görüşdən şad olduğunu dilə gətirən "Köhlən atlar"ın baş məşqçisi Qurban Qurbanov qonaqpərvərliyə görə universtetinin rəhbərliyinə minnətdarlığını çatdırıb. Daha sonra "Qarabağ"ın futbolçuları, məşqçi heyəti və rəsmiləri konsert proqramında iştirak ediblər.

Qeyd edək ki, "Qarabağ" klubunun üzvləri bundan əvvəl Şuşa şəhər stadionunda şəhər sakinləri və Şuşa 1 saylı tam orta məktəbin şagirdləri ilə görüşüblər.

### Modriç "Milan"a üz tutur



**ABŞ-ın evsahibliyi etdiyi klublararası dünya çempionatından sonra İspaniyanın "Real Madrid" klubundan ayrılacaq xorvatiyalı məşhur futbolçu Luka Modriç İtaliyanın "Milan" komandasına keçəcək. Bu barədə tanınmış insayder Fabritsio Romano məlumat yayıb.**

Onun sözlərinə görə, 39 yaşlı futbolçu mundialdan sonra uşaqlıqdan azarkeşi olduğu "rossonerilər"lə 2026-cı ilin yayına qədər müqavilə imzalayacaq.

Qeyd edək ki, 2012-ci ildən "Real Madrid"də çıxış edən futbolçu bu müddət ərzində 590 matçda 43 qol və 95 məhsuldar ötürmə ilə yadda qalıb.

*M.HACIXANLI*
*XQ*

## Təbiət abidələrimiz

# Cıdır düzü – heyrət və qeyrət səhnəsi

### Şuşada qıy vuran qartallarla söhbət

**Cıdır düzündəyəm, ilk dəfə görənlərin heyrətlə izlədikləri sıldırım qayaların başında dayanmışam. Yay fəslinin ilk günlərində günorta çağı həzin soyuqdan üşümək ruhumu təzələyir. Rəsul Rzanın təbirincə desək:**



**Kirsin sərin mehi gəlir,**
**sığallanır Cıdır düzü.**
**Dan yerindən qalxan günəş**
**xəbər verir,**
**zəfər dolu bir gündüzü.**
**Danış-danış Cıdır düzü...**

Ancaq tarixlər şahidi, ərlər-ərənlər oylağı, türk oğlu türk igidlərinin at çapıb qurşaq tutduğu, qırmızı koftalı, yaşıl tumanlı, abırlı-həyalı qız-gəlinlərin onları oğrun-oğrun süzüb sevdalandıqları bu sehrli məkan doğmalarına qovuşmağın sərməstliyindən susub, danışmır.

Əvəzində dərin dərələrdən dolana-dolana pərvazlanmaqda olan bir cüt qartal "qıy" çəkərək duyğularıma qarşılıq verir, səssiz həmsöhbətimə çevrilir. Zirvələrin sahibi, masmavi səmanın hökmdarı olan bu qartallar o qədər qayğısız, o qədər firavan və xoşbəxt uçurlar ki... Qorxmadan, ürkmədən, başımın üstünə qədər yaxın gələrək, havada süzülüşlərinin səsini eşidə biləcəyim qədər...

Sanki illər boyu gördüklərini danışmaq, dərdləşmək istəyirlər. Sanki bir vaxtlar bu yamyaşıl çəmənliyin mənfur düşmənin sərxoş rəqslərindən inlədiyinə, Xarı bülbülün qəhrindən saralıb-solduğuna necə qəzəbləndiklərini xatırladırlar.

Elə bil yenilməz Sərkərdənin rəhbərliyi ilə başında dayandığım sıldırımlar yuxarı dırmaşaraq yalın əllə həmin kafirlərə qan udduran, soysuz-köksüz yağıları torpağımıza göz dikdiklərinə peşiman edən, gəldikləri yerə qədər qovan cəngavər oğullarımızın qəhrəmanlıqlarını qürurla yada salırlar.

Sanki Cıdır düzünün üzlərindən xoşbəxtlik, gözlərindən sevinc yağan, dillərindən şəhidlərimizin ruhuna dualar ucalan ziyarətçilərinə deyirlər ki, ehtiyatla addımlayın, ayaq basdığınız bu torpağın hər qarışı qanla yoğrularaq müqəddəsləşib.



**Əziz Şuşam,**
**gözəl Cıdır düzüm,**
**tarix sənin**
**torpağında, daşındadır,**
**hər yan-yörən,**
**hər dolayın,**
**hər cığırın**
**Azərbaycan – Vətən dadır!**

Azərbaycan, Vətən dadan torpağına, daşına, dolayına, cığırına qurban, Cıdır düzü. Səni daha heç vaxt tək qoymayacağıq!

*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbiri,*

**Şuşa**

## Cavad Heyət və türk kimliyi mövzusu



**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "Cavad Heyət və türk kimliyinin elmi zəfəri" mövzusunda elmi sessiya keçirilib.**

Elmi sessiyanı açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxışında Cavad Heyətin türkologiya, tibb elmi və digər sahələrdə əvəzedilməz xidmətləri olduğunu diqqətə çatdırıb. Bildirib ki, "Varlıq" dərgisi Cavad Heyətə humanitar sahənin görkəmli mütəxəssisi kimi nüfuz qazandırıb.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli çıxışında Cavad Heyətin çoxşaxəli fəaliyyətindən, onun ədəbiyyatşünaslıq, ədəbi tənqid, publisistika və fəlsəfə tarixinin ən müxtəlif məsələlərinə dair tədqiqatlarından söz açıb.

Elmi seminarda "Xatirələrimdəki Cavad Heyət", "Doktor Cavad Heyət: alovlu vətənpərvər və əsl ziyalı olmağın parlaq nümunəsi", "Varlıq" dərgisinin ilk sayı və Əncümən-Azərbaycanın nümunələri", "Elmi işçilərin hamisi", "Tanımadığım və yaxından tanıdığım Cavad Heyət" adlı məruzələr dinlənilib.

Tədbirin qonaqları – Robert Bağır Heyət, yazıçısı, tərcüməçi və publisist, Almaniya Yazarlar Birliyinin üzvü Orhan Aras və Nadir Heyət çıxışlarında Cavad Heyətlə bağlı xatirələrini bölüşüblər.

*XQ*

## Şəhid ailələri Zəfər ünvanlarında



**Silahlı Qüvvələr Günü münasibətilə bir qrup şəhid ailəsinin üzvləri şanlı Ordumuz tərəfindən işğaldan azad edilmiş ərazilərə səfər edib, burada keçirilən görüşlərin qonağı olublar. Zəngilan rayonuna və Cəbrayıl şəhərinə səfər edən fəxri qonaqlar, əvvəlcə işğaldan azad olunmuş torpaqlara ilk köçün ünvanı - Ağalı kəndinə gəliblər.**

Zəngilan şəhər məscidini ziyarət edən qonaqlar sonra şəhərdə aparılan bərpa-quruculuq işləri, həmçinin bir neçə tədbirə ev sahibliyi etmiş Zəngilan Konqres Mərkəzi ilə də tanış olublar.

Sonda "Ağalı" hotelində sakinlər və şəhid ailəllərinin üzvləri üçün Şəmistan Əlizamanlının ifasında vətənpərvərlik ruhunda musiqi nömrələri, bədii kompozisiyalar təqdim edilib.

"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin və Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin təşkilatçılığı ilə baş tutan səfər, ertəsi gün Cəbrayıl şəhərinə tanışlıq turundan sonra başa çatıb.

*XQ*

## HAVA

### Yağmursuz və dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 26-da Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Mülayim cənub küləyi əsəcək. Gecə 19-22°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 758 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz olacaq. Abşeron çimərliklərində**



dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 22-23° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 23-24° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 31-36°, dağlarda gecə 7-12°, gündüz 18-23° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Belarus Respublikasında Fövqəladə və səlahiyyətli səfiri Məhərrəm Əliyev və Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Adil Əliyev Milli Məclisin deputatı Sahib Alıyevə atası

**EYVAZ ALIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3688
SİFARİŞ 1253
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00